ISSN 0206-4340

# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI TƏDRİSİ

60 İL

BAKI - 2014

№ 2

Scanned with ACE Scanner

*ELMİ-METODİK JURNAL*

Təsisçi: Azərbaycan Respublikası Təhsil Nazirliyi

№ 2 (240). Aprel – İyun 2014-cü il. Jurnal 1954-cü ildən çıxır.

# MÜNDƏRİCAT

Akademik Məmməd Arifin 110 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ........ 2

**BAŞ REDAKTORDAN**

"Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalının 60 yaşı tamam olur ........ 3

**DİLÇİLİK VƏ ƏDƏBİYYATŞÜNASLIQ**

**S.Ələsgərova** – Söhrab Tahirin poeziyasında azadlıq mübarizəsi ........ 6

**ÜMUMTƏHSİL, ORTA İXTİSAS VƏ ALİ MƏKTƏBLƏR: TƏDRİS METODİKASI VƏ İŞ TƏCRÜBƏSİ**

**O.Abbasov** – "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və təlimdə milli dəyərlərdən istifadənin aktual problemləri ........ 12

**H.Qasımov** – Mir Cəlalın yaradıcılığı öyrədilərkən ........ 16

**T.Həsənova** – Yeni texnologiyaların tətbiqi həyatın tələbidir ........ 24

**N.Qulamoğlu** – Tələffüz normalarını necə əsaslandırmalı? ........ 30

**V.Məmmədova** – M.Füzulinin "Əql yar olsaydı" qəzəlinin təhlili ........ 35

**Y.İsgəndərova** – Söz tərkibinin öyrədilməsi ........ 39

**G.Abdullayeva** – VIII sinifdə Azərbaycan dilindən xitabın tədrisində yeni təlim üsullarının tətbiqi ........ 43

**S.Abdullayeva, N.Məmmədova** – Omonimlərin müəyyənləşdirilməsində qrammatik meyarların rolu ........ 48

**V.Qurbanov, L.Əsədullayeva** – Azərbaycan dili təlimində fəndaxili əlaqəyə istinad etməyin didaktik imkanları ........ 50

**O.Piriyeva** – "Şah İsmayıl Xətai" mövzusunun öyrədilməsində yeni təlim metodlarından istifadə ........ 55

**G.Əsgərova** – Şagirdlərin nitq mədəniyyətinin inkişafında sinifdənxaric oxunun rolu ........ 61

**F.Əzizova** – İnnovativ metodların tətbiqi zamanı qrup işlərinin təşkili ........ 63

**Ə.Bədəlova** – Klassik ədəbiyyatda işlənən rəmzlər və difər incəliklər barədə ........ 67

**CƏNUB ƏDƏBİYYATI**

**B.Mollayi** – Zəncan ədəbi mühitinin yetirməsi olan satirik şair Əhməd Sadiqinin poetik dünyası ........ 71

**XƏBƏR – SERVİS**

Alimin yubileyi ........ 75

Ədəbi aləmdə ........ 77

Xarici ölkələrdə ........ 78

Yeni nəşrlər ........ 79

Scanned with ACE Scanner

# AKADEMİK MƏMMƏD ARİFİN 110 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

*Azərbaycan Respublikası Prezidentinin sərəncamı*

2014-cü ilin iyun ayında görkəmli Azərbaycan ədəbiyyatşünası və tənqidçisi, tanınmış pedaqoq və ictimai xadim, respublika Dövlət mükafatı laureatı, əməkdar elm xadimi, akademik Məmməd Arifin (Məmməd Arif Məhərrəm oğlu Dadaşzadənin) anadan olmasının 110 illiyi tamam olur.

Məmməd Arif XX əsr Azərbaycan ədəbiyyatşünaslığının və ədəbi tənqidinin formalaşdırılması və inkişaf etdirilməsində böyük rol oynamışdır. Milli ədəbiyyat tarixinin yaradılmasında yaxından iştirak edən alim respublikada yüksək ixtisaslı elmi kadrların hazırlanması işinə töhfələrini əsirgəməmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və akademik Məmməd Arifin Azərbaycan ədəbiyyatının inkişafı sahəsində diqqətəlayiq xidmətlərini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, akademik Məmməd Arifin 110 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri, 15 aprel 2014-cü il.*



# "AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI TƏDRİSİ" JURNALININ 60 YAŞI TAMAM OLUR

***Bu gün dövlət-mətbuat münasibətlərində Heydər Əliyevin siyasətini və ənənələrini davam etdirərək, Azərbaycan dövləti mətbuatın fəaliyyətinə normal şərait yaradılması, onun cəmiyyət həyatına təsirinin, demokratikləşmə proseslərində rolunun təmin edilməsi və artırılması, vətəndaşların və jurnalistlərin informasiya almaq hüququnun tam reallaşdırılması üçün ardıcıl tədbirlər görür.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti.***

Pedaqoji mətbuat tariximizdə mühüm yer tutan jurnallardan biri də "Azərbaycan dili və ədəbiyyatı tədrisi"dir. O, düz 60 ildir ki, pedaqoji ictimaiyyətin xidmətindədir.

Əsası 1954-cü ilin 15 iyulunda qoyulmuş "Azərbaycan dili və ədəbiyyatı tədrisi" uzun illər "Azərbaycan məktəbi" jurnalının metodik əlavəsi kimi fəaliyyət göstərmişdir. 3 dekabr 1990-cı ildə müstəqil redaksiyası yaradılaraq, əvvəlcə "Ana sözü" adı altında nəşr edilməyə başlanılmış, sonra isə, yəni 2 aprel 1997-ci ildə yenidən ilkin adına qaytarılmışdır. O, Azərbaycan Respublikası Təhsil Nazirliyinin elmi-metodik mətbu orqanıdır.

"Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalı Təhsil Nazirliyinin bütün müəssisələrində, həmçinin qeyri-dövlət müəssisələrində Azərbaycan dili və ədəbiyyatının tədrisi, təbliği və tətqiqi problemlərini araşdırır. Azərbaycan Respublikası Konstitusiyasının tələblərinə uyğun olaraq, dilimizin təmizlik və saflığının qorunmasına xidmət edir. Təhsil Qanununa müvafiq surətdə Azərbaycan dili və ədəbiyyatı sahəsində təhsil islahatlarının istiqamətlərini işıqlandırır.

Jurnal Azərbaycan dili və ədəbiyyatı fənlərinin tədrisinə dair müasir metodikanı, qabaqcıl müəllimlərin iş təcrübələrini ümumiləşdirib yayan yazılar dərc edir. O, öz səhifələrində



Scanned with ACE Scanner

Azərbaycan dili və ədəbiyyatının elmi-nəzəri məsələlərini yeni, müasir baxımdan şərh edən məqalələr verir, metodikanın yeniləşməsi prosesində demokratik prinsiplərə əsaslanaraq plüralizmə, dialoq və müzakirələrə geniş meydan açır, müəllimlərin maraq dairəsini nəzərə alaraq, onlar üçün faydalı olan elmi-metodik yazıları xarici ölkə jurnallarından tərcümə edib işıqlandırır, dünya ədəbiyyatının son nailiyyətləri barədə məlumatlar çatdırır.

Jurnal milli məktəblərimizin rus və digər bölmələrində Azərbaycan dilinin öyrədilməsi metodikasına, bu məktəblərdə çalışan qabaqcıl müəllimlərin iş təcrübələrinə, proqram və dərsliklərə dair yazılar dərc edir, respublikamızdan kənarda yaşayan həmvətənlərimizə ana dilimizin öyrədilməsi yolları barədə bilgilər verir.

Jurnalda ədəbiyyatşünaslıq və dilçiliyə, dil və ədəbiyyatın tədrisi tarixinə, qloballaşan dünyamızda baş verən mühüm ədəbi proseslərə, yeniliklərə dair yazılar da yer alır.

"Azərbaycan dili və ədəbiyyatı tədrisi"nin səhifələrində respublikamızın görkəmli elm və ədəbiyyat xadimləri, metodist alimlər, adlı-sanlı müəllimlər çıxış edir, fikir mübadiləsi aparırlar.

Jurnal, demək olar ki, orta məktəb müəllimlərinin, ali məktəblərin dil və ədəbiyyat kafedralarında çalışan alimlərin, pedaqoqların əlaqə mərkəzidir. Burada tez-tez Təhsil Nazirliyi aparatının məsul işçiləri, Təhsil Problemləri İnstitutunun əməkdaşları çıxış edərək müəllimlərə tövsiyələrini verir, onları metodik cəhətdən istiqamətləndirirlər. Azərbaycan dili və ədəbiyyatı ilə bağlı sahə institutları rəhbərlərinin, respublikamızın tanınmış mütəxəssislərinin çıxışları da jurnal səhifələrində müntəzəm surətdə yer alır. Akademiklər Ağamusa Axundov, İsa Həbibbəyli, AMEA-nın müxbir üzvləri Tofiq Hacıyev, Nizami Cəfərov, professorlar Şəmistan Mikayılov, Qəzənfər Kazımov, Ənvər Abbasov, qabaqcıl təhsil işçiləri Əsgər Quliyev, Qənirə Əmircanova redaksiya heyətinin üzvləri kimi jurnalın fəaliyyətinin yaxşılaşdırılmasında yaxından iştirak edir, maraqlı yazıları ilə oxucuların qonağı olurlar.

Jurnalın zaman-zaman formalaşıb inkişaf etməsində onun baş redaktorları Mirabbas Aslanovun, Ağamməd Abdullayevin, Əziz Əfəndizadənin, Zəhra Əliyevanın, Bahəddin Yunusovun xidmətlərini xüsusi qeyd etmək lazımdır.



Öz ənənələrinə sadiq qalan, hörmətlə yanaşan jurnal bu gün yeni simada, yeni məzmunda fəaliyyətini davam etdirir, təhsildə baş verən yeniləşməyə, müasir baxımdan inkişafa uyğun olaraq o da dəyişir və müəllimlərin stolüstü vəsaitinə çevrilir.

Pedaqoji mətbuat müəllimin ən yaxın köməkçisidir. Bu həqiqəti yüksək qiymətləndirən Təhsil Nazirliyi digər mətbu orqanları kimi "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalına da yardımlarını əsirgəmir, onun inkişafı üçün nə lazımdırsa etməyə çalışır.

Dövlətimizin xüsusi önəm verdiyi, mətbuata böyük qayğı göstərdiyi bir məqamda "Azərbaycan dili və ədəbiyyatı tədrisi"nin də dəyəri artır, onun üzərinə işini yüksək səviyyədə qurmaq kimi məsul bir vəzifə düşür. Jurnalın yaradıcı heyəti bu məsuliyyəti duyur və elə buna görə də onun səmərəli fəaliyyəti üçün yeni-yeni yollar arayır.

Jurnalda müntəzəm surətdə "Dilçilik və ədəbiyyatşünaslıq", "Ümumtəhsil, orta ixtisas və ali məktəblər: tədris metodikası, iş təcrübəsi", "Ədəbi mühit", "Dünya xalqları ədəbiyyatı", "Azərbaycandan kənarda: dilimizi və ədəbiyyatımızı yaşadanlar", "Polemika", "Aktual söhbət", "Elm xadimləri", "Əməkdar müəllimlər", "Korifeylər", "Məsləhət" rubrikaları altında çox sayda maraqlı yazılar verilir ki, bunlar da oxucuların dünyagörüşünün, biliyinin və təcrübəsinin zənginləşməsinə xidmət edir. "Sərəncamlar", "Xronika", "Xəbər - servis" rubrikaları isə oxuculara dövlət başçımızın yazıçı və şairlərin təltifləri ilə, Təhsil Nazirliyində, ədəbi aləmdə, dünyada baş verən yeniliklərlə tanışlıq imkanı yaradır.

Sevindirici haldır ki, jurnal çox sayda müəllif yetişdirmiş, yaradıcılıq işini müəllimlərin ciddi bir məşğuliyyətinə çevirmişdir. Onların arasında Esmira Cəfərova, Şövkət Aslanova, Şəhla Mirzəyeva, Sədaqət Həsənova, Elbəyi Maqsudov, Asif Hacıyev kimi qabaqcıl müəllimlər, alimlər, ilin qalibləri, Prezident mükafatçıları yetişmişlər.

Əməkdaşlardan Akif Məmmədov, Əsmər Bədəlova, Soltan Hüseynoğlu, Oqtay Abbasov məhz jurnalın redaksiyasında həm jurnalist, həm də tədqiqatçı kimi püxtələşmişlər.

60 il mətbuat üçün böyük ömürdür. Onu bu yaşa gətirənlərə minnətdarlığımızı bildirir, əməkdaşlara, redaksiya heyətinin üzvlərinə, oxuculara möhkəm cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.



Scanned with ACE Scanner

# SÖHRAB TAHİRİN POEZİYASINDA AZADLIQ MÜBARİZƏSİ

**Sakibə ƏLƏSGƏROVA,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi**

*Yumruqları düyünlənmiş*
*Azərbaycan vətənimdir.*
*S.Tahir.*

***Açar sözlər:*** *vətən, həsrət, azadlıq, intiqam, gələcəyə inam.*

Azərbaycan demokratik poeziyasının nümayəndələrindən olan Söhrab Tahirin əsərləri ilə oxucular XX əsrin 50-ci illərindən tanışdırlar. Keçdiyi ağır həyat yolu bu və ya digər şəkildə onun yaradıcılığında əks olunub. 1941-ci ildə sovet qoşunlarının Cənubi Azərbaycanda yerləşdirilməsi Söhrabın ailəsinə də uğurlu olur. Sürgün həyatından xilas olan ailə ayrı-ayrı şəhərlərdə iş axtarır. Axırda Təbrizdə iş qururlar. Təbriz mühiti onun dünyagörüşünə və fəaliyyətinə güclü təsir göstərir. Onun üçün həyat istiqaməti artıq müəyyənləşir: milli demokratik hərəkata qoşulur. "21 Azər" medalları siyahısında onun da adı var. Əlində silah fədailərlə bərabər vuruşan gənc demokrat hərbi və siyasi qabiliyyətinə görə Azərbaycan Demokrat Partiyası Mərkəzi Komitəsində işə cəlb edilir, partiya sıralarına qəbul olunur. Cənubi Azərbaycan xalqının mübarizə əzmi ilk qələm təcrübələrindən başlayaraq, şairin şeirlərində əks olunmağa başlayır. Sovet Azərbaycanına gələrək ali təhsil alır, filoloq kimi formalaşır, qəzet və jurnallarda əməkdaşlıq edir. Moskvada təhsilini artırır. Ömrünün yaşlı dövrünə qədər ədəbi fəaliyyəti ilə bərabər ictimai-siyasi fəaliyyətini də davam etdirir. Onun yaradıcılığında milli-azadlıq hərəkatı, vətənpərvərlik, xalqın mübarizə əzmi, sovet xalqının yaşayışı, vətən həsrəti və s. aparıcı mövzulardır. Təbrizdən, ailəsindən, doğmalarından uzaq olması onun həsrətini daha da alovlandırır. Vətən sözü işlədəndə ağzında "dili yanan", ona səmt barmaq uzadanda "əli yanan", düşünəndə qəlbi yanan şairin kədəri böyükdür. Vətənində baxımsızlıqdan şəhərləri kəndə dönüb, azadlığını, var-dövlətini düşmən əlindən alıb, heç bir şey öz yerində deyil. Şairin ürəyi yaralıdır, düşmənin Azərbaycan türklərini bir millət kimi danması ona ağır gəlir. "Yandım-yandım" (1, səh.20) şeirində bu yanğısı qələmə alınıb. Ana yurdu od-alov içərisindədir:

***Səni niyə tanımadım, tanıyanda***
***Yandım-yandım.***
***Dağ ürəyim dəniz kimi qaynayanda***
***Yandım-yandım.***

Şah rejiminin yenidən bərpa olunmasından sonra odlara qalanan Vətəni və xalqı qəzəb içərisindədir. Ahlar, nalələr ərşə bülənd olub, ürəyi dağlanan xalqına dözüm arzulayır. Arzulanan günün gələcəyinə inanır. Şair özü bu dəhşətlərə dözə bilməyib, el-obadan uzaqda yanır. Şair vətəninin iki yerə parçalanmasını qəbul etmir. "Dağ sinəsində dağ ürəyi qoşa-qoşa haçalanan" şair özünü və xalqını dağa dırmaşıb son məqamda hər dəfə geriyə sürüşən bir mücadilənin içərisində tapır. Ailələr də parçalanıb. Hansı ailəyə diqqət yetirsən, şəhid olanı, zindana düşəni, sürgünə göndəriləni var. Şəxsi ailəsinin başına gələnləri Təbrizdə olarkən yazdığı "Ölümdən bir gün qabaq" (1, səh.23) adlı şeirində müfəssəl təsvir etmişdir. Şeirdə mübarizədə bərkimiş, haqq yolunda şəhid olmaq haqqına sahib bir Azərbaycan qadınının – şairin anasının nəsihətini dinləməli oluruq. Ana şəhid olmağı ən yüksək şərəf sayır: milyonları alçaqların qoltuğunda yaşamağa yox, şəhidlik



zirvəsinə hazırlayırıq. Çünki düşmən qaniçəndir, düşünməyə haqqın və vaxtın yoxdur. Ya qələbə çalmalısan, ya sabah edam olunacaqsan. Ananın həyat yoldaşı, üç oğlu, iki qızı haqq yolunda şəhid olub. Xalqın yolunda mübarizəyə çıxan birinin namərd qabağında ağlayıb ailəyə ləkə vurmağa haqqı yoxdur. Ana o qədər dərdlidir ki, buludların, bulaqların gözüylə ağlasa belə "ürəyi boşalmayacaq". Odur ki, övladına güllə qabağında kiprik qırpmamağı, edam dirəyində boğazına sarılan ipi onu sıxan qundağı, beşiyi kimi qəbul etməyi nəsihət edir:

***Vətən səni bələyibdir***
***Bil ki, ölüm ayağında,***
***Ölən kimi, igid oğlum,***
***Sən anadan olacaqsan.***
***Əsil anan***
***Əbədiyyət qucağında.***

Söhrab Tahirin yaradıcılığında "mübariz adam" obrazının qiyməti böyükdür. Azadlıq uğrunda mübarizə aparmaq, bu yolda varlığını ortaya qoymaq ucalıqdır. Mübariz adam uca olur, məğrur olur. Apardığı mübarizə vətənə şöhrət gətirir. Onun üçün qanlı məhbəs divarları da bir yumruq kimi birləşməyə çağırır. İnqilablar dövründə şairlərin öldürülməsi S.Tahirə daha artıq əziyyət verir. Onlar xalqın inləyən səsidir. Onların güllələnməsi xalqın boyunbağının qırılıb dağılmasına bənzəyir. Nəğmələr yarımçıq qalır. Onun tökülən qanı qızaran şeirləridir. Ürəyi sızladan bir bənzətmə var. Belə bənzətmə ancaq Söhrab Tahirə aid ola bilər:

***Qanadı səhərin gözü elə bil,***
***Günəşin gözünə qan sızdı bəlkə?..***

Bir nakam şairin pıçıltıları təbiətə yayılır. Söhrab Tahirin yanğısı misralara elə çöküb ki, onu şəxsən yaşamalı olursan. Şairin yaralı şeirlərinin sızıltıları eşidilir. Təkcə şair yox, misraları güllələnib. Xosrovun, Yüzbəndinin yarımçıq nəğmələrini tamamlayır S.Tahir. Bunu şeirin qızıl bəndinin qırılmasına oxşadır. Şair yarımçıq bəndləri döyüşə hazırlayırmış kimi nizama düzür. Elə bil qapıdan qayıdan qonaqları geri dönmək üçün yola gətirməyə çalışır. "Şairi öldürdülər" (1, səh.26) şeirində gecə öldürülən, ancaq vətənində gündüzə çevrilən şairlərin vətəndə əbədiyyətə çevrilmələri S.Tahir qələmində öz əksini tapıb. Şairin Təbrizdə yaşayarkən yazdığı şeirlər qəmlə, kədərlə, ölümlə, yanğıyla "bəzənib". Kasıbın nisgili, varlının xoş həyatı, kasıbın xiffəti, varlının ziyafəti, yanağı solan kasıb uşağının həsrətli baxışı, noğul içində böyüyən varlı uşağının biganəliyi, küçədə boynunu buranlar, nimçədə yolçuya pay verənlər, zindanların qaranlığı və s. kimi var olan mövzular Söhrab Tahir poeziyasının hədəfindədir. Söhrab Tahir və onun yaşıdlarının taleyində səngər, mübarizə, həbs, sürgün, zindan divarları var. Zindanda olan bir şairin ilham pərisi gələndə, kağızı olmasa da, zindan divarları yazı masasına çevrilir. "Zindan divarında yazılmış şeir" adlı əsərdə (1, səh.27) xalqı düşmən əsarətində olan şairin gələcək arzuları qələmə alınıb. O, vətənini darda qoyub ölmək istəmir. İndiki həyatında çarpışdı, ikinci həyatı üçün də planları var: mübariz olacaq, ana dilini müdafiə edəcək, dil haqqını itirənləri vətənindən uzaqlaşdıracaq. Öz ilhamı ilə xəyalən zindanı dağıdan şair "qolundakı zəncirləri" qırıb. Çünki bu sərt dünya dağılmasa, Azərbaycan azadlığa qoşula bilməz. "Təbrizdə" (1, səh.28) göylərdə bulud seyrəlib. Çünki buludlar ürəklərə, dərdlilərin gözlərinə çöküb. Sakit dünyanın dalğalarının qəzəbi qorxudurdu insanları. İndi bu qəzəb fədailərin biləklərinə, şəhərlərin üzərlərinə köçüb. Təbrizə düşən Savalanın kölgəsi qorxa-qorxa geri çəkilir. Söhrab Tahir bu şeirində gözəl Təbrizini qəzəbli şəhərə döndərənlərə nifrətini əks etdirib. Şəhərdə həyatdan qisas, ölümdən intiqam alanların sayı çoxalıb. On yaşlı uşaq 50 yaşlı kişi qədər dərd daşıyır, qışın oğlan çağında boynunun şərfini satan qoca dünyaya meydan oxuyur. İnsanlar zamanla ayaqlaşa bilmir. Saatı ovcunda olan Təbrizdə əriyir zaman. Gərəksiz axan saniyələr gizli ölümləri, faciələri gerçəkləşdirir.

***Şəhər qaraqabaq olubdur deyən,***
***Baxanda vahimə basır adamı.***



Scanned with ACE Scanner

*Bəlkə də yayınsın deyə polisdən*
*Gözlə danışmağı öyrənir hamı?..*

Şair maraqlı bir təsvir yaradır: dükanlarda vitrinə qoyulan manikcn xanımlar təbrizlilərə gülüş öyrədir. Ancaq təbrizlinin qisas adlı öz gülüşü var. Məhkəmələrdə, zindanlarda insanlara əzab verən ağalara qarşı yönəlib bu qisas gülüşü. Toy-düyünlə yasın bir-birinə qarışdığı bir zamanda öz şeirləriylə xalqına dəstək olan Söhrab Tahir anları sayır, sabahı gözləyir – ümidləri göyərdəcək bir sabahı. Elə sabahı ki, o sabahın yollarında tikan, dumanlı günlər olmasın. Şairin anasının dərdlənə-dərdlənə uğurlu yol arzulaması əslində özünün "yaralı" həyatının xronologiyasını vərəqləməsidir. Ananın gəncliyi sönüb, oğlanları şəhid olub, ümidi şair oğlunadır, o da qürbətə gedir. Bir ceyrantək düzündən ayrı düşən ana övladının vətənindən, gözündən ayrı düşməsinə dözmür. Əlacı yoxdur, birce ona gücü çatır ki, oğluna öyüd, nəsihət versin, uğurlar arzulasın: barı elə yaşa ki, gəncliyin əllərdə talan olmasın. Ananı sarsıdan qürbət yaraları "Olmasın" şeirində poetik şəkildə qələmə alınıb (1, səh.29). Doğmaların hicranı olmasa, qürbətin dərd-qəmi də bir qədər azalar:

*Mən də ayrı düşdüm öz vətənimdən,*
*Gül əkdim,*
*Bitmədi gül çəmənimdə.*
*Balam yola düşür,*
*Gedir mənim də,*
*Qürbətdə günləri toran olmasın.*

Təbrizdə yaşayarkən şairə Şimali Azərbaycan, Bakı bir ayrı cür görsənir. Dilibir, canıbir qardaşına muğayat olmağı ürəyindən keçirir. Cənubla Şimal arasında yorğun ata dönən Araz artıq üşüyür. Şair onu nə qədər ümid yorğanına bürüsə də, illərin ağırlığı öz işini görüb. Şair Araza körpü olmaq istəyir, ona nəğmə yazır. Hərdən yalvarır, hərdən hiddətlənir və bu hisslərini "Körpü taleyim" (1, səh.30) şeirində "Arzumun gözləri həsrətlə dolub" deyərək ürəyini boşaltmağa çalışır. Böyük şairimiz Cabir Novruz yazır: "... yüksək amal – azadlıq eşqi onun yaradıcılığını mübarizə ilə silahlandırmışdır. Məhz buna görə də, onun yaradıcılığı bir tərəfdən qəzəbli, bir tərəfdən kövrək, bir gözü ilə ağlayan, o biri gözü ilə gülən, bir sətrində vuruşa atılan, o biri sətrində fəryad qoparan, bir nəğməsində gələcəyə, inama, ümidə çağıran, o biri nəğməsində həsrət təşnəsi olan yaradıcılıqdır" (1, səh.5). "İki taleyim" şeirində oxuyuruq:

*Qayğım ikilidir, imzam ikili,*
*İki paytaxtım var, yolu ikili.*
*İkili ömrümü yaşamaq üçün,*
*Sinəmin üstündən bir yol çəkilib.*

Bu yol hara gedir belə? Şair "Anam Vətən" (1, səh.43) şeirində bu suala cavab axtarır. Bu yol şairin bacı adlandırdığı qürbətə - Şimali Azərbaycana gedir. "Anam vətən, bacım qürbət" deyən şair özünü burada qərib sanmır. Hərdən "Mən doğmayam, yoxsa qonaq" deyərək də düşüncəyə dalır. Ancaq cavab aydındır. Onun iki yurdu, iki yolu var, iki gözü, iki qolu var. Şair istəyir ki, göz yaşına heç kəs yanmasın. Onun ağlaması yanında ata-anası olan uşağın ərköyünlükdən göz yaşı tökməsinə bənzəyir. Onun vətəni göz yaşına çevrilərək qəmli gözlərinə dolub. Vətəni düşmən üçün düyünlü yumruq, qəzəbli baxışdır. Vətən kəlməsi arzuyla, həsrətlə, kədərlə, nisgillə anılır. Ancaq cənublu mücahidlərin, fədailərin, şairlərin, yazıçıların, publisistlərin "Vətən" deməsiylə dil-dodaq yanır, vətən ağızda alovlanır. Heç kəsin vətəni cənubluların vətəni qədər yara almayıb. "Vətən" (2, səh.5) şeirində şair qürbətdə dostlarının gülüşündə axtarır doğma yurdunu. Bu kəlmənin deyilişini bir himn kimi qəbul edir:

*Mən vətən deyirəm, dinir arzular,*
*Ayağa qalxıram vətən deyəndə!*
*Axı körpəlikdən bu şanlı diyar*
*Döyüş himni kimi yaşayır məndə!*

Düşmən vətən oğullarını pərən-pərən salıb. İranın müxtəlif ərazilərinə sürgün olunan, başqa ölkələrə mühacirət edən Azərbaycan oğulları "Mən öd oğlu Azəriyəm" deməkdən (2, səh.7) çəkinməyib. Şair uzaq ölkələrdən gələn quşların vətənində məskən salmasını qısqanclıqla qarşılayır. Ona öz doğma vətənində uzaq gələcəkdə olsa belə pay verəcəklərinə inanır: yaşamaq kimi. İndi sinəsi al qan ilə ləkələnmiş torpağı ona çox



görürlər. Xalq gah bu, gah digər şahın nökərinə çevrilir. Xalqı farsların içərisində əritməyə çalışırlar. Ancaq bunu bacarmayacaqlar:

*Mən od gözlü*
*Mən od oğlu azəriyəm!*
*Azərbaycan övladıyam!*
*Yarasından qan süzülən,*
*Arzusundan alov qopan*
*Bir torpağın öz adıyam,*
*Öz oduyam.*

Şairi anası alov püskürən bir ölkənin torpağında, döyüşlərin ortasında dünyaya gətirib. Arazın suyu ilə yuyundurub. Xalqın qəzəbi, mübarizə ruhu, döyüş və güləş adəti şairin qanına keçib. Onun vətənində ölən qəhrəmanlar yenidən doğulur. Əvvəli və axırı od olan Azərbaycan oğlu yarasından qan süzülən bir torpağın adını daşıyır. Vətənində Koroğlunun qılıncının parıltısı, Füzulinin, Xətainin şirin sözü, qollarında Babəkin, məzdəkilərin gücü var. Gah məğlub olmuş, gah qalib gəlmiş azadlıq ocağının övladıdır. Onu vətənindən qovsalar da, bilir ki, inqilab yaşayacaq. Təbriz və Tehran daima sabahkı qələbəsiylə bugünkü məğlubiyyətini hədələyib:

*Qovun məni bu vətəndən,*
*Zindanlar da ala bilməz.*
*İnqilabı, gücü məndən!*
*Sürülsəm də apartram*
*İnqilabı özümlə mən!*

"Pişəvərinin heykəli qarşısında" (2, səh.11) dayanaraq düşüncələrə dalan Söhrab Tahir fars ilə azərbaycan türkünü qardaş adlandıran, hökumət rəhbərlərinə, xarici imperialistlərə lənət yağdıran inqilab rəhbərinin şəninə xoş sözlər deyir. Şair daş kürsüyə çıxaraq Xiyabaninin yarımçıq qalmış nitqini tamamlayan, bütün İran xalqlarının azadlığı üçün vətəni Azərbaycanı səngərə çevirən, yazıçılıqla bərabər siyasi lider kimi də formalaşan, hamı üçün ümid yeri olacaq bir firqə yaradan S.C.Pişəvərini Təbrizdə çaxan bir ildırım adlandırır. Soyuyaraq qranit heykələ çevrilmiş bu ildırım ardınca böyük bir nəsli apardı. Ancaq Söhrab Tahir Pişəvərinin bir ildə çox illərin yorğununa çevrilmiş ayaqlarının hazırlanmamasına təəssüflənir. Bir ildə çox illəri yürümüş bu ayaqlar qızıldan tökülüb heykələ çevrilməyə layiqdir. Pişəvərinin şanlı duruşu şairin diqqətini çəkir. O əmindir ki, qəbr üstə gələnlər onun keçmişinə baş əyir. Günəşə tay olan bir firqənin qurucusu xalqın yerdəki günəşidir. Şairi düşüncələrdən tarixin yaddaşı oyadır. "Tarix qalır" (2.səh.17) şeirində küçələrdə, xiyabanlarda polislə vuruşduğu zamanı xatırlayır. Əli və gözü qanlı iblislə vuruşduqdan sonra "ayaqda qalmaq" hər kəsə nəsib olmur. Şair yaralı pələng kimi qisas almaq istəyir. Zindanlarda, sürgünlərdə damğalanmış, öz qanında üzdürülən igidləri xatırlayır. Qollarındakı zəncirlər göz yaşından, qandan paslanıb. Şair sabahkı ailələrin bu günü unudub xoş həyat yaşaması arzusundadır. Şair gələcəyə inanır və ona doğru gedir. Ancaq qan yaddaşı unudulmur, tarixlərdə qalır.

*Mən gedirəm irəliyə!*
*Sifətimə günəş doğur,*
*Ulduz-ulduz işıq salır!*
*Arxamdasa, sinəsinə*
*Qan çilənmiş, od ələnmiş*
*Tarix qalır!*
*Tarix qalır!*

Şairin xalqının, millətinin qanını soranların şəklini belə görməyə gücü yoxdur. Bu həyat və vicdan oğruları haqları olmayan torpaqda məskən salıblar. Xalqımızı, millətimizi kiçik hesab edənlər düşünməlidirlər ki, bizim tariximiz onlardan böyükdür. Fədailərimizin şanı, vüqarı dünya ilə birdir. Düşmən güc ölçür, özünə tərəfdaş tapır, vicdan, şərəf ölçsə, uduzacağını bilir. Cənubluların yaşadığı torpaq dədədən, babadan, ta Zərdüştdən qalma torpaqdır. Babəklər doğan bu torpağın ölüm zonasına çevrilməsi şairi dəhşətə gətirir. Şair inanır ki, torpaqdan güc alan övladlarımız torpağa yenidən güc verəcəklər. Şair özünü



Scanned with ACE Scanner

vətəni Təbrizə min yol qurban verir. Onun vətəni ən qədim və nadir inci kimi qorunmalıdır. Xilqəti hiylədən yoğrulmuş, yoldaşı daima qatillər, canilər olmuş düşmən üçün gələcək yoxdur. Xalqa tuşladığı raketlər onun başdaşına çevriləcək. "Əl saxla" (2,səh.24) şeirinin əsas məzmunu da elə bundan ibarətdir:

***Gücü yox, vicdanı, şərəfi ölçün,***
***Onda zor gələcək bu millət yəqin!***
***Sən bir gün ömrünü uzatmaq üçün***
***Bir xalqı ölümə vermək istədin!***

Təbrizin gen sinəsində heç kəsə məhəl qoymadan gəzən düşmənlər torpağın hiddətini sezmirlər. Bütün ölkəni talayan bu namərdlər hər şeyi xanın xəzinəsinə apanblar. əgər istəyirlərsə, vətənimizi bu xəzinənin içərisində tapa bilərlər. Onlar Azərbaycan torpaqlarını gəzdikcə ayaq yerlərində qan izi qalır. "Təbrizin son hökmü" (2, səh.26) düşməndən qisas almaqdır. Yurdumuzu talan edib qazancından xanımlarının barmaqlarını daş-qaşla dolduran, sərvətimizi ciblərinə axıdan, elin dövlətinə sahib çıxan, şairi yuxusuz qoyan düşmənlər öz gələcəklərindən bixəbərdirlər. Gəzdikləri bu eldə öldürülmüş fədai balaları, Niknamın oğlu, igid Firudinin doğma anası və s. yaşayır, öc almaq üstündə köklənirlər. İşsiz qoca fəhlə də, qış ruzisini məcburən öz əlləriylə satan kəndli də, ürəyi düyün-düyün olan məktəbli də qisasa hazırlaşır. Yarası alovlu, qanlı torpağın üstündə gəzməkdən qorxmalıdır düşmən. Təbrizə ayaq basmamalıdır. Vətən düşmən ayağı dəyəndə inləyir. Bu cənablar torpağı yenə ölçməyə gəliblər. Görəsən indi kimə satacaqlar? Təbrizin onların böyüklərinə son sözü var:

***Mənə öyüt vermə, gözümdən itil!***
***Təbrizin son hökmü hələ sondadır.***
***Qayıt, sən ağana bir xəbər yetir:***
***"Təbriz yeni üsyan qarşısındadır!"***

Söhrab Tahirin bütün həyatı vətənin azadlığı uğrunda mübarizəyə həsr olunub. 1972-ci ildə nəşr olunmuş "Burdan bir atlı keçdi" kitabının müqəddiməsində oxuyuruq: "şairin yaradıcılığında ... Şərq xalqlarının milli-azadlıq hərəkatı, işıqlı gələcək uğrunda ardıcıl mübarizəsi əsas yer tutur" (3, səh.4). Şair "Cavab versin tarix mənə" (2, səh.30) şeirində vətəninin üç inqilab dövründə aldığı yaraları yada salır, qəzəblənir. Şair arzuların kölgəsində Vətənə uzanan qara əlin biləyindən tutur, at belində tanka, topa sinə gərir, insanlığın ucbatından məhbus olmuşları çağırır. 1946-cı ildə vuruşa bilmədi, çünki mühacir həyatı yaşamalı oldu. Ancaq sonrakı illərdə bunun əvəzini artıqlaması ilə çıxdı. Yaradıcılığını mübarizə meydanına çevirdi. İndi isə tarixdən hesabat istəyir. Azadlıq uğrunda saysız-hesabsız insan öldürüldü. Bəs qurbanı olduğu azadlığı hanı? Xiyabana çıxan şair müştəşarın yaşadığı sarayları, hotelləri görür və düşmənin ağzı qanla köpüklənən qara qanunlarına nifrət yağdırır. Neftimizə şərik çıxan müştəşarları görəndə şair kirpiyindən dara çəkilir. Onun dilinə qadağa qoyan düşmən dağ basır, şairin dili yanır. Göz görə-görə torpaqlarımızı öz pulumuzla alıb-satır, evimizin, ömrümüzün işığını oğurlayır, camaat çıraq yandırır. Şairin istədiyi tək bu haqların tapdanmaması deyil. O istəyir ki, qədəmləri torpaq üstdə azad olsun, öz dilində danışsın, nəğmə oxusun, azadlığı yaşamağa ixtiyarı olsun. Böyük xalqa xırda-xırda hörmətləri layiq bilmir. Şair öz əliylə itirdiyi azadlığı çağırır. Onun xalqına azadlıq heç vaxt bağışlanmayıb, azadlığı vermirlər, layiq olan onu qazanır. Cənublular çörəklərini silaha dəyişirlər. Şair silahının gülləsini gözlərinin giləsindən doldurub. Dəlik-deşik bayrağı başı üstdə qaldırıb. Artıq tarixdən "azadlığım hanı" deyə soruşmur. Sadəcə ulu tarixin onun vətənini tanımasını istəyir. Burda ağır bir üzləşmə var. Təbrizin küçələrində sakit addımlayan hər bir kəsin görünüşü daxili aləmi ilə təzad içərisindədir. O insanlar da şair kimi haqq yolunda güllələnməyi gözə alıb. Hamı oyanıb, haqqını tanıyır. Onu səsləməyə az qalıb.

***Bu yürüşün, bu hücumun***
***Adı bil ki, "sonuncu"dur,***
***Kim vuruşur, coşub yanır,***



***Kim vuruşur, kim inanır***
***Gələcək də onunkudur!***

Şair od paltarlı, od nəğməli, od tarixli vətəninə, onun sadə, amma mübariz insanlarına güvənir. Bəzən də bir nigaranlıq çökür qəlbinə. Günəşin rənginin dəyişikliyində belə məna axtarır. Günəş çox saralıb, buludlar da dolub, həm də qaralıb. "Nigaranam" (3. səh.51) deyən şair düşüncəyə dalır: görəsən bu səhər kim güllələnib? Kim kimdən intiqam alıb? Şaxtalı gecədə hansı imkansız çöldə qalıb? Pərişan bir halda səhərin açılmasına şahidlik edir vətənindən nigaran, nisgilli şair. Atası azadlıq mücahidi idi, özü də inqilaba qoşuldu, amma axıra qədər Təbrizdə qalmağa qoymadılar. Günah özündə olmasa belə bütün ömrü boyu bunun əzabını çəkdi. Hələ tələbə olarkən vuruşmağın dadını bilmişdi. Xosrov Ruzbehin şəkli cibindən çıxdığına görə məhkəmə qabağında durmuşdu. Həmin gün həqiqət susurdu, ədalət ittiham olunurdu. Əyrilik düzlükdən intiqam alırdı. Cənubdakı "azad" yaşamaq adlandırılan həyat məhbəsdən ağırdır. İnqilabdan sonrakı illərdə yaşayanlar, mübarizələrini müxtəlif yollarla davam etdirənlər "Sabahın bu günə salamıyam mən" (3, səh.66) deyir. Şair həmin nəsli azad dövranın, atadan sonra yaşanan ömrün və döyüşən tarixin davamı hesab edir. Vətən yolunda qurban gedənlər, bir ömür zindan həyatı yaşayanlar əmin olsun ki, vətənə azadlıq gətirəcək igidlər sabahdan bu günə salam göndərir:

***Mən elə odam ki,***
***Yandım, sönmərəm.***
***Durduğum zirvədən bir də enmərəm.***
***Böyük Səttərxanın davamıyam mən,***
***Sabahın bu günə***
***Salamıyam mən.***

## ƏDƏBİYYAT


1. *Söhrab Tahir. Atəş bulağı. Bakı, 1977.*
2. *Söhrab Tahir. Qırılan zəncirlər. Bakı, 1965.*
3. *Söhrab Tahir. Burdan bir atlı keçdi. Bakı, 1972.*
4. *Söhrab Tahir. Azad qardaşım var. Bakı, 1973.*
5. *Söhrab Tahir. Ölümdən güclü, həyatdan uca. Bakı, 1981.*



## XÜLASƏ

*Vətənini azad, müstəqil görmək S.Tahirin ən böyük arzusudur. İkiyə bölünmüş vətənin bütövlüyünün həyata keçirilməsi, heç olmazsa İran daxilində muxtariyyət verilməsi onların ən böyük haqqı olduğu fikrindədir. Düşmən ağzının qanını yumalı, vətəninə bu müstəqilliyi verməlidir. Ölümdən güclü, həyatdan uca yalnız bir şey var: azadlıq!*

## РЕЗЮМЕ

*Самой главной мечтой в жизни Зохраба Тахира является видеть свою родину свободной и счастливой. Объединение разделённой родины, в крайнем случае, получить автономность в пределах Ирана является главным художественным мотивом его поэзии. Поэт уверен что, враг должен прекратить свою кровавую миссию и дать его родине национальную свободу. Для художественного героя Зохраб Тахира ест только одна главная святая мечта – это свобода! Статья обладает практическим значением на научных семинарах филологических факультетов высших школ, посвящённых вопросам спецкурсов и спецсеминаров.*

## SUMMARY

*To see homeland independent is Sohrab Tahir's biggest wish. He wanted his divided motherland be together but at least if it won't he thinks that autonomy in Iran is right of citizens of his divided motherland. The enemy must wash blood from its mouth and must give independence to his native country. There is only one thing which is stronger than death and high from life: freedom!*




Scanned with ACE Scanner

# "AZƏRBAYCAN RESPUBLİKASINDA TƏHSİLİN İNKİŞAFI ÜZRƏ DÖVLƏT STRATEGİYASI" VƏ TƏLİMDƏ MİLLİ DƏYƏRLƏRDƏN İSTİFADƏNİN AKTUAL PROBLEMLƏRİ

**Oqtay ABBASOV,**
**Azərbaycan Dillər Univesitetinin dosenti**

***Açar sözlər:*** *strategiya, təhsilin inkişafı, milli dəyərlərr, təlimin təşkili.*

Dövlət başçısının 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" bütövlükdə təhsil sisteminin, o cümlədən, təlimin daha səmərəli, daha müasir olması ilə bağlı qarşıya mühüm vəzifələr qoymuşdur (1). Problem Azərbaycan dili və ədəbiyyat tədrisi materialları əsasında araşdırılır. Lakin Strategiyanın əhatə dairəsi geniş olub, təhsillə bağlı bütün sahələri əhatə etdiyindən, yeri gəldikcə, onların da mahiyyəti müasir tələblər baxımından nəzərədən keçirilir. Strategiyada məzmun, təhsil sahəsində beynəlxalq əməkdaşlıq və meyllər, ölkədə təhsilin vəziyyəti, təhsil sisteminin başlıca vəzifələri, məqsədi, strateji istiqamətlər, hədəflər, tədbirlər, strategiyanın həyata keçirilməsi kimi prioritet məsələlər əksini tapmışdır. Sadalanan məsələlərin hər biri respublikamızda təhsilin inkişafına istiqamətləndirilir və dəf olunmalı hədəflərə diqqəti yönəldir. Strategiyada göstərildiyi kimi, ölkədə təhsil sisteminin başlıca vəzifəsi insan kapitalının inkişafını təmin etməklə iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyasına və beynəlxalq rəqabətdən daha səmərəli faydalanmağa nail olmaqdır. Aydın şəkildə görünür ki, Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin dəfələrlə qeyd etdiyi kimi, ölkədə inkişafın dönməzliyini təmin etmək üçün ağıl iqtisadiyyatına əsaslanmaq başlıca vəzifələrdəndir. Bu vəzifənin yerinə yetirilməsi isə, şübhəsiz, insan zəkasından, bir qədər də dəqiq ifadə etsək, iqtisadiyyatın bütün sahələrində ağlın imkanlarından istifadəni maksimum yüksəltməkdən asılıdır.

Yeri gəlmişkən, qeyd edək ki, məktəbdə cəmiyyətin tələblərinə cavab verə bilən, həyatda lazımi mövqe tutan, bu mövqedən müstəqilliyimizin inkişafının daimiliyini təmin etməyə can atan, ənənəvi ilə yeniliyi, milliliklə bəşəriliyi əlaqələndirməyi bacaran insanın formalaşdırılması məhz iki istiqamətdə həyata keçirilir. Bunlardan biri bilik, bacarıq və vərdişlərdir. Digəri isə mənəvi dəyərlərlə bağlıdır. Haqqında söhbət gedən Strategiyada qloballaşan dünyanın xüsusiyyətləri ilə bağlı olan bu cəhət qırmızı xətlə keçir; təhsil ömürboyu öyrənmək üçün Azərbaycan vətəndaşına elə imkanlar yaratmalıdır



ki, o bu zərurəti (bilik, bacarıq və vərdişlərlə mənəvi keyfiyyətlərin vəhdətini) daim hiss etsin. Əlbəttə, bu vəzifə lazımi səviyyədə məhz şəxsiyyətyönümlü təhsil prosesində yerinə yetirilə bilər. Strategiyadan oxuyuruq: "Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir" (1). Xalqımızın keçdiyi sivilizasiyada formalaşdırdığı etik normaların milli dəyərlərimizlə bağlı olduğu, onlarla vəhdətdə formalaşdığı şübhəsizdir. Bu normaların daha çox humanitar elmlərdə, humanitar tədris fənlərində öz əksini tapdığı da şübhə doğurmur. Ona görə də Azərbaycan dili və ədəbiyyat dərslərində müəllim bu mühüm cəhəti nəzərə almalı, bilik, bacarıq və vərdişlərlə mənəvi dəyərlərin vəhdətdə aşılanmasını təmin etməli, şagirdlərdə milli dəyərlərimizin əhəmiyyəti, onlara sahib olmağın vacibliyi barədə inam yaratmalıdır.

Aparılan işlərdə xalqın inkişaf yolunun xüsusiyyətləri, xarakterinin meylləri üzərində daha ətraflı dayanılmalıdır. Milli dəyərlər üzrə iş həm təlim prosesində, həm də təlimdənkənar tədbirlərdə yerinə yetirilə bilər. Amma yaxşı olar ki, həm təlim, həm də təlimdənkənar fəaliyyət bir-biri ilə əlaqəli olsun, biri digərinin tamamlanmasına kömək göstərsin. Fikrimizi təlim prosesində N.Gəncəvinin həyat və yaradıcılığının öyrədilməsi zamanı bu böyük şəxsiyyətin yetişdiyi mühitə yönəltməklə xalqımızın tarixən formalaşdırdığı milli dəyərlərin xüsusiyyətləri üzərində aparılan işlərə yönəldirik. Məlum olur ki, Nizami Gəncəvi yaradıcılığının ana xəttini insanların, xalqların bərabərliyi ideyası tutur. Bu ideyaya nümunə kimi müəllim Nizami yaradıcılığında vəzifəsindən, varlı və ya kasıblığından asılı olmayaraq insanların hamısının bərabər tutulmasını misal göstərə bilər. Üstünlük isə ancaq və ancaq xalq, camaat, insanlıq üçün daha faydalı olan adamlara verilir ki, bu da olduqca ədalətli yanaşmadır. Nizaminin bərabərlik, ədalətli cəmiyyət ideyalarının Utopik sosialistlərin ideyalarından bir neçə yüz il əvvəl meydana gəlməsi ilə bağlı fakt şagirdlərdə bu böyük şəxsiyyəti yetirmiş mühitdə formalaşmış dəyərlərin əbədiyaşarlığına inam yaradır. N. Gəncəvi yaradıcılığının tədrisində şagirdlərin diqqətinin konkret şəkildə "Qardaşlıq" təşkilatına, onun fəaliyyətinin humanist məzmununa yönəldilməsi də olduqca faydalıdır. Məhz Azərbaycan mühitinin formalaşdırdığı böyük şəxsiyyətlərin ideyalarının bəşəri səciyyəsinin dərk olunması şagirdlərdə iftixar hissi yaradır, onlar milli dəyərlərimizin öyrənilməsi və qorunması zəruriliyinə inanırlar. N. Gəncəvi yaradıcılığında milli dəyərə çevirilmiş nümunələr çoxdur və müəllim onlardan yeri gəldikcə istifadə etməlidir (2, səh. 113;137; 160 və s.) .

Strategiyada təhsilin məzmunu ilə bağlı nəzərdə tutulmuş istiqamət məzmunun hazırlanmasında iştirak edəcək mütəxəssislər qarşısında mühüm vəzifələr qoyur. Məzmun elə formalaşdırılmalıdır ki, şagirdlərlə iş zamanı müəllim onları milli dəyərlərimiz ruhunda tərbiyə edə bilsin. Lakin bu heç də bəşəri dəyərlərə münasibət üzrə iş aparılmaması demək deyildir. Əksinə, qloballaşma bəşəri dəyərlərə lazımınca yiyələnməyi mühüm vəzifə kimi



Scanned with ACE Scanner

qarşıya qoyur. Lakin bir şərtlə: bəşəri dəyərlərin öyrənilməsinə aparan yol milli dəyərlərdən keçməlidir. "Bizə Şekspir lazımdır, ancaq ondan qabaq Xaqani irsinə yiyələnməliyik. Bizə Hüqo lazımdır, ancaq ondan qabaq Füzuli irsinə tamam-kamal sahib olmalıyıq..." (3, səh. 143)

Strategiyanın bütün ruhu mili inkişafı əsas götürür. Qazanılmış bilik, bacarıqların, səriştəliyin vacibliyi önə çəkilir. Göstərilir ki, təhsilin məzmununun formalaşdırılmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqlara da üstünlük verilməlidir. Ümumi təhsillə, ali təhsildəki başlıca vəzifələrdə prioritetlərin şəxsiyyətin hərtərəfli formalaşdırılması olduğu nəzərə çatdırılır. Aydındır ki, "hərtərəfli" məfhumu elmin, bacarıqların müxtəlif sahələri ilə bağlı minimum tələbləri əhatə etməklə yanaşı, həm də mənəvi ahəngdarlığı özündə birləşdirir. Yəni konkret şəkildə bu nəticəyə gəlmək mümkündür ki, bilik, bacarıq, vərdişlərlə mənəvi aləmin qovuşması insanın hərtəfəli inkişafının əsasında dayanır. Biliklər və bu biliklər fonunda formalaşdırılan bacarıqlar daha çox bəşəridir. Elmin istənilən sahəsi ilə bağlı mövcud biliklərdən dünyanın istənilən yerində istifadə etmək mümkündür. Elmin inkişafı da daha çox bu kontekstdə gedir. Lakin həmin fikirləri mənəvi dəyərlə bağlı birmənalı şəkildə söyləmək mümkün deyil. Milli dəyərlərlə ümumbəşəri dəyərlərin ortaq, oxşar cəhətləri onların fərqindən azdır. Mənəvi dəyərlərdəki fərqlər təkcə ayrı-ayrı millətlərdə, xalqlarda deyil, hətta bəzən müxtəlif ailələrdə də bu və ya digər formada özünü göstərə bilir. Bu fikirləri biliklərlə bağlı söyləmək mümkün deyil. Ona görə də hərtərəfli inkişafla bağlı Strategiyada qarşıya qoyulan vəzifənin həlli imkanlarını xalqımızın sivilizasiya tarixində formalaşdırdığı milli dəyərlərdə axtarmaq lazımdır: Mənəvi dəyərlər milli dəyərlərin özülünü təşkil edir. Milli dəyərlərin əsas məzmunu isə humanitar səciyyəli fənlərdə öz əksini tapmışdır. Yuxarıda qeyd etdiyimiz kimi, bu fənlərin içərisində isə Azərbaycan dili və ədəbiyyat xüsusi yer tutur. Azərbaycan dili və ədəbiyyat fənlərindəki milli dəyərlərlə bağlı imkanlardan istifadənin əsas ağırlığı təlimin, onun təşkilinin əsas forması olan dərslərin üzərinə düşür. Dərsdə müəllim dilimizi təkcə ünsiyyət vasitəsi kimi deyil, milli dəyər kimi təqdim etməli, minillik keçmişin bizə çatdırılmasında onun əvəzsiz rolunu aydınlaşdırmalıdır. Təcrübə göstərir ki, dilimizin saflığı uğrunda mübarizə aparmış görkəmli şəxsiyyətlərimiz, haqqnda yeri gəldikcə, verilən məlumatlar şagirdlərin (istisnasız olaraq həm də tələbələrin) dilə münasibətinə olduqca müsbət təsir göstərir. Nəticədə gələcək nəsillərdə dilimizin qorunması, inkişafı zəruriliyi ilə bağlı inam formalaşır.

Dildən istifadə vəziyyəti ilə bağlı tapşırıqların verilməsi, fərdi xüsusiyyətlərinə uyğun olaraq şagirdlərin fəaliyyətə cəlb olunması da böyük əhəmiyyətə malikdir. İlk baxışda mürəkkəb görünən belə tapşırıqları icra etmək əslində bir o qədər də çətinlik törətmir. Belə tapşırıqlar dilin öyrənilməsinə kömək edir, ondan necə istifadə edildiyi barədə məlumat yaradır. Məsələn, yaş qruplarından asılı olaraq şagirdlərə aşağıdakı kimi tapşırıqlar verilə bilər: 1) Yaşadığınız şəhərdə rastlaşdığınız reklamlarda dilimizdən düzgün istifadə olunurmu? Öyrənin, münasibət bildirin; 2) Bir qəzeti dil baxımından təhlil edin, sizi narahat edən və razı salan faktları



göstərin;3) Evdə, ailədə sizin Azərbaycan dilində təmiz, gözəl, səhvsiz danışmağınıza münasibət bildirilirmi?; 4) Televiziya verilişlərindən birini dil baxımından təhlil edin, münasibətinizi yazın və s. Göründüyü kimi, belə tapşırıqlardan müxtəlif siniflərdə səmərəli şəkildə istifadə etmək mümkündür. Verilən tapşırıqların icrasının mütləq yoxlanılması, şagirdlərin münasibətinin öyrənilməsi işin nəticəsini yaxşılaşdırır, şagirdlərin doğma dilimizi dəyər kimi mənimsəmələrində müəyyən rol oynayır.

Qeyd etdiyimiz kimi, Strategiyanın başlıca ideyası milli inkişafa xidmət edən insanlar yetişdirə bilən şəxsiyyətyönümlü təhsil formalaşdırmaqdır. Bu mühüm ideyadan irəli gələn vəzifənin aparıcı xəttini milli dəyərlərə münasibət tutur. Adı çəkilən sənəddə zəruri olan bütün keyfiyyətlərin əsasında milli-mənəvi dəyərlərin dayandığı birmənalı şəkildə göstərilir:"-milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq" (1). Əlbəttə, bir məqalədə Strategiyanı bütün cəhətləri ilə təhlil edib ümumiləşdirmək mümükün deyil. Ona görə də təkcə Strategiyada deyil, bütövlükdə dövlət siyasətində milli dəyərlərə qayğının əsas prioritetlərdən biri olduğunu nəzərə çatdırmaqla yazını tamamlayırıq.

### *ƏDƏBİYYAT*


*1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, "Azərbaycan müəllimi " qəzeti, 25 oktyabr 2013 –cü il*

*2. Dünya uşaq ədəbiyyatı kitabxanası. Bakı, Gənclik-1987*

*3. İntiqam Mehdizadə, Tərcümənin tərcüməsi. (Məmmədağa Sultanov və Bəkir Nəbiyevlə müsahibə) "Azərbaycan" jurnalı, 2012, N 8*


### *XÜLASƏ*


*Məqalə Azərbaycan Respublikasının Prezidenti İ. Əliyevin sərəncamı ilə 24 oktyabr 2013-cü il tarixdə təsdiqlənmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na həsr olunub. Göstərilir ki, bu Strategiyada bilik və bacarıqların etik-əxlaqi normaların öyrədilməsi ilə vəhdətdə aparılması mühüm tələb kimi qarşıya qoyulur. Etik-əxlaqi normalar isə milli dəyərlərdən istifadə olunmaqla lazımi şəkildə formalaşdırıla bilər. Strategiyada qoyulmuş bu tələb konkret nümunələr əsasında şərh olunur.*


### *SUMMARY*


***Actual problems of usage of "State strategy on the improvement of education in Azerbaijan Republic" and national merits.***

*The article is dedicated to the document named " State strategy on the improvement of education in Azerbaijan Republic". Here the formation of skills and habits is investigated alongside with moral norms. It is emphasized that moral norms can be formulated by using national merits. The requirement put in the Strategy is commented on the concrete samples.*


### *РЕЗЮМЕ*


*В статье речь идет о задачах, связанных с использавашем национальных ценностей стратегии по развитию образования в Азербайджанской Республике. На основании конкретных, материалов из предметов азербайджанский языке и литература автор статьи указывает пути решения данной проблемы.*




Scanned with ACE Scanner

# MİR CƏLALIN YARADICILIĞI ÖYRƏDİLƏRKƏN

**Himalay QASIMOV,**
**filologiya üzrə elmlər doktoru, professor**

Görkəmli ədəbi şəxsiyyətlər haqqında nə qədər deyilsə, nə qədər yazılsa da, yenə açılmamış səhifələr qalır. Böyük ədib və qüdrətli ədəbiyyatşünas, yazıçılığı, alimliyi və müəllimliyi ilə xalqımıza bir ömür bəxş edən Mir Cəlal haqqında da hələ deyilməmiş sözlər çoxdur.

Azərbaycan nəsrini yeni bədii düşüncə axarında inkişaf etdirərək ona yaşarılıq və başarılıq keyfiyyətləri aşılayan, elmi ədəbiyyatşünaslığı bir məktəb olaraq reallaşdırıb ucaldan professor Mir Cəlal Paşayev xaraktercə bütöv, müstəqil düşünən kamil bir şəxsiyyət idi. Çox böyük yaradıcı insan olduğuna görə daim vicdanın sədasını dinləmiş, qəlbinin istəyinə əməl etmiş, varlanan dünyanın ahənginə uymamış, onun təzələnən rənginə heç vaxt aldanmamışdır.

Yazıçı-vətəndaş Mir Cəlal tanrısından güc alan, mənəvi təmkini uca tutan batin sima, XX əsr ictimai-tarixi gerçəklər dönəmində ilkinliyini və özəlliyini qoruyub saxlayan fövqəl insan idi. Mir Cəlalın keçdiyi tale yolu, yazdığı ömür kitabı bir daha təsdiq etdi ki, «Qadir Tanrı verməyincə kişi varlanmaz». Mir Cəlal qadir Allahın varlandırdığı və barlandırdığı ər kişilərdən idi. Mir Cəlal sənəti və şəxsiyyəti bir daha isbat etdi ki, «Hər xilqətə gərçi bir səbəb var», «Bihudə deyil bu karixanə» və istedad sahibi könlü istəyəni yazıb yaratmaqda sərbəst olmalıdır. Bu baxımdan Azərbaycan xalqının milli mənəviyyat, təfəkkür və intellekt ənənəsinin öz əksini XX əsrin təkrarsız bədii-elmi fenomeni olan Mir Cəlal yaradıcılığında tapması təbii və qanunauyğundur. Bunu belə yorumlamaq olar ki, dühа və istedad təbiət tərəfindən verilir, işıq və hərarət odun xassələri olduğu kimi, dühа və istedad da insan təbiətinin öz xassəsidir. Bu həqiqət oxucunu Mir Cəlalın yaradıcılıq bioqrafiyasının hansı amillərdən qaynaqlanıb güc aldığı, nə kimi ilkinlikdən təkanlanıb yaşarlılıq kəsb etməsi barədə konkret düşüncə axarı ilə irəliləməyə səsləyir.

Mir Cəlalın böyük maraq kəsb edən, milli-mənəvi dəyərlərdən qaynaqlanan və bir örnək olaraq daim anılan, qədir bilən xalqı tərəfindən əziz tutularaq həyat yolu Cənubi Azərbaycanın Əndəbil kəndindən başlasa da, Tanrının istəyi və taleyin hökmü ilə Mir Cəlal Məhsətinin, Nizaminin, millət fədaisi Cavad xanın uyuduğu çox qədim və yaşarlı ədəbi-mədəni tarixi və zəngin milli ənənəsi olan Gəncə şəhərində məskən salmalı olmuşdur.

Mir Cəlal ilk təhsilini bu şəhərdə almış, uşaqlıq və gənclik illərini burada keçirmişdir. 30-cu illərin əvvəllərindən Bakının qaynar ədəbi və elmi mühitinə qovuşan, az zaman kəsiyində bu gerçəklikdə söz sahibinə çevrilən Mir Cəlalın dahi Azərbaycan şairi Məhəmməd Füzuli, böyük Mirzə Cəlil və Sabirlə dühа qohumluğunu fundamental elmi və son dərəcə orijinal təhlil üslubu əsasında gerçəkləşən elmi və bədii örnəkləri ilə isbat etdi. Mir Cəlal, 1940-cı ildə yazdığı «Füzulinin poetik xüsusiyyətləri» monoqrafiyasına görə filologiya elmləri namizədi, 1947-ci ildə tamamlayıb ortaya qoyduğu «Azərbaycanda ədəbi məktəblər (1905-1917)» adlı dərin elmi-nəzəri və ədəbi-tarixi düşüncəni qlobal çevrədə sərgiləyən araşdırmasına görə isə filologiya elmləri doktoru adına layiq görülmüşdür. Məlum olduğu kimi «Füzulinin poetik xüsusiyyətləri» əsəri və onun bir qədər də zənginləşdirilərək 1958-ci ildə «Füzuli sənətkarlığı» adı altında nəşr olunan hal-hazırkı mətni bu gün də və əminik ki, gələcəkdə də böyük poeziya dahisi haqqında ən dəyərli elmi-nəzəri tədqiqat əsəri kimi istinad obyekti olacaqdır. Füzulinin bədii söz sənəti tarixinə gətirdiyi yenilikləri poetikasının inkişafı ilə bir araya gətirən Mir Cəlal araşdırmasının misilsiz tədqiqat əsəri olaraq Füzulişünaslığı daim rövnəqləndirəcəyi şəksizdir. Çünki burada Füzuli şeiri özündən əvvəlki ədəbi-tarixi proseslə, məxsusi olaraq Nizami poetik ənənələri ilə ilgili tədqiq olunur. Nizami və Füzuli «Leyli və Məcnun»unun müqayisəli təhlilini tipoloji düşüncə müstəvisində incələyən Mir Cəlal bununla Azərbaycan ədəbiyyatşünaslığına yeni elmi düşüncə axarı gətirmiş oldu. «Azərbaycanda ədəbi məktəblər (1905-1917)» monoqrafiyası ilə isbat olundu ki, Mir Cəlal araşdırma üsulunun elmi ədəbiyyatşünaslıqda yeni, orijinal və təkrarsız tədqiqat üsulu olaraq yorumlanması təbiidir. C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev kimi böyük sənətkarların əsərlərindəki bədii gerçəkliyi XX əsr Azərbaycan ədəbiyyatının inkişaf kontekstində araşdırmaq Mir Cəlalın tədqiqatlarında daim məhz keçilməmiş yollardan keçərək irəlilədiyindən soraq verir. O, istər «Klassiklər və müasirlər», «Gülüş bədii silah kimi», «C.Məmmədquluzadə realizmi haqqında» əsərlərində, istərsə də professor P.Xəlilovla birgə yazdığı «Ədəbiyyatşünaslığın əsasları», professor F.Hüseynovla yazdığı «XX əsr Azərbaycan ədəbiyyatı» dərsliklərində yaradıcılıq kredosuna sadiq qaldığını nümayiş etdirmişdir.

Mir Cəlalın «Azərbayjanda ədəbi məktəblər (1905-1917)» monoqrafiyasına «Ustad yadigarı» başlıqlı ön söz yazan professor Təhsin Mütəllimov ədibin yaradıcılıq arsenalı əsasında gerçəkləşən çeşidli incə məqamları bir araya gətirərək və həm də çox doğru olaraq belə bir qənaətə gəlir ki, «Bədii təfəkkürlə elmi təfəkkürün sintezi, qovuşuğu Mir Cəlal müəllimin həm yazıçılıq, həm də alimlik fəaliyyətinə xüsusi, təkrarolunmaz bir vüsət və qüdrət vermiş, onun hər iki sahədəki böyük uğurlarının məhvəri əsası olmuşdur. Eyni zamanda həmin cəhətlər Mir Cəlalın son dərəcədə səmərəli pedaqoji fəaliyyəti üçün də tükənməz bir potensiya, gözəl təcrübə və nəzəriyyə mənbələrini təşkil etmişdir. Lakin yazıçılığında da, alimliyində də, pedaqoqçuluğunda da ən aparıcı, istiqamətverici amil, heç şübhəsiz ki, məhz Mir Cəlal şəxsiyyəti olmuşdur!».

Mir Cəlal bütöv xarakterli, müstəqil düşüncəli, son dərəcə səmimi, qayğıkeş və humanist bir şəxsiyyət olduğuna görə tələbələrin,





Scanned with ACE Scanner

həmkarlarının, yetirmələrinin və, ümumən, Azərbaycan xalqının sevimli insanına çevrilmişdir. Əslində, aləmlərin rəbbinin qəlbində qərar tutan Mir Cəlalın millətinin könül evində sakin olması təbii idi. Mir Cəlal şəxsiyyətinin mənəvi aurası mühiti paklaşdırır, insan özünü bu çevrədə rahat və inamlı hiss etdiyinə görə iman sahibi olur. Belə ki, alim Mir Cəlalın yetirmələri xalq tərəfindən təqdir edilən, elmi ictimaiyyət arasında böyük nüfuz sahibi kimi sayılıb-seçilən, ad-san qazanan simalara çevrilsələr də, ustadlarını bir an belə unutmur, güvəndiklərinə daim yaxın olmağa, ona sığınmağa çalışır, səsini dinləməkdən zövq alır, ilhamlanırdılar. 1973-cü ildə dissertasiya işimin müdafiəsilə əlaqədar mən Bakı Dövlət Universitetində professor Mir Cəlal Paşayevin rəhbərlik etdiyi «Azərbaycan ədəbiyyatı tarixi» kafedrasına gəlir, orada rəsmi opponentim prof. Firudin Hüseynovla görüşürdüm. Həmişə də kafedra əməkdaşlarının Mir Cəlal müəllimin çevrəsində cəm olub məsləhət və tövsiyələrini nəfəs dərmədən dinlədiklərini görüb fərəhlənirdim. Bu qədrşünaslıq mühitinin möhtərəm professorun müdrik şəxsiyyətindən qaynaqlandığını duyur və sevincdən vəcdə gəlirdim.

Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, bu sətirlərin müəllifinin Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Azərbaycan və dünya ədəbiyyatı tarixi» kafedrasının dosenti Nəcəf Nəcəfovla birgə yazdığı «XX əsr Azərbaycan ədəbiyyatşünaslığı məsələləri» (2007) monoqrafiyasının 59-cu səhifəsində yer alan bir fotoşəkildə də ölkənin məşhur alimlərindən A.Qasımzadə, C.Xəndan, M.Cəfər, Əli Sultanlı, C.Cəfərov, Məmmədhüseyn Təhmasib və Hidayət Əfəndiyevin professor Mir Cəlal Paşayevin sağında və solunda yer almaları məmləkətin adlı-sanlı qələm sahiblərinin Mir Cəlal şəxsiyyətinə dərin hörmət və ehtiram bəslədiklərinə əyani sübutdur.

Bədii yaradıcılığa 1928-ci ildə şeirlə başlayan Mir Cəlal ilk hekayə və oçerklərini 1930-cu ildə çap etdirmişdir. 1932-ci ildə «Sağlam yollarda» adı altında oçerklər kitabını nəşr etdirən Mir Cəlalın yaradıcılığında bədii nəsrin hekayə və roman kimi janrları önəm kəsb etmişdir. Hekayənin mahir ustası olan ədib Azərbaycan ədəbiyyatında bu janrın inkişafına mühüm töhfələr vermişdir. «Həkim Cinayətov», «Mərkəz Adamı», «Təzə toyun nəzakət qaydaları», «Bostan oğrusu», «Kəmtərovlar ailəsi», «Mirzə», «Anket Anketov» hekayələrilə Mir Cəlal 30-cu illərdə tənqid oxunu çəkinmədən, son dərəcə cəsarətlə hədəfə qarşı yönəldə bilmişdir. Bu hekayələrdə yer alan bədii gülüşlə ədib insanda sağlam duyğular oyadır, gerçəkliyə baxışda ayıqlıq hissi aşılayır, haqsızlığa, mənfiliyə qarşı dözümsüzlük ovqatı təlqin edirdi. Bu hekayələrdə savadsız mirzələr, cinayətkar həkimlər, «mərkəz adamı» Əntərzadələr, arvad alıb boşamaqla varlanan Balaxanlar, mənəviyyatca cılızlaşıb düşkünləşən Səadət xanımlar, «nəzakət» pərdəsi altında çirkin simalarını gizlətməyə çalışanlar ədibin özünəməxsus realist qələminə tuş gəlirlər. Məsələn, «Anket Anketov» hekayəsində bürokratik iş üsulu və düşüncə tərzi tənqid-ifşa obyektinə çevrilmişdir. Anket Anketov rəisi olduğu trestdə adamları şəxsi



ləyaqətinə, bacarığına, xarakterinə, işgüzarlığına görə deyil, «liçni delosu»na görə dəyərləndirir. Canlı insanlara «iş qovluqlarının səyyar kölgələri» kimi baxan, hər kəsin tərcümeyi-halında «əmmа» tapıb onu özündən asılı etmək istəyən Anket Anketov ədibin qüdrətli satirik qələmi ilə canlı bürokrat tipi kimi ümumiləşdirilmişdir.

Mir Cəlal cəmi yeddi səhifədən ibarət olan «Anket Anketov» hekayəsi ilə 30-cu illərin Azərbaycan cəmiyyətində gerçək hal alan və insanlara hədsiz sıxıntı gətirən ictimai-siyasi prosesləri, inzibati-bürokratik idarəçilik üsulunu kəskin tənqid edir. Mir Cəlalın qənaətinə görə ideoloji basqılara, bölücülük siyasətinə rəvac verən bir cəmiyyətin Anket Anketov kimi rəislərin meydan sulayaraq zəmanənin istəyinə uyğun kadr siyasəti həyata keçirməsi heç də təəccüblü deyil. Hekayədə dövrün tarixi reallığı, başqa sözlə, 30-cu illər Azərbaycanının kadr siyasətinin vulqar-sosioloji düşüncə və göstərişlər əsasında formalistcəsinə həyata keçirildiyi sərgilənir. Anket Anketovun nitqində yer alan bir məqama diqqət yetirək: - "Nə olar, etiraz eləsinlər. Bəyəm etiraz eləyənlər kimlərdir? Aydındır ki, kapitalizmin tör-töküntüləri... Onlar artıq özlərinin ölümə məhkum olduqlarını hiss etmişlər. Mənnus işlərini indi də bu yanda görmək istəyirlər. Onların öhdəsindən gəlmək mənim boynuma".

Vəzifə başına keçən kimi hamam müdirlərini yanına çağırdı. Hamısından «liçni delo» tələb etdi. Hekayənin daxili süjetilə oxucunun düşüncəsinə belə bir fikir təlqin edilir ki, məhz bürokratik bir cəmiyyət Anket Anketovun bürokrat kimi yetişməsinə və hamam işçiləri arasında düşmən ünsürləri, «kapitalizm tör-töküntüləri aramasına münbit zəmin yarada bilərdi. Bununla da, «Anket Anketov» hekayəsi 30-cu illər Azərbaycan cəmiyyətinin iç üzünü, mənəvi simasının nədən ibarət olduğunu aydın göstərən bir güzgü olaraq, vətənimizi gələcəkdə gözləyən fəlakətlər, bəlalar və kataklizmlərdən xəbərdar edirdi.

Bir ölkənin ki, məsul vəzifə tutan adamı Anket Anketov kadr siyasətini həyata keçirərkən işçisinin atasının nalbənd olub hansı zümrənin atının nallamasını siyasi məsələ hesab edib bunun üzərində xüsusi dayanırsa, iki rəqəmi cəmləyə bilməyən Nisə Qənbər qızını hesabdar, Nuru Nuruzadə adlı komsomolçunu qadın hamamına kisəçi təyin edirsə, deməli, artıq bu təkcə Anket Anketovun beyninin problemi deyil, məhz bu kimi «siyasi cəhətdən sayıq» tipləri yetirən cəmiyyətin problemidir.

Mir Cəlal bu hekayəsi ilə bürokratizmin kökünə balta çalmış, o çağın siyasi gerçəkliyinin Anket Anketov xislətlilərə meydan verməsinin gələcək fəsadları barədə cəmiyyətə mesaj göndərmişdir. Bu baxımdan «Anket Anketov» hekayəsi tariximizə və taleyimizə təəssübkeşlik göstərən bir yazıçı-vətəndaşın könül yanğısı, harayı və əlaman səsidir. Anket Anketov bir satirik tip olaraq bütün qabalığı ilə 30-cu illər Azərbaycan cəmiyyətində üfürülüb şişirdilən «kim-kimi» ovqatına rəvac verənlərin təmsilçisidir.



Scanned with ACE Scanner

C.Məmmədquluzadə və Ə.Haqverdiyev hekayə yaradıcılığı ilə formalaşan poetik ənənələri yeni şəraitdə davam və inkişaf etdirən ən böyük ustad sənətkar, əlbəttə ki, Mir Cəlaldır. Sovet gerçəkliyinin ideoloji başlıqlara rəvac verib sənəti siyasət atının yedəyinə aldığı şəraitdə hekayə kimi çevik bir janrı çağın ədəbi prosesinin aparıcı forması olaraq gündəmdə saxlamaq kifayət qədər müşkül məsələ olsa da, məhz mütəfəkkir yazıçı Mir Cəlalın sənətkar cəsarəti, əzmi və iradəsi sayəsində o, mövzu dairəsini genişləndirdi, poetik-struktur imkanlarını qədərincə artırdı. Hekayələrində zahiri effektə deyil, daxili mənaya, səciyyəvi əlamətlərin bədii inikasına önəm verildiyindəndir ki, «Qonaqpərəst», «Dost görüşü», «Vicdan əzabı», «Müalicə» kimi «Həkim hekayələri» (1938-1939) silsiləsinə daxil olan satirik əsərlərdə lirik-yumoristik məqamlar məxsusi yer alaraq janrda subyektiv başlanğıcın fəallığına zəmin yaradılır. Müəllif lirik ifadələri elə ustalıqla işlədir ki, oxucuda tənqid obyektinə qarşı qəzəb və nifrət hissi daha da artır. Bu zaman lirik fonda canlandırılan mənfi tip daha şiddətli gülüş doğurur və lirik leksikanın ironik ağırlığına davam gətirmək iqtidarında olmayan tiplər sıxılıb əzilirlər. Yazıçı tipləri, xarakter, düşüncə tərzi və ictimai-sosial məişət ədaları baxımından fərqləndirir, müxtəlif nəslə, ayrı-ayrı zümrə və təbəqələrə mənsub olanları eyni tənqid müstəvisi üzərində ustalıqla bir araya gətirir. Mir Cəlalın satirik hekayə ustalığının mühüm dəyəri həm də ondadır ki, o, lakonik təsvirlər vasitəsilə gülüş hədəflərinin daxili aləmi, psixoloji-mənəvi durumu, ictimai-sosial mövqeyi, iç dünyasında cərəyan edən mürtəce proseslər barədə bitkin və dolğun informasiya verə bilir. Bu kimi məziyyətlər Mir Cəlal satirik hekayə yaradıcılığının əsas məğzini, başlıca məzmununu təşkil edir.

Mir Cəlal Azərbaycan ədəbiyyatında miniatür romanlar müəllifi kimi də şöhrət qazanmışdır. «Dirilən adam» (1934-35), «Bir gəncin manifesti» (1939), «Açıq kitab» (1941), «Yaşıdlarım» (1946-1952), «Təzə şəhər» (1948-1959), «Yolumuz hayanadır» (1952-1957) əsərləri isbat etdi ki, roman kimi epik vüsətli bir janrda da sənətkar sözlərin meydanını daraltmaqla bədii fikrin təsir imkanlarını hədsiz dərəcədə artıra bilər. Mir Cəlal sözü gedən əsərlərin süjetini lirik-psixoloji axara salmaqla ümumən roman janrına daxili nəfəs genişliyi gətirmiş oldu.

«Dirilən adam» romanının aparıcı qəhrəmanı Qədir güzaranın ağırlığından daxilində bir əndişə duysa da, sevib-seçdiyi gözəl-göyçək arvadı Qumru ilə ömür payını dinclik və əmin-amanlıq şəraitində başa vurmaq istəyir. Lakin bu safqəlbli zəhmətkeş insan hardan və nədən bilsin ki, yaşadığı zalım zəmanədə qadının gözəl olması onun özünə və ailəyə müsibət və bəlalar, fəsadlar və mənəvi sarsıntılar gətirə bilər.

Gerçəkliyi ehtiva edən süjet konsepsiyası ilə Qədir və onun ailəsinin acınacaqlı taleyinin bədii tarixi və cəmiyyətin mənəvi dirilmənin qarşısını nə kimi amansız vasitələrlə aldığı barədə konkret fikir formalaşdırılır.

Romanın «Dostlar» proloqunda Qədirin həbsxana yoldaşları



onun başına gələn əhvalatların çözülməsini istəyirlər. «Yerində bitməyən gül» adlı birinci fəsildə Qədir taleyinə yazılanları nəql edir. Məlum olur ki, bütün sıxıntılar gecənin qaranlığında dəhlizdə yeddilik lampa işığında mərmər vücudlu Qumrunun təknədə yuyunmasına at belində pəncərədən tamaşa edən Bəbir bəyin «ox ilanına dönərək «yerində bitməyən gül» hesab etdiyinin belinə sürünüb dolaşmaq istəyi ilə başlayır ki, məhz bu məqam Qədir ailəsinin gələcək faciəsinin zəmini olur. Sözü gedən görüntü bir təsadüf olsa da, bir tərəfdən Bəbir bəyi yetirən cəmiyyətin sadə, zəhmətkeş insanlar üçün nə kimi bəlalar doğurduğu və ona qarşı mücadilə edənlərin haqlı olduğunu müstəviyə çıxarır, digər tərəfdən insanın öz xislətindən uzaqlaşaraq iblisləşməsinin nə kimi fəsadlar doğurduğunun sərgilənməsinə təkan verir.

Romanın süjeti çözüldükcə məlum olur ki, mövcud ictimai cəmiyyətdə Qədirin mənəvi dirilik qazanması, vətəndaş olaraq mücadilə yolu ilə özünü təsdiq etməsi məşəqqətsiz, itkisiz başa gələn deyil.

Bir cəmiyyətdə ki, vətəndaş cismani diriliyini isbat edə bilmirsə, müraciət etdiyi «mötəbər» şəxslər ona dirilməməyi məsləhət bilirlərsə, deməli, onda nicat yalnız özünüdərkdə, mənəvi dirilmə uğrunda mücadilənin siyasi- hüquqi müstəvidə və mümkün olan vasitələrlə aparılmasına qalır. Son dərəcə humanist-yazıçı və insan dərdlərini dərin vətəndaş yanğısı ilə yaşayan Mir Cəlal ürək ağrısı ilə olsa da, Qumrunun tale yolunun son dərəcə acı və sarsıntılı məqamını, insanlığı sinirləndirə biləcək bir ağrını müstəviyə çıxarır:

«Bəbir bəy uşağı qamışlıqdan çıxarıb, suyun qırağına gətirdi. Qılçalarından bərk tutdu, başını tovladı. Havada tovlandıqca uşaq içini çəkir, kəsmə-kəsmə səs çıxarır, «ana!» deyirdi...

Bəbir bəy bir də bərk tovladı. Uşaq qorxusundan hıçqırırdı. Ona nə ediləcəyini bilmirdi. Bəy uşağı var qüvvəsi ilə qaldırdı, daşa çırpdı. Uşağın başı əzildi. Nar kimi xışıldadı. Yazıq bir səs eşidildi. Qumrunun gözü uşağa sataşanda onu dəhşət aldı».

Mir Cəlal təbii könül ağrısı ilə çox doğru buyurur ki, «bu dəhşəti, qələm yazmaqdan, dil deməkdən acizdir, oxucum, özün təsəvvür et!». Lakin qeyd etmək lazımdır ki, bu son dərəcə dəhşətli olsa da, faktdır, könül bulandırsa da, xisləti ortaya qoyan reallıqdır.

Yazıçı zalım zəmanə qurbanına çevrilən bu günahsız körpənin anasının fəryadına səbəb olan həmin dəhşətli səhnənin qəlbə və düşüncəyə nə kimi təsir etməsi barədə oxucusuna müraciətlə yazır: «Kürəyini ayazlara verən, qəlbini kiçik bir məxluqun sinəsinə qoyub bəsləyən ananın faciəsini duy! Dahiləri qucağında böyüdən anaya ayıların, canavarların etmədiyi edildi...». Məhz bu dəmdə Qumrunun harayı, əlaman səsi yazıçının xüsusi vurğuladığı kimi «anaların üsyanını çağıran vulkan kimi səsləndi». Bədii xarakterləri tarixiliklə müasirliyin sintezi əsasında yaradan qüdrətli sənətkarın qənaətinə görə dünya xali deyil, qisas qiyamətə qala bilməz. Belə ki, Qədirin mənəvi dirilik yolunda çəkdiyi əzablara nəhayət verən azadlığın qismət payı kimi reallaşması qəmli tale-



Scanned with ACE Scanner

lərə bir nikbinlik, yaşamaq eşqi aşılayır. Bir ailənin qəmli taleyi fonunda cəmiyyəti intibaha səsləyən, milyonları haqq səsinə qoşan «Dirilən adam» romanı tarixi və bədii həqiqət duyğusu ilə isbat etdi ki, hətta siyasi-ideoloji basqılar dönəminin yetirməsi olan vulqar-sosioloji tənqidin istəyindən də asılı olmayaraq zamanın hər cür sınağına sinə gərib özəl keyfiyyətlərini ortaya qoymaq zorunda olan dahiyanə əsərlər yazmaq mümkündür.

Orijinal bədii struktura malik «Bir gəncin manifesti» romanının ideya-məzmunu proloq və epiloqla yanaşı, on doqquz fəsildə sərgilənmişdir.

Romanın «Proloq» hissəsində böyük alman dahisi Hetenin «Həyat və azadlıq, ancaq onlar üçün hər gün döyüşə gedən adamlara layiqdir», «Təhqir» adlanan birinci fəslində L.Tolstoyun «Bütün xoşbəxt ailələr bir-birinə bənzəyirlər, bədbəxt ailələrin isə hərəsi bir cür bədbəxtdir» qənaətinin epiqraf olaraq yer alması əsərin kompozisiyasında mərkəzi güc nöqtəsinin yaranmasına assosiativ düşüncə qatının genişləndirilməsinə hesablanmışdır. Epiqraflar fəsillərdə gerçəkləşən əhvalatların ahənginə, sanki, öz möhürünü vurur. Romanın «Məktub» adlanan on ikinci fəslində «Analar yanar ağlar, Dərdini sanar ağlar, Dönər göy göyərçinə, Yollara qonar ağlar» məşhur xalq bayatısı «bir həftə aramsız əli qoynunda yuvası dağılmış sığırçın kimi səssiz-səmirsiz dayanan» Mərdan anası Sonanın «sınıq könlünün ümid və iztirablarını «bir namə» ilə ciyərparasına bildirmək istəyinə» körpü salır və Sonanın *«Ürəyimin bəndi, gözümün işığı, oğlum Mərdan! Nə tez unutdun? Bədbəxt anana əl boyda kağız qoyub getdin! Səndən sonra bizi çox incitdilər. Bahar da bilmirəm haralara azıb getdi»* fəryadına zəmin yaradır. *Göründüyü kimi, «Bir gəncin manifesti» romanında məqamla ilgili olan bu orijinal struktur, əlbəttə ki, öncə bədii ideyanın daxili dinamikasına hesablanmışdır.* Belə halda hadisə və əhvalatların lirik-psixoloji məqamlarla süjet əlaqəsi təbiidir.

«Bir gəncin manifesti»nin «Göz yaşı romanı» adlanan doqquzuncu fəslində qəmli olay zalım zamanə insanlarının Sona oğlu Baharın acı taleyinə biganə münasibətləri müstəvisində sərgilənir. Ayazlışaxtalı bir gecədə tənhalığı, yalqızlığı köksü dolusu yaşayan Baharın « - Ay ana! Ana can!» harayı yazıçının könül ağrılarına səbəb olduğu üçündür ki, o, günahsız bir yavrunun həyatının qəsdinə yönələn sərt rüzgarı ittiham edir: «Ey tufan, ey acı şaxta! Siz nahaq yerə qiyamət qoparırsınız! Siz nahaq yerə tündləşir, var qüvvənizlə hücum edirsiniz». Ona görə «nahaq yerə» ki, sərt rüzgardan öncə zalım zamanə övladlarının rəhmsizliyi və insan dərdlərinə biganəliyi artıq öz işini görmüşdür. Bu məqamda roman müəllifi oxucularını «ey insanlar rəhmə gəlin yoxsa dünya məhv olar» harayına qoşur.

«Yusif-Züleyxa» xalçasının ingilisə satılmaq anında Sonanın «İtə ataram, yada satmaram»-deyə qəti qərar qəbul etməsi məhz vətən sevgisi ilə yaşayan müəllifin milli təəssübkeşlik duyğusundan qaynaqlanması şəksizdir.



Romanın «Manifest» fəslində Mərdanın «Bahar, mələr quzum, sən indi hardasan? Qalx, qardaşım, buzlu torpaqların altında olsan da, ailəmizə bax! Məsum baxışına, talesiz həyatına, günahsız ölümünə and olsun ki, sən bütün arzularına layiqdin» qənaəti haqq verir deyək ki, heç inqilab da bəzi yaraların göynərtisini aradan qaldıra bilmir. «Manifest»də sözü gedən məqam belə bir inam doğurur ki, inqilab edib hakimiyyətə gələn Mərdan Baharsız özünü, əslində, heç də xoşbəxt hesab etmir. Bu həm də o deməkdir ki, Mir Cəlal yüksək sənətkarlıqla yazılmış bu romanında mənəvi-əxlaqi dəyərlərdən qaynaqlanan səadəti daha önəmli hesab etmişdir.

Azərbaycan ədəbiyyatına həqiqəti iç üzdən göstərən əsər kimi daxil olan «Açıq kitab» romanının ziyalı mühitinin, məktəb həyatının qayğılarının gerçək yer aldığı süjetində həyat gerçəyi konkret insan talələri baxımından dəyərləndirilmişdir. Əsasən, satirik planda yazılan «Açıq kitab»da lirik və dramatik məqamlar da kifayət qədər yer almışdır. Səadət evini başqalarının müsibəti üzərində dikəltmək istəyi ilə bəd əməllər göstərən Kərim Gəldiyev romanda əxlaqi-mənəvi naqisliyin daşıyıcısı kimi səciyyələndirilir. Onun qara əməllərini həyata keçirmək üçün istinad etdiyi «əzməsən əziləcəksən, ayaqlamasan ayaqlanacaqsan...» «fəlsəfəsi» ən sonda iflasa uğrayır və Gəldiyev kökündən kəsilən ağac kimi bir daha əkilib göyərmək istəyinin mümkünsüzlüyünü acı həqiqət kimi qəbul etməli olur.

«Yolumuz hayanadır» romanında zəngin mənəvi dünyaya, möhtəşəm insani dəyərlərə, yüksək ideala malik olub, «Bənzərəm bir qocaman dağa ki, dəryada durar»- deyə haqq səsini ərşə ucaldan dahi Azərbaycan şairi Sabirin ömür kitabı səhifələnir və o zamankı Azərbaycan cəmiyyətinin kəşməkəşli mənzərəsi fonunda yolumuz hayanadır sualına cavab aranılır.

Mir Cəlal «Yaşıdlarım» romanında əməl və qayə sahibi olan insanların yaddaqalan mükəmməl bədii obrazlarını yaratmışdır ki, bunların sırasında Kərimzadə, Nəriman, Səlim və Hədiyyə xüsusilə fərqlənirlər. Realist yazıçı təmkininə, incə və həssas sənətkar duyum imkanına malik olan Mir Cəlal «Yaşıdlarım»da da hadisələrin mahiyyətinə dərindən nüfuz edir, faktları seçib ümumiləşdirərkən onları bədii düşüncədən keçirir, obrazının ruhi və əqli durumundan çıxış edərək daxili aləmləri barədə konkret fikir formalaşdırır. Nəriman və Kiçik xanım süjetində sərgilənən olaylar isbat edir ki, ustad yazıçı Mir Cəlal intim-fərdi duyğularla ictimai-siyasi mətləbləri qəhrəmanların tale kitabında bir araya gətirməkdə də mahir sənətkardır.

Misilsiz sənətkar, qüdrətli ədəbiyyatşünas, əvəzsiz insan, böyük pedaqoq Mir Cəlal xalqımıza çox zəngin ədəbi-mədəni, mənəvi-əxlaqi irs bəxş etdi və ən sonda əzəli və ədəbi aləmə, qəlb və könüllər dünyasına çox xoş sandığı ruh-mənəvi məkana qovuşdu.



Scanned with ACE Scanner

# YENİ TEXNOLOGİYALARIN TƏTBİQİ HƏYATIN TƏLƏBİDİR

**Tərlan HƏSƏNOVA,**
**Bakı şəhərindəki 287 nömrəli "Zəkalar" liseyinin müəllimi**

Dərs həmişə olduğu kimi, bu gün də tədris prosesinin əsasını təşkil edir. Müasir dərs axtarış, dərketmə, fəaliyyət dərsidir. Mövzuların tədrisində innovasiyaların məqsədəuyğun istifadə olunması isə şagirdlərdə təlim marağı yaradan başlıca xüsusiyyətlərdəndir. Bunu nəzərə alaraq yeni texnologiyaların tətbiqi ilə qurduğum bir dərs nümunəsini təqdim edirəm.

**Mövzu: Sayın quruluşca növləri**

**Standart:**

4.1.2. Sözün qrammatik mənasını kontekstə uyğun izah edir.

4.1.4. Əsas nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edir.

3.1.3. Mətnin hissələrini, abzaslarını əlaqələndirir.

**Təlim nəticələri:**

Sayın quruluşca növlərini müəyyən edir.

Sayların yazılışı ilə bağlı qaydalara əməl edir.

Müəyyən mövzu ilə bağlı verilmiş açar sözlərdən istifadə etməklə rabitəli mətn yazır.

**Məqsəd:**

1.Şagirdin say haqqında biliklərini möhkəmləndirmək.

2.Nitqi, məntiqi və yaradıcı təfəkkürü inkişaf etdirmək, estetik tərbiyəni zənginləşdirmək.

**Dərsin tipi:** induktiv.

**İş forması:** kollektiv, qruplarla və fərdi iş.

**İş üsulu:** BİBÖ, müzakirə, beyin həmləsi, klaster.

**İnteqrasiya:** ədəbiyyat , riyaziyyat.

**Resurslar:** dərslik, şəkillər, iş vərəqləri, BİBÖ və Qiymətləndirmə cədvəli.

Dərsə suallarla başlayıram:

***Saylar bizə harada lazımdır?***

***Sayların həyatımızda nə kimi əhəmiyyəti var?***

***Rəqəmlər bizə nəyi deyə bilər?***

***Həyatımızın hansı sahələrində saylara daha çox rast gəlirik?***

Motivasiya yaratmaq məqsədi ilə BİBÖ üsulundan istifadə edirəm. Bu üsul şagirdlərin əvvəlki bilik və təcrübələri ilə yeni biliklər arasında əlaqə yaratmağa imkan verir.

***Sözlər quruluşca neçə cür olur?***

***Bu sözlərə xas xüsusiyyət hansılardır?***

Bu suallar əsasında şagirdlər cədvəlin birinci hissəsini (**Biliram**) yazırlar. (***Cədvəl sonda tam halda təqdim olunacaq***) İkinci hissəni (**İstəyirəm biləm**) yazmazdan əvvəl "Klaster (Şaxələndirmə)" üsulundan istifadə edirəm.

Şaxələndirməni həyata keçirmək üçün:



1.Kağızın mərkəzində **"S A Y"** sözünü yazıram.

2.Həmin sözdən şaxələr ayrılır və yeni fikirlər yazılır. Məsələn, aşağıdakı klasterdə olduğu kimi.




Sonra şagirdlərə bugünkü dərsdə sayın quruluşca növləri barədə məlumat alacaqları bildirilir. Artıq cədvəlin ikinci hissəsi də yazılır.

**Tədqiqat sualı: Sayların quruluşca neçə növü var?**

**Tədqiqatın aparılması:**

Şagirdlər 3 qrupa bölünür. Hər qrup özünə ad qoyur və kapitan seçir. Onlara müvafiq tapşırıqlar əksini tapan iş vərəqləri paylanılır.

**İş vərəqi № 1**

**Tapşırıq 1.** Verilmiş sayları söz tərkibinə görə aşağıdakı kimi qruplaşdırın:

*Min bir, yeddi, beşinci, min, beş-altı, altmışıncı, minlərlə, iki yüz altmış dörd, çoxlu, bir çox, xeyli*

*Bir kökdən ibarət saylar* ____________________

*Kök və şəkilçidən ibarət saylar* ____________________

*İki və daha artıq sözdən ibarət olan saylar* ____________________

Sayların bu cür qruplaşmasına aid qayda tərtib edin.

**Tapşırıq 2.** Verilmiş nümunədə sayları seçib yazın. Quruluşca hansı növdə olan saylar işlənib?

*Yeddi min quldurun qabağında üç yüz nəfər necə dura bilərdi?! Qırılan qırıldı, qalan əsir alındı. Salur Qazanın uca evlərini dağıtdılar, atlarını mindilər, qatar-qatar dəvələrini qovdular. Xəzinəsini qarət etdilər, qırx incə belli qızla Qazanın gözəl arvadı Boyu uzun Burla Xatunu əsir apardılar. Qoca anası qara dəvə boynunda asılı getdi.*

**Tapşırıq 3.** Atalar sözlərində buraxılmış sayları yazın:

*1.... dəfə ölç, ... dəfə biç.*

*2.Dost .... isə azdır, düşmən .... isə çoxdur.*



Scanned with ACE Scanner

Özünüzdən 3 nümunə əlavə edin.

**İş vərəqi № 2**

**Tapşırıq 1.** Boş yerlərə müvafiq saylar artırın.

*Bayatı _____misradan ibarətdir. Hər misrada ______heca var. ______, ______, ______misralar həmqafiyə, ______misra sərbəst olur. Əsas fikir ______, ______misralarda verilir. ______, ______misralar isə həmin fikri söyləmək üçün zəmin yaradır.*

Əlavə etdiyiniz sayları sözün quruluşca hansı növünə aid edərdiniz? Buna aid qayda tərtib edin.

**Tapşırıq 2.** Verilmiş nümunədə sayları seçib yazın. Quruluşca hansı növdə olan saylar işlənib?

*Əhməd gəmiyə minib başladı getməyə. Yeddi gün, yeddi gecə suyun üzündə yol getdi. Bir də baxıb gördü ki, qabağında elə bir divar durub ki, dibi dəryadadır, başı göyün yeddinci qatına çatır. Diqqət eləyib gördü ki, divar tamam insan kəlləsindən hörülüb. Əhməd divara yaxınlaşan kimi doxsan doqquz yerdən səs gəldi.*

**Tapşırıq 3.** Atalar sözlərində buraxılmış sayları yazın:

*1.Əldən qalan ..... il qalar.*

*2.Gözəllik ....dur, ..........u dondur.*

Özünüzdən 3 nümunə əlavə edin.

**İş vərəqi № 3**

**Tapşırıq 1.** Məsələdə işlədilmiş sayları söz tərkibinə görə aşağıdakı kimi qruplaşdırın:

*Ata üç yemiş aldı. Birinci yemişin kütləsi beş tam yüzdə iyirmi beş kq-dır və bu, ikinci yemişin kütləsindən iki tam onda beş kq yüngül, üçüncü yemişin kütləsindən isə bir tam yüzdə on beş kq ağırdır. İkinci və üçüncü yemişin kütləsini tapın.*

*Bir kökdən ibarət saylar* ____________________

*Kök və şəkilçidən ibarət saylar* ____________________

*İki və daha artıq sözdən ibarət olan saylar* ____________

Sayların bu cür qruplaşmasına aid qayda tərtib edin.

**Tapşırıq 2.** Verilmiş nümunədə sayları seçib yazın. Quruluşca hansı növdə olan saylar işlənib?

*Oxxay daha Əhmədə bir söz deməyib, yanına salıb gətirdi qalaçaya, özünə də tapşırdı:*

*-Əhməd, mənim burada qırx otağım var, darıxanda hərdən bir-ikisini gəzərsən, ürəyin açılar. Al, bu otuz doqquz otağın açarını verirəm sənə. Amma qırxıncı otağı məbada açasan.*

**Tapşırıq 3.** Atalar sözlərində buraxılmış sayları yazın:

*1.Qorxaq gündə .... dəfə ölər, igid ömründə .... dəfə.*

*2..... əldə .... qarpız tutmaq olmaz.*

Özünüzdən 3 nümunə əlavə edin.

**İnformasiyanın mübadiləsi:** Təqdimatlar dinlənilir.



**İnformasiyanın müzakirəsi:** Dinlənilən təqdimatlar qrupla birgə müzakirə olunur.

Qrupların təqdimatı dinləndikdən sonra kollektiv tapşırıq işləyirik:

**Tapşırıq.** Ağacdakı almaları uyğun səbətlərə yerləşdirin.




Şagirdlər almaları "dərərək" (bunu MİMİO proqramında etmək çox rahatdır) **"Sadə"** sözü yazılan səbətə *əlli, az, iki, milyon, xeyli* sözlərini, **"Düzəltmə"** yazılan səbətə *birinci, çoxlu, minlərlə, yüzlərlə, qırxıncı* sözlərini, **"Mürəkkəb"** yazılan səbətə isə *bir tam onda beş, üç-dörd, beş-on, beşdə üç, dörddə bir* sözlərini yerləşdirirlər.

Nəticə ( ***lövhədə sxem şəklində işləyirik***)






Scanned with ACE Scanner

leksik şəkilçilər artırmaqla yaranır

-ıncı[4] | -larca[2] | -larla[2]

**Qeyd:** -lu şəkilçisi ilə **çoxlu**, **-acıq** şəkilçisi ilə **azacıq** sayları yaranır.
Daha sonra şagirdlər **BİBÖ** cədvəlinin III bölməsini (**Öyrəndim**) tamamlayırlar.

| ***Bilirəm*** | ***İstəyirəm bilim*** | ***Öyrəndim*** |
|---|---|---|
| *Sözlər quruluşuna görə üç cür olur. Sadə sözlər bir kökdən ibarət olur. Düzəltmə sözlər leksik şəkilçilərin köməyi ilə yaranır. Mürəkkəb sözlər iki və daha artıq sözün birləşməsi yolu ilə əmələ gəlir.* | *Sayların quruluşuna görə növləri haqqında bilmək istəyirəm. Say düzəldən şəkilçilər hansılardır? Mürəkkəb saylar hansı yollarla yaranır?* | ***Sadə** saylar bir kökdən ibarət olur. Dilimizdə quruluşca sadə olan 23 müəyyən miqdar sayı var: bir, iki, üç, dörd, beş, altı, yeddi, səkkiz, doqquz, on, iyirmi, otuz, qırx, əlli, altmış, yetmiş, səksən, doxsan, yüz, min, milyon, milyard, trilyon. **Düzəltmə** saylar ancaq saylardan düzəlir. Istisna olaraq zərfdən də düzəlir: əvvəlinci, axırıncı. **Mürəkkəb** saylar əsasən, saylardan yaranır. Yazılışına görə iki cür olur: 1) defislə yazılanlar- üç-dörd, əlli-altmış, 2) ayrı yazılanlar- ikidə bir, on beş, bir qədər. (mürəkkəb tərkibi)* |

Verilən biliklərin möhkəmləndirilməsi məqsədilə şagirdlərə test tapşırıqları da verirəm.

**TEST :**

1.Düzəltmə saylardan ibarət cərgəni göstərin.
A) birdən, birgə, birlik
B) ilkin, əvvəlinci, çoxlu
C) on bir, on iki, yüz üç
D) ikinci, yüzlərlə, çoxlu
E) iki yüz on, beş yüz əlli

2.Hansı saylar düzəltmədir?



1. onuncu 2. yüzlərlə 3. onlarca
4. üçdə bir 5. on iki
A) 1,2,3 B) 1,2,4 C) 2,3,4 D) 1,4 E) 1,5

3.Sadə saylardan ibarət cərgəni göstərin.
A) beşdə bir, iki, yüz əlli, çoxlu
B) az, xeyli, çox, on
C) bir, iki, üç, az-çox
D) bir, iyirmi, bir az, ikinci
E) yüzlərlə, beş, çox, dörd

4. Nümunələrdən neçəsi mürəkkəb saydır?
Beş-altı, bir qədər, on beş, ikidə bir, dörd, doqquz, beşinci, yüzlərcə, yüz yetmiş üç
A) iki B) üç C) dörd D) beş E) altı

5. Hansı növ saylar yalnız mürəkkəb olur?
A) sıra sayları
B) müəyyən miqdar sayları
C) qeyri-müəyyən miqdar sayları
D) kəsr sayları
E) sıra və kəsr sayları

**Qiymətləndirmə** məqsədə uyğun tərtib edilmiş meyarlar üzrə aparılır.
**1. Sayın həyatımızdakı əhəmiyyətini dərk edir.**
**2. Say haqqında fikir və mülahizələr bildirir.**
**3. Mətndəki əsas fikri ifadə edir.**
**4. Sayın qrammatik mənasını izah edir.**

**Yaradıcı tətbiqetmə:**

Bu məqsədlə səhifə 58-də (VI sinif Azərbaycan dili dərsliyi. R.İsmayılov, D.Cəfərova, S.Məmmədova) verilən 5-ci tapşırıqdan istifadə edirəm. Şagirdlərə *"Söz mücrüsü"*ndə verilmiş birləşmələrdən istifadə edərək **20 Yanvar** faciəsi haqqında kiçik inşa yazmağı tapşırıram. İnşa hazır olduqdan sonra qruplar tərəfindən təqdim olunur, müzakirə edilir.

**Ev tapşırığı:**

Şagirdlərə **"İncəsənətdə sayların rolu"** mövzusunda təqdimat hazırlamaq və quruluşca hansı sayların işləndiyini müəyyən etmək tapşırılır.



Scanned with ACE Scanner

# TƏLƏFFÜZ NORMALARINI NECƏ ƏSASLANDIRMALI?

Nabatəli QULAMOĞLU,
**Bakı şəhərindəki 73 nömrəli tam orta məktəbin müəllimi**

Tələbə qəbulu prosesində Azərbaycan dili fənni üzrə istifadə edilmiş test tapşırıqlarını araşdırarkən bir sıra poblemlərlə rastlaşdıq. Xüsusi vurğulayaq ki, orfoepiya qaydalarının necə mənimsənilməsini yoxlamaq məqsədi ilə tərtib edilən testlər bu baxımdan çoxluq təşkil edir. Bəzən belə testlərin miqdarı hətta tədris proqramında nəzərdə tutulmuş saatların sayı ilə müqayisədə xeyli çox görünür. Səbəb aydındır: orfoepiya dilçiliyin mübahisəli bölümlərindən biridir. Məhz narazılıqlar üçün şərait yaradan da elmi mübahisə doğuran məsələlərin qəbul imtahanlarına daşınmasıdır. Şübhə yox ki, qəbul imtahanlarında abituriyentlərin orfoepiya haqqında biliklərinin yoxlanması vacibdir, çünki biliklərin qiymətləndirilməsi təkcə ali məktəbə kimin seçilib, kimin isə seçilməməsi üçün təşkil edilmir. Bu, həm də müəllimlərin gələcək pedaqoji fəaliyyətində hansı korrektələr edəcəklərini müəyyən etmək məqsədi daşıyır.

Nitq prosesində baş verən səsdəyişmələrin dərslik və dərs vəsaitlərində elmi mexanizminin açılmaması bir tərəfdən abituriyentlər üçün qeyri-müəyyənlik yaradır, rasional düşüncə tətbiq etməyə imkan vermir, onları əzbərçiliyə sövq edir, digər tərəfdən də elmi ictimaiyyət arasında gərgin mübahisələr yaradır. Məlumdur ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası orfoepiya qaydalarına bir sıra dəyişikliklər etmiş və bu, "Orfoqrafiya-orfoepiya" lüğətində öz əksini tapmışdır. Qəbul imtahanlarında orfoepiya ilə bağlı istifadə edilmiş test tapşırıqlarında müəlliflər məhz yuxarıda göstərilən mənbəyə istinad edirlər. Lüğət qüsurlardan xali olmadığı üçün bəzi sözlərin tələffüzü ilə bağlı mübahisələr səngimək bilmir. Məsələ burasındadır ki, məlum lüğət qismən paradikmatik xarakter daşıyır, yəni burada bir sözün bir neçə forması verilmişdir. Lüğət isə sayca 3000 sözdən artıq deyil. Orada verilmiş sözlər hansı kriteriyalara görə seçilmişdir- bu da məlum deyil. Deməli, "Orfoqrafiya- orfoepiya" lüğətində yer almış sözlərin deyilişini bilmək heç də bu sahə üzrə sanballı biliklərə malik olmaq anlamına gələ bilməz.

Bəzi qrammatik ümumiləşdirmələrə nəzər salaq:

1. Aşağıdakı fikrə diqqət yetirin: "–nb" kimi yazılan sözlər [- mb] kimi tələffüz edilir"( Azərbaycan dili, TQDK, 2010, səh 15). Sonra isə əlavə edilir: kombə, kombinat, pambıq sözləri istisnadır, onlar yazıldığı kimi də tələffüz edilir. Biz çox vaxt təbiət və cəmiyyətdə baş verən hadisələrin elmi izahını veririk. Lakin bəzən adət etdiklərimizdən fərqli hadisə baş verdikdə onu təsadüf adlandırırıq. Səbəbi sadədir: elmi izahını verə bilmirik. Tələffüz qaydalarındakı istisnalar da belədir. Birinci qrup sözlərdə (anbar, zənbil, qənbər) "n" dil-diş samiti və "m" qoşa dodaq samiti iştirak edir. Nitq fəal



proses olduğundan dil eyni an içərisində əmələgəlmə yerinə görə müxtəlif olan iki samiti tələffüz edə bilmir. Məhz bu səbəbdən dodaq assimilyasiyası baş verir. İkinci qrup sözlərin (kombinat, kombayn) tələffüzü zamanı hər iki samit (*m* və *b*) dodaq samitləridir və assimilyasiyaya ehtiyac qalmır. Ona görə də şagirdlər "istisna" adlanan sözləri əzbər öyrənməkdənsə, fonetik hadisənin mexanizmini bilməli və istənilən məqamda bu mexanizmi tətbiq etməyi bacarmalıdır, çünki fonetik hadisənin mexanizmini bilmək açar rolunu oynayır. Artıq hər bir qrammatik qaydadan sonra istisnalar qeydlər şəklində verilir. Bəzən də bir qrammatik qaydaya görə bir neçə qeydə rast gəlirik. Nəzərə almaq lazımdır ki, həyat daim inkişafdadır və biz dildə baş verən proseslərin səbəbini aşkarlamadıqca istisnaların sayı çoxalacaq, gələcəkdə elmi materialın dərk edilməsi mümkünsüz olacaq.

2. TQDK-nın yanaşmasındakı ciddi yanlışlıqlardan biri də samit səslərin söz sonundakı mövqeyi ilə bağlıdır: "Çoxhecalı və bəzi təkhecalı sözlərin sonunda işlənən d, b, g, c cingiltili samitləri tələffüz zamanı karlaşır, yəni kar qarşılığı ilə deyilir"("Orfoqrafiya-orfoepiya lüğəti", TQDK, 2012, səh.154).

Fonetik hadisələrə belə yanaşma tədris prosesində xeyli çətinlik yaradır. Əvvəla, "bəzi" adlandırılan sözlərin siyahısı yoxdur. Bu siyahını tərtib etsələr belə, onu yadda saxlamaq nəinki mümkün deyil, hətta bu, müasir təhsil kompetensiyalarına ziddir. Aydındır ki, qəbul komissiyasının üzvləri sözün sonunda gələn "d" səsi ilə "z" səsinə fərqli yanaşma sərgiləyirlər. Bu yanlışlığın başlıca səbəbi dərslik və dərs vəsaitlərində fonetik hadisələrin araşdırılması zamanı kombinator və mövqe dəyişmələrinin qarışdırılmasıdır. *Dörd* sözündəki son samitin karlaşması ilə *səkkiz* sözündəki *k-g* əvəzlənməsinin səbəbləri müxtəlifdir. Lakin uyğun izahlar yoxdur. Ona görə də bu cür yanaşma bir tərəfdən şagirdləri əzbərçiliyə öyrədir, digər tərəfdən elmi yanaşmada qeyri- müəyyənlik yaradır. Məhz bu qeyri- müəyyənlikdən istifadə edən test müəllifləri sözlərin tələffüzündə özbaşınalığa yol verirlər. Təbii, tədris prosesində biz mütləq fonetik hadisənin elmi izahını verməliyik.

Səkkiz sözündəki səsdəyişmə kombinator hadisədir, yəni əvəzlənmə bir səsin digər səsə təsiri nəticəsində yaranmışdır. Qənd, otaq, ağac və bu tipli digər sözlərin sonunda cingiltili samitlərin karlaşması isə ondan fərqlidir, yəni mövqe (situativ) dəyişməsidir. Tanıdığımız dünya dillərinin bir çoxunda bunun səbəbi ümumidir: sözün sonunda nitq öləziyir və nəticədə səs itərək küylə əvəz olunur, çünki artıq rekursiya baş verir, yəni danışıq üzvləri qeyri- iş fəaliyyətinə qayıdır. Bəzi dillərdə isə səs yeni söz yaratmaq funksiyasını yerinə yetirir. İngilis dili belə dillərdəndir. Aşağıdakı nümunələrə nəzər salaq:

*Bad [bad] ( pis))- bat [bxt] ( uçan siçan)*
*Had [hxd]( malikdir)- hat [hxt] ( şlyapa).*

Bununla belə, yenə də həmin sözlərin sonunda samitləri cingiltili səs kimi tələffüz etmək qeyri- mümkündür. Bunun şahidi olmaq üçün http://lingvopro.abbyyonline.com/ru saytına daxil olub, həmin sözləri həm ingilis, həm də amerikan variantlarında səsləndirmək olar. Həmin sözlərin fərqli



Scanned with ACE Scanner

tələffüz edilməsi üçün yeganə imkan budur ki, cingiltili səsi yüksək tonla deyəsən.

Azərbaycan dilində də bəzi hallarda kar və cingiltili samitlər sözün sonunda yeni söz yarada bilir. *Yad, ad, od* sözlərini buna misal göstərmək olar. Bu sözləri müxtəlif fonetik situasiyada işlədək. Əlbəttə, leksik baxımdan həmin sözlər (yad- yat, ad- at, od- ot) omofondur və güman edirik ki, lüğət müəllifləri bu fikri danmaz. Onda bu fakt özü sözün sonunda istənilən cingiltili samitin karlaşmasına əyani sübutdur. Əlbəttə, biz situativ səsdəyişmədən danışırıq. Yox, əgər yuxarıda verilmiş sözlər fonetik söz tərkibində olarsa, fərqli səsdəyişmələrin şahidi olacağıq (məsələn, [yad adam]) .

Rus dilində isə istisnasız olaraq cingiltili samitlər söz sonunda karlaşır: ulov(ulof), sneq (snek), kollektiv (kollektif) və s. Buna baxmayaraq, "kollektiv" sözünün tələffüzü məlum lüğətdə [kallektiv] kimi verilmişdir (səh. 69).

"Orfoqrafiya- orfoepiya " (TQDK) lüğətindən götürülmüş aşağıdakı sözlərin tələffüzünə diqqət yetirək:

1) *palaz- [palas], kooperativ-[ kaperativ]; 2) papaq- [papax], kənd- [kənt].*

Göründüyü kimi, hər iki qrupda olan sözlər cingiltili samitlə bitir. Eyni mövqedə olmasına baxmayaraq, 2- ci qrupdakı sözlərdə cingiltili samitin karlaşması qəbul edilir, 1- ci qrupdakı sözlərdə isə bu qaydanın olduğu faktiki inkar edilir. Əvvəla, bu artıq beynəlxalq fonetik normadır, çünki həmin hadisə ayrıca götürülmüş hər bir dilin artikulyar bazası ilə deyil, nitq prosesində iştirak edən səslərin reallaşdırılması üçün sərf olunan zamanda danışıq üzvlərinin aldığı vəziyyətlə bağlıdır. Yəni hər bir sözün və ya söz birləşməsinin tələffüzü səslərin mexaniki toplanması deyil, sistem şəklindədir. Digər cəhətdən, əgər bu norma dilçilərimiz tərəfindən qəbul edilmirsə, cingiltili samitlərin hamısına şamil edilməlidir. Heç bir elmi əsas olmadan istədikləri sözü istədikləri kimi tələffüz etməyə qətiyyən yol vermək olmaz. Buna dilçilikdə fərarilik deyirlər.

3. TQDK mütəxəssisləri tərəfindən təqdim edilmiş elə orfoepik qaydalar var ki, dərs zamanı onların elmi izahını vermək mümkün deyil. Məlum lüğətdə "qabaq- qabağa" sözünün tələffüzü [qabax- qabağa] kimi (səh. 72) verilmişdir. Aydın məsələdir ki, bu, fonetik sözdür və "q" samitlərinin yanaşı gəlməsi heç də "taqqıltı" sözündəki vəziyyətdən fərqlənmir. Şübhə etmirəm ki, lüğət müəllifləri bu sözü [taxqıltı] şəklində tələffüz etməyi iddia etməzlər. Bir sözlə, "qabaq- qabağa" sözünün birinci tərəfindəki "q" samitinin mövqeyi sözün sonu deyil, bu, kombinator dəyişmədir, daha konkret, irəli dissimilyasiyadır. Bizim istəyimizdən asılı olmadan həmin söz [qabak[1]- qabağa] kimi tələffüz edilməlidir. Oxşar yanlış yanaşmanı "açıq- qara" və bu tipli digər sözlərə də aid etmək olar.

Bəzən də elə hallar olur ki, qaydalar bir- biri ilə ziddiyyət təşkil edir. Lüğətdən verilmiş nümunədə deyilir ki, bəzi sözlərin sonunda cingiltili samitlər öz kar qarşılığı ilə əvəzlənir. Şagird haqlı olaraq bizə sual verə bilər:



bəs "qovaq" sözündəki son samitin tələffüzü niyə lüğətdə [qovax] kimi verilib, axı "q" samitinin qarşılığı "k[1]"dır. Ona görə də sözlərin situasiyadan asılı olaraq dəyişməsini onu şirvanlının, yoxsa salyanlının tələffüzünün əsasında müəyyənləşdirmək olmaz. Biz bu zaman bir şeyi nəzərə almalıyıq: hansı bölgənin tələffüzü ümumi qrammatik qaydalara daha uyğundur. Əvvəlki lüğətlərdə "sazaq" sözünün [sazak[1]] kimi verilməsi, heç şübhəsiz, elmi əsaslara söykənirdi. Təəssüf ki, qəbul komissiyasının üzvləri onu düzgün hesab etməyib korrektə etmişlər (səh.4).

4. "Teatr", "teorem" sözlərinin tələffüzü ilə bağlı hər il qəbul imtahanlarında suallara rast gəlirik. Bu sözlər Avropa mənşəli olsa da, vaxtilə rus dili vasitəsilə lüğət fondumuza daxil olmuşdur. Ona görə də hər iki sözün tələffüzü rus dilində olduğu kimidir, yəni 1- ci söz [tiyatr], ikinci isə [tiyarem] (əlbəttə, "a" sonluğunun düşməsi nəzərə alınmaqla) kimi tələffüz edilir. Bununla bağlı heç bir irad söyləmək fikrimiz yoxdur. Lakin burada da fonetik hadisənin elmi mexanizmi açılmadığından bəzi yanlışlıqlara yol verilir. Belə ki, rus dilində, bir qayda olaraq, vurğulu hecadan əvvəlki hecada olan "e" samiti diftonq səsdir, yəni nə "e", nə də "i"dir, onların hər ikisindən kombinə edilmiş səsdir. Bu ənənəyə əsaslansaq, biz məlum səsi "i" şəklində deyil, diftonq kimi tələffüz etməliyik. Lakin tədris xatirinə tələffüzü sadələşdirmək qüsur deyil. İndi isə müqayisə üçün digər oxşar sözün tələffüzünə diqqət edək. "Kredit" (yeri gəlmişkən, bu il I ixtisas qrupunda imtahan verənlər oxşar sualla qarşılaşıblar ) sözünün tələffüzü orfoepiya lüğətində yazılışdan fərqlənmir. Lakin burada da 1-ci hecadakı saitin fonetik mövqeyi "teatr" sözündəki kimidir. Yenə də yuxarıda istinad etdiyimiz saytda sözləri mütəxəssisin ifasında səsləndirsək, həmin diftonq səsin şahidi olacağıq. Təbii, sual yaranır: niyə sözlərin orfoepik qaydalarına vahid yanaşma yoxdur? Əlbəttə, söhbət eyni fonetik mövqedə olan və rus dili vasitəsilə Avropa dillərindən keçmiş sözlərdən gedir. Söz yox ki, bunu avtomatik olaraq dilimizin tərkibindəki digər sözlərə tətbiq etmək olmaz.

Oxşar müşahidəni "botAnika" və "kosmodrOm" (vurğuya görə fərqləndirilmişdir) sözləri üzərində də apara bilərik. Məlum lüğətə əsaslansaq, 1- ci sözdə vurğudan əvvəlki səs "o" şəklində ([botanika], ikincidə isə "a" şəklində ([kasmadrom]) tələffüz edilir. Lakin yuxarıda göstərilən saytda hər iki orfoqram "a" kimi tələffüz edilir. Niyə? Ona görə ki, konkret fonetik qanuna söykənir: "o" səsi vurğudan əvvəlki hecada "a" kimi tələffüz edilir. Təəssüf ki, biz bu sözlərin deyilişinə yanaşmada da eyni münasibətin şahidi oluruq.

Lüğətdə vahid fonetik normanın gözlənilməməsi hallarına digər nümunə göstərək. *Azadlıq* (səh.15), *ikibəndli* (səh.60) *və dadlı* (səh. 29) sözlərinin tələffüz formasına diqqət yetirək. Birinci və ikinci sözün tələffüzü ( [azatdıx], [ikibəntdi]) normaya uyğundur və mübahisə predmeti ola bilməz. Üçüncü sözdə də *-dl* birləşməsi eyni fonetik vəziyyətdə olduğu halda, [daddı] (halbuki [datdı] olmalı idi- iki fərqli məqam) şəklində verilmişdir. Görünür, müəlliflər orfoepik qaydalar haqqında geniş tədqiqat işi aparmamış,



Scanned with ACE Scanner

qrammatik ümumiləşdirmələr etməmiş, sadəcə, bir çox sözlərin tələffüz qaydasını öz baxış bucağı əsasında müəyyən etmişlər. Ona görə də şagirdlər belə identik hallarla rastlaşdıqda müəllimə müraciət edir, müəllim isə öz növbəsində izah etməkdə çətinlik çəkir, çünki elmi izaha məhəl qoyan yoxdur. Hamı yaxşı bilir ki, abituriyentlərin ciddi cəhdlərinə baxmayaraq, qəbul zamanı TQDK- nın mövqeyi əsas götürülür.

Biz bir neçə nümunə göstərməklə məsələnin aktuallığına pedaqoji ictimaiyyətin diqqətini cəlb etmək istədik. Şübhə yoxdur ki, belə faktlar çoxdur və onların hamısını bir yazıda əhatə etmək mümkün deyil. Digər tərəfdən, həmin lüğət üzərində ayrı- ayrı mütəxəssislərin nəzarəti altında monitorinq təşkil edilsə, daha ciddi korrektələrin şahidi ola bilərik. Bunları nəzərə alıb iki təklif verməyi vacib bilirik:

1. Müstəqil ekspertlərin iştirakı ilə TQDK nəşr etdiyi "Orfoqrafiya-orfoepiya lüğəti"nin monitorinqini təşkil etsin.

2. Təhsil Nazirliyi fonetik hadisələrin başvermə səbəblərinə aid ayrıca bir mövzunun tədris olunmasını nəzərdə tutsun.

Güman edirəm ki, bu təkliflərə müsbət yanaşılsa, müəllimlər orfoepik qaydaların tədrisi zamanı çətinliklərlə üzləşməzlər.

Təəssüf ki, yeni təhsil proqramı əsasında hazırlanmış dərsliklərdə qrammatik qaydaların öyrənilməsinə çox az yer verilmişdir. Bu proqram məktəblilərin nitq bacarıqlarını inkişaf etdirməyi qarşısına məqsəd qoymuşdur- bu anlaşılandır. Məsələ burasındadır ki, dünyanın təhsil sahəsində nailiyyət qazanmış bir sıra ölkələrində məktəblər şagirdlərin intellektual səviyyəsinə görə formalaşır. Ona görə də qabiliyyətli şagirdlərin toplaşdığı məktəblərdə nitq bacarıqları ilə yanaşı qrammatik qaydalar da geniş şəkildə öyrədilir. Təəssüf ki, bizim məktəblər ən pis oxuyanla ən yaxşı oxuyan şagirdin bir sinifdə təhsil aldığı yerdir. Gələcəkdə belə diferensiasiya aparılması istisna deyil. Bu cəhətdən Azərbaycanda təhsilin inkişafı üzrə Dövlət Strategiyasında öz əksini tapmış bəzi məsələlərin həllinə ümidlə baxırıq. Ehtimal ki, onda fərqli proqramlar da meydana çıxacaq.


***Diqqət! Diqqət!***

*Biz Sizə – zəngin pedaqoji iş təcrübəsinə malik orta məktəb müəllimlərinə, elmi-metodik tədqiqatlarla məşğul olan alimlərə müraciət edirik. Azərbaycan dili və ədəbiyyatının tədrisi ilə bağlı iş təcrübələrinə, metodikaya dair yazılara ehtiyacımız var. Jurnalımızla yaxından əlaqə saxlayın və onu məqalələrinizlə təmin edin. Unutmayın ki, o, Sizin jurnalınızdır.*

***Redaksiya.***




# M.FÜZULİNİN "ƏQL YAR OLSAYDI" QƏZƏLİNİN TƏHLİLİ


**Vəfa MƏMMƏDOVA,**
**Qax şəhərindəki 5 nömrəli tam orta məktəbin müəllimi**


Artıq təcrübə sübut edir ki, ədəbiyyat dərslərində yeni texnologiyaların tətbiqinə geniş imkan vardır. Başqa sözlə, həm klassik, həm də çağdaş ədəbiyyatımızdan nümunələrin tədrisində yeni texnologiyalardan istifadə səmərəli nəticə verir.

M.Füzulinin "Əql yar olsaydı" qəzəlinin təhlili üzrə apardığım dərsin əsas mərhələlərini oxucuların mühakiməsinə verirəm.

**Mövzu:** Məhəmməd Füzulinin "Əql yar olsaydı" qəzəlinin təhlili.
**Dərsin məqsədi:**

- Şagirdlərdə təhlil bacarığının formalaşdırılması.
- Yaradıcı təfəkkürün inkişaf etdirilməsi.
- Ədəbiyyat nəzəriyyəsinə dair biliklərin artırılması.
- Qrupda məlumat əldə etmək bacarığının inkişaf etdirilməsi.
- Şagirdlərin şifahi nitqinin formalaşdırılması.
- Füzuli qəzəllərinə məhəbbət hissinin aşılanması.
- İNTERNET, POWER POİNT, WORD proqramları ilə işləmək bacarığının təkmilləşdirilməsi.

**Gözlənilən nəticələr:**

- Şagirdlər qəzəli müstəqil təhlil etməyi bacarırlar.
- Qrupda əməkdaşlıq edirlər.
- Lüğətlərlə iş vərdişləri təkmilləşir.
- Ədəbiyyat nəzəriyyəsinə dair biliklər əldə olunur.
- Şagirdlərin şifahi nitqi inkişaf edir.
- Şagirdlərin yaradıcı təfəkkürü inkişaf edir.
- Füzuli qəzəllərinə məhəbbət hissi aşılanır .
- İNTERNET, POWER POİNT, WORD proqramlarında işləmək bacarıqları təkmilləşir.

**Dərsi tamamlamaq üçün tələb olunan bilik və bacarıqlar:**
Füzuli yaradıcılığına aid əldə olunmuş bilik və bacarıqlar.
Şeiri müstəqil təhlil etmək bacarığı.
İNTERNET, POWER POİNT, WORD proqramları ilə iş bacarığı.
Lüğətlərlə iş bacarığı.
Ədəbiyyat nəzəriyyəsinə dair biliklər.
Qrupda birgə əməkdaşlıq bacarığı.



Scanned with ACE Scanner

Lazım olan material: M.Füzuli "Seçilmiş əsərləri", 4 ədəd kompüter, Ü.Hacıbəyovun "Füzuli kantatası" yazılmış disk, vatman kağızı, marker, yapışdırıcı lent (skoç), X sinif "Ədəbiyyat" dərsliyi, X sinif "Ədəbiyyat müntəxabatı", "İzahlı lüğət" kitabı, M.Füzulinin "Əql yar olsaydı" qəzəli yazılmış disk.

### Dərsin gedişi

**Motivasiya:**

Dərs Ü.Hacıbəylinin "Füzuli kantatası"nın sədaları altında başlanır (bir hissə). Otaqda Füzulinin şəkli asılıb, sərgi stolunun üstündə Füzuliyə aid şagirdlərin yazdıqları referatlar, Füzulinin "Seçilmiş əsərləri", Füzuliyə aid şagirdlərin əl işləri (şəkil, toxunma əl işi) yerləşdirilib.

**Problem:** Sizcə söhbət hansı ədibdən gedəcək? Şagirdlərdən istənilən cavab alınır: "Məhəmməd Füzuli".

**Motivasiya:** M.Füzulinin "Əql yar olsaydı" qəzəli yazılmış disk səsləndirilir.

**Problem:** Aşiqin şikayəti nədəndir?

**Qruplaşma:** Şagirdlər qutudan kvadrat formasında kəsilmiş kardonlar götürürlər. Kardonların arxa hissəsində hərflər yazılıb (5 kar samit, 5 cingiltili samit, 5 qarşılığı olmayan samit, 5sait). Şagirdlərə təklif olunur ki, kağızları çevirsinlər. Sonra cingiltili samitlər bir, kar samitlər bir, qarşılığı olmayan samitlər bir, saitlər isə bir qrupda cəmləşirlər (Qruplara vaxt verilir).

**Təqdimat:** Qrupların təqdimatları lövhəyə asılır.




Deyilənləri əsaslandırmaq üçün qruplarla iş aparılır. Bunun üçün qruplara marker və vatman kağızı paylanır. Hər bir qrupa tapşırıq verilir.

**I qrup** A) Aşiq obrazı, onun keçirdiyi hisslər (Aşiqin ağılı, yoxsa eşqi üstün tutması) barədə verilmiş klasteri doldurun. Sonra klasteri WORD proqramında işləyin.

B) Şeirdəki müraciət obyektləri (Bisütun, bülbül və Füzuli) barədə İNTERNET (www.google.az) saytı vasitəsilə məlumat (və yaxud şəkil) toplayın, Word proqramında təqdimata hazırlayın.






**II qrup** A) Füzulinin əsərlərinə musiqi bəstələmiş bəstəkarlar haqqında internet (www.google.az) saytında məlumatı Power Point proqramında slayd hazırlayın (musiqi fənni ilə əlaqə).

B) Şeirdəki bədii ifadə və təsvir vasitələrini tapın, word proqramında işləyib, təqdimata hazırlayın.

**III qrup** A) Şeirin bədii xüsusiyyətlərinə aid verilmiş klasteri doldurun.

B) Şeirdəki sözləri izahlı lüğətdən tapın və word proqramında işləyərək proyektor vasitəsilə təqdimata hazırlayın.




**IV qrup:** A) Şeirin II, VI, VII beytlərini yazın və sintaktik təhlil edin (Azərbaycan dili fənni ilə əlaqə), word proqramında işləyib, təqdimata hazırlayın.

B) Venn dioqramı vasitəsilə "Ağıl"la "Eşq"i müqayisə edin, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirin.



Scanned with ACE Scanner




**Tamamlanmış işin tədqiqatı:** Qruplar proyektorlar vasitəsilə işlərini təqdim edirlər. Sinkveyn üsulu tətbiq edilməklə dərs yekunlaşdırılır.

Sinfə suallarla müraciət olunur:

**Qiymətləndirmə:** Dərsin gedişini qiymətləndirmək üçün şagirdlərə qiymətləndirmə vərəqi təqdim olunur.

Qiymətləndirmə vərəqi
Adı, soyadı ____________________ sinif ______________

1. Özünün dərsdə iştirakının səviyyəsi 5/4/3/2/1
2. Qrup üzvlərinin fəallığının səviyyəsi 5/4/3/2/1
3. Qrup işində öz fəallığının səviyyəsi 5/4/3/2/1
4. Mövzunun mənimsənilməsi səviyyəsi 5/4/3/2/1
5. Qrup liderinizin təqdimat səviyyəsi 5/4/3/2/1
6. Müəllim dərsi necə təşkil etmişdi? 5/4/3/2/1
7. Hansı qrupun təqdimatını daha çox bəyəndiniz? __________

**Ev tapşırığı:** "Əql yar olsaydı" qəzəlinin ifadəli oxusuna hazırlaşmaq.

**Texnologiyadan istifadənin mümkün olmadığı şəraitdə ehtiyat planı:** "Musiqi" dərsliyi (V-VII siniflər üçün), vatman kağızı, yapışdırıcı lent, "Ədəbiyyat" dərsliyi, "Ədəbiyyat müntəxabatı" dərsliyi, "İzahlı lüğət" kitabı.



# SÖZ TƏRKİBİNİN ÖYRƏDİLMƏSİ

**Yeganə İSGƏNDƏROVA,**
**Göygöl rayon L.Məhərrəmov adına Şəhriyar kənd tam orta məktəbin müəllimi**

*Açıq dərslərin təşkili pedaqoji baxımdan bir neçə istiqamətdə faydalı hesab olunur. Burada dərsi dinlənilən müəllimin təcrübəsinin öyrənilməsi xüsusi yer tutur. Belə ki açıq dərsin məqsədindən asılı olaraq nəticədə müəllimin təcrübəsinin yayılması, rəğbətləndirmə tədbirlərinin görülməsi, haqqında söhbət gedən müəllimin ixtisası üzrə təkmilləşdirmə kursuna göndərilməsi kimi qərarlar qəbul edilə bilər. Bütün hallarda dinlənilən dərsin müzakirəsinin təşkili vacibdir. Müzakirədə həm dərsi dinlənilən müəllimin, həm də dərsdə iştirak etmiş digər müəllimlərin fikirlərini bildirmələri, çıxarılan qərardan xəbərdar olmaları vacibdir.*

*Açıq dərslərin kim (kimlər) tərəfindən təşkil edilməsi də mühüm cəhətlərdən biridir. Açıq dərslər, adətən, məktəbdə, məktəb və ya metodbirləşmə rəhbərləri tərəfindən təşkil olunur. Bu halda dərsin dinlənilməsindən alınan nəticə ya müəllimin təcrübəsinin, ya da daha geniş miqyasda (rayon, şəhər, respublika) yayılması üçün yuxarı təşkilatlar qarşısında (rayon, şəhər təhsil idarələri, Təhsil Nazirliyi, pedaqoji mətbuat, Təhsil Problemləri İnstitutu) məsələ qaldırılır. Dərs dinləmədə fərqli cəhətlər olsa da, başlıca məqsəd kimi müəllimlərin ixtisaslarının, peşəkarlıq səviyyələrinin artırılması, ya da təcrübəsi öyrənilən müəllimin işindəki yaxşı cəhətlərin daha çox müəllim tərəfindən tətbiq olunmasının təmin edilməsidir.*

*Ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən ardıcıl siyasət, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" adlı konseptual sənəd pedaqoji proseslə bağlı olan bütün sahələrə, o cümlədən, təlimin əsas təşkili forması olan dərsə, onun müxtəlif cəhətlərinə yenidən nəzər salmağı zərurətə çevirir. Bütün bunlar pedaqoji mətbuatla bağlı müəyyən tələblərin yarandığını söyləməyə əsas verir. Yazılanları nəzərə alaraq redaksiya Göygöl rayon Şəhriyar kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi Yeganə İsgəndərovanın "Sözün tərkibi: kök və şəkilçi" mövzusunda dediyi açıq dərsin icmalını təqdim edir. Fikrimizcə, daha yaxşı olardı ki, icmalla yanaşı, açıq dərsin təşkilinin məqsədi, dərsin müzakirəsində söylənilmiş fikirlər, çıxarılan yekun qərar da redaksiyaya təqdim olunaydı.*

**Mövzu:** Sözün tərkibi. Kök və şəkilçi.

**Standart:** (4.1.2)Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.

**Məqsəd:**

- Sözü tərkib hissələrinə ayırmağı öyrətmək;



Scanned with ACE Scanner

- Kök və şəkilçinin fərqini izah etmək;
- Azərbaycan dilində kök və şəkilçinin yerini müəyyənləşdirmək;

**Dərsin tipi:** İnduktiv
**İş üsulları:** Beyin həmləsi, karusel, müzakirə, venn diaqramı,klaster
**İş formaları:** Qruplarla iş, kollektiv iş, fərdi iş.
**İnteqrasiya:** Həyat bilgisi,musiqi,ingilis dili.
**Resurslar:** Mimio qalereya, animashki.ru, google.az
**Dərsin tipi:** İnduktiv
**İş üsulları:** Beyin həmləsi, karusel, müzakirə, venn diaqramı, klaster.
**İş formaları:** Qruplarla iş, kollektiv iş, fərdi iş.
**İnteqrasiya:** Həyat bilgisi, musiqi, ingilis dili.
Resurslar: Mimio qalereya, animashki.ru, google.az.

**Dərsin gedişi**

***Motivasiya: (Problemin qoyuluşu)*** *Şagirdlərə kökü və gövdəsi olan agac şəkli göstərirəm və sualla müraciət edirəm: " Əgər ağacın gövdəsini kökündən ayırsaq, nə baş verəcək?" Şagirdlərin fərziyyələrini alaraq lövhədə yazıram. Düzgün variantı monitorda işıqlandırıram. Şagirdlərin fərziyyələrini düzgün variantla yoxlayır, mövzudan kənar fərziyyələri ixtisar edirəm. Şagirdləri tədqiqat sualına yönləndirmək üçün yönəldici suallarla şagirdlərə müraciət edirəm."Dəmirçi sözünü tərkib hissələrinə ayırın və yuxarıda gördüyünüz ağacla müqayisə edin. Onları hansı xüsusiyyətlərinə görə eyniləşdirmək olar?" Şagirdləri istiqamətləndirdikdən sonra tədqiqat sualını monitorda göstərirəm. Həmçinin tədqiqat sualı yazılmış kağızı lövhədən asıram.*

***Tədqiqat sualları:***
- *Kök və şəkilçinin fərqi nədir?*
- *Dilimizdə yerinə görə kök və şəkilçinin vəziyyəti necədir?*

***Problemin həlli:****Tədqiqatın aparılması üçün verdiyim ilk tapşırıq "Kök və şəkilçi" oyunu adlanır.*

***Tapşırıq 1.*** *Vatman üzərində mətn verilir və şəkilçilərin yerinə nöqtələr qoyulub. Vatmanın boş hissələrinə yapışqanlı kagız üzərində şəkilçilər yazılıb yapışdırılıb. Şagirdlər uyğun gələn şəkilçiləri tapıb mətndə yerinə qoyurlar.*
***Tapşırıq 2.*** *Bu tapşırıq karusel üsulu əsasında hazırlanıb və bütün qruplar tərəfindən yerinə yetirilir. Hər qrup "dost" sözünə toplar üzərindəki şəkilçilərdən uyğun gələnini seçib artırır.*






*İnformasiyanın mübadiləsi və müzakirəsi hər bir tapşırığın yerinə yetirilməsindən dərhal sonra aparılır. Müzakirə zamanı sinifə sualla müraciət edirəm."Nə üçün verilmiş sözə cəm şəkilçisinin -lər formasını deyil,-lar formasını artırdınız? "Müzakirə zamanı şagirdlərin diqqətini kök və şəkilçinin yerinə yönəldirəm.*
***Tapşırıq 3.*** *Hər bir qrupa aşağıdakı kimi cədvəl çəkmək tapşırıram.*
*Birinci qrup verilmiş sözləri şəkilçilərin yerinə görə qruplaşdırır;*

*İkinci qrup ön şəkilçili sözlərin köklərinin milli mənşəli və ya alınma olduğuna görə qruplaşdırır.*
*Üçünü qrup ön şəkilçili sözləri ərəb-fars və avropa mənşəli olduğuna görə qruplaşdırır.*

| | |
|---|---|
| | |

***Tapşırıq 4.*** *Kök və şəkilçinin xüsusiyyətlərinin müəyyənləşdirilməsinə əsaslanır. Birinci qrupa kök və şəkilçiyə (leksik və qrammatik) məxsus xüsusiyyətləri aşağıdakı xanalarda müəyyənləşdiməyi tapşırıram.*

| | kök | Lek. şəkilçi | Qram. şəkilçi |
|---|---|---|---|
| 1) Suala cavab verir | | | |
| 2) Lüğəvi məna daşıyır | | | |
| 3) Yeni sözlər yaradır | | | |
| 4) Sözlər arasında əlaqə yar.-r | | | |
| 5) Ayrılıqda məna bildirmir | | | |
| 6) İki və dörd cür yazılır | | | |
| 7) Bir, iki və dörd cür yazılır | | | |

*İkinci qrupa kök və şəkilçiyə məxsus xüsusiyyətləri Venn diaqramında işləməyi tapşırıram.*




*Üçüncü qrupa klaster (şaxələndirmə) üsulundan istifadə etməklə kökə məxsus xüsusiyyətləri seçib onun ətrafında yazmağı tapşırıram*



Scanned with ACE Scanner




*Təqdimat zamanı şagirdlərin kök və şəkilçinin xüsusiyyətləri ətrafında müzakirələrini təşkil edirəm.Hər bir tapşırığın təqdimatından sonra düzgün variantı monitorda işıqlandırılır və şagirdlər yerinə yetirdikləri tapşırığı düzgün variantla yoxlayırlar.*

***Nəticə və ümumiləşdirmə:*** *Şagirdlərlə birlikdə dərsin sonundan əvvəlinə doğru baxış keçirilir (refleksiya). Müsahibə yolu ilə şagirdlərin keçirilən mövzu ilə bağlı qənaət və nəticələrini (əyləncəli və musiqili oyun şəkilində) alıram və əvvəlcədən müəyyənləşdirdiyim nəticəni monitorda işıqlandırıb şagirdlərin nəticələri ilə nə dərəcədə üst-üstə düşdüyünü yoxlayıram.*

***Kökün lüğəvi mənası var, şəkilçinin isə lüğəvi mənası olmur;***

***Kök ayrılıqda işlənə bilir, şəkilçi isə ayrılıqda işlənə bilmir;***

***Azərbaycan dilində söz kökünə şəkilçilər ahəng qanununa uyğun olaraq artırılır;***

***Azərbaycan dilində kök əvvəl , şəkilçi isə kökə qoşularaq kökdən sonra gəlir;***

***Dilimizə məxsus ön şəkilçilər yoxdur;***

***Qiymətləndirmə:****Şagirdlərin qiymətləndirilməsini dərs boyu yeri gəldikcə, dörd meyar üzrə (1.Əməkdaşlıq. 2.Sözləri kök və şəkilçiyə ayırır. 3.Kök və şəkilçiyə aid xüsusiyyətləri müəyyənləşdirir. 4.Dilimizdə kök və şəkilçinin yerini müəyyənləşdirir.) dörd səviyyədə (əla, yaxşı, orta, zəif) aparıram.*

***Ev tapşırığı:*** *"Mən dərsdən sonra..." başlığı altında esse yazın və mətnin içərisindən sözlər seçib kök və şəkilçiyə ayırın.*



# VIII SİNİFDƏ AZƏRBAYCAN DİLİNDƏN XİTABIN TƏDRİSİNDƏ YENİ TƏLİM ÜSULLARININ TƏTBİQİ

**Gültəkin ABDULLAYEVA,**
**Füzuli rayonundakı A.Əliyev adına**
**Böyük Bəhmənli kənd 2 nömrəli orta məktəbin müəllimi**

Xitab emosional, cəlbedici mövzu olduğu qədər də, onun tədrisi yaradıcı iş tələb edir. Mən onu şagirdlərə aşağıdakı kimi mənimsədirəm.

**Mövzu:** Xitab nədir?

**Məqsəd:** Şifahi və yazılı nitqimizdə müraciət olunanı bildirən söz və ya söz birləşməsinin xitab olduğunu şagirdlərə öyrətmək.

a) Xitab haqqında məlumat.
b) İfadə vasitələri.
c) Sadə və mürəkkəb olması.
ç) Geniş və müxtəsər olması.
d) Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmaması.
e) Adlıq halda işlənməsi.
ə) Mübtəda və xitabın oxşar və fərqli cəhətləri.

**İş forması:** 1) Bütün siniflə iş.
2) Qruplarla iş.

**İş üsulu:** Beyin həmləsi, müzakirələr, diskussiya, BİBÖ.

**Resurslar:** 8-ci sinif üçün Azərbaycan dili dərsliyi (müəllifləri Q.Kazımov, F.Şahbazlı, A.Mikayılova), iş vərəqələri, folipçat (böyük ağ vərəqlər toplusu), kompüter, marker və s.

**Dərsin gedişi:**

**I mərhələ: motivasiya.**

Əvvəlki siniflərdə şagirdlərin az da olsa, xitab haqqında məlumatı olduqlarını nəzərə alaraq, qabaqcadan hazırladığım aşağıdakı sxemi motivasiyanı qurmaq məqsədi ilə yazı taxtasından asıram.




Sinifdəki bütün şagirdlərə belə bir sualla müraciət edirəm: "Sizcə, sual işarəsinin yerinə hansı sözü yazmaq lazımdır?".



Scanned with ACE Scanner

Şagirdlər müxtəlif cavablar verirlər. Bunların içərisində "Xitab yazılmalıdır" deyənlər daha çox olur. Lakin cavabı yazmazdan əvvəl kompüterdə müğənni Flora Kərimovanın ifa etdiyi "Bakı, sabahın xeyir!" mahnı-klipini nümayiş etdirirəm. Monitorda 2-3 dəqiqə izlənilən bu klip şagirdlərin zövqünü oxşayır, qəlbində xoş əhval-ruhiyyə yaradır və onlar bir daha əmin olurlar ki, sxemdəki sual işarəsinin yerində xitab yazmaq lazımdır.

Əvvəlcədən böyük ağ plakatda hazırladığım BİBÖ cədvəlini yazı taxtasından asıram. Şagirdlərin nə bildiklərini soruşaraq markerlə BİBÖ cədvəlinin "Bilirəm" qrafasına qeyd edirəm.2-ci qrafada daha nəyi bilmək istədiklərini yazırlar. Dərsin sonunda isə "Öyrəndim" qrafasını aşağıdakı şəkildə şagirdlərin xitab haqqında əldə etdikləri yeni biliklər əsasında doldururuq.

| *Bilmirəm* | *İstəyirəm biləm* | *Öyrəndim* |
|---|---|---|
| *1. Xitab adlıq halda olur.*<br>*2. Cümlə üzvü ola bilmir.*<br>*3. Çağırış nidaları ilə səslənir.*<br>*4. Vurğusu 1-ci hecaya düşür.*<br>*5. Cümlədə yeri sərbəstdir.* | *1. Quruluşca növünü.*<br>*2. İfadə vasitələrini.*<br>*3. Cümlə üzvləri ilə sintaktik əlaqəyə girə bilmədiyini.* | *1.Quruluşca sadə və mürəkkəb olduğunu.*<br>*2.Əsasən isim, isimləşmiş sifət, feli sifət tərkibləri və ismi birləşmələrlə (durğu işarələri, cümlə üzvü ilə) sintaktik əlaqəyə girə bilmədiyini.* |

**II mərhələ: tədqiqat.**

Sinifdəki şagirdləri 4 qrupa bölürəm. Hər qrupa tədqiqat aparmaq üçün hazırladığım iş vərəqlərini verirəm.

İş vərəqlərində hər qrup üçün sual və tapşırıqların cavab variantlarını hazırlayıb özümdə saxlayıram. Qrup işinin təqdimatının müzakirəsi zamanı şagirdlərin cavabları ilə öz cavablarımı tutuşdurub uyğunluğunu müəyyənləşdirirəm. Bu məqalədə həmin cavabları da təqdim etməyi məqsədəuyğun hesab edirəm.

**1-ci qrup**

**Sual 1.**






Dərsliyin 249-cu çalışmasındakı "Ceyran" şeirini diqqətlə nəzərdən keçirin. Mübtədə və xitab haqqında bildiklərinizi (oxşar və fərqli cəhətləri) Venn diaqramında qeyd edin.

**Cavab:** Venn diaqramını aşağıdakı qaydada doldururuq.




**2-ci qrup**

**Sual 1.**

Aşağıdakı bayatıda işlənmiş xitabları müəyyən edin,buraxılmış durğu işarələrini qoyun.Xitabların altından xətt çəkin və mötərizədə quruluşca növünü qeyd edin.

*Araz, Araz, xan Araz,*
*Sultan Araz, xan Araz,*
*Al başımdan sevdanı,*
*O yanda çalxan, Araz.*

**Cavab aşağıdakı kimi olmalıdır:**

Araz, Araz, xan Araz, (sadə xitab, sadə xitab, mürəkkəb xitab).
Sultan Araz, xan Araz, (mürəkkəb xitab, mürəkkəb xitab).
Al başımdan sevdanı,
O yanda çalxan, Araz (sadə xitab).

**3-cü qrup**

**Sual 1.**

Verilmiş mətnlərdə xitabları seçin,mətnin altında yazın. Qarşısında ifadə vasitələrini göstərin.

1) *Qaranlıq gecədə səni gözləyib,*
*Durmaqdan yoruldum, ey dan ulduzu!*
*Uzaq üfüqlərə göz gəzdirməkdən,*
*Az qala kor oldum, ey dan ulduzu!* **C.Cabbarlı.**

2) *Məzlumluq edib başlama fəryadə, əkinçi!*



Scanned with ACE Scanner

*Qoyma özünü tülkülüyə, adə, əkinçi!* **M.Ə.Sabir.**

3) *Oğul, sözlərimə yaxşı qulaq as,*
*Ata nəsihəti faydasız olmaz.* **N.Gəncəvi.**

**Cavab:**
Xitablar:
1. Ey dan ulduzu-Çağırış nidası ilə işlənmiş II növ təyini söz birləşməsi.
2. Əkinçi-isim.
3. adə,əkinçi-isim,isim.
4. Oğul-isim.

**4-cü qrup**

**Sual 1.**
Verilmiş sxemlər əsasında xitablı cümlələr tərtib edin:
1. X!__________.
2. ________,X,_________.
3. X,_________.
4. ________,X?

Deyə bilərsinizmi cümlədə xitabın yeri sərbəstdir, yoxsa sabitdir?

**Cavab belə daha məqsədə uyğundur:**
1. Vaqif! Yenə də sən yadıma düşdün.
2. Oxu, bülbülüm, oxu!
3. Ay hazarat, bir zamana gəlibdir.
4. Niyə pərişandır halların, dağlar?

Şifahi və yazılı nitqimizdə xitabın yeri sərbəstdir.

**III mərhələ: təqdimat.**
Şagirdlər yaradıcı işlərini, yəni tədqiqatlarını təqdim edirlər. Bu işi hər qrup öz içərisindən seçdiyi liderə həvalə edir.

**IV mərhələ: müzakirə.**
Müzakirədə sinfin bütün şagirdlərinin iştirakı təmin edilir. Cavablar saf-çürük edilir. Nəhayət, müəllim müzakirələrə yekun vuraraq nəticə çıxarır.

**V mərhələ: Nəticə.**
Nəticə ondan ibarət olur ki, dərsin əvvəlindən qoyduğumuz məqsədə nail ola bilmişik və problem həll edilmişdir.Yəni şagirdlər öyrəndilər ki, xitab:
1. Müraciət olunanı bildirir.
2. Müraciət intonasiyası ilə deyilir.
3. İsmin adlıq halında olur.
4. İfadə vasitələri adlıq halda olan isim, isimləşmiş sifət, feli sifət, feli sifət tərkibləri və təyini söz birləşmələridir.
5. Cümlə üzvü ola bilmir.
6. Cümlə üzvləri ilə sintaktik əlaqəyə girə bilmir.
7. Mübtəda ilə oxşar və fərqli cəhətləri var.
8. Çox zaman çağırış nidaları ilə işlənir.



9. Quruluşca sadə və mürəkkəb olur.

**VI mərhələ: qiymətləndirmə və refleksiya.**
Dərsin bütün mərhələlərində qiymətləndirmə aparıram.

| Dəyərlər / Qruplar | Əməkdaşlıq | Vaxtdan istifadə | Tədqiqat | Təqdimat | Yekun |
|---|---|---|---|---|---|
| I QRUP | | | | | |
| II QRUP | | | | | |
| III QRUP | | | | | |
| IV QRUP | | | | | |

**VII mərhələ: yaradıcı tətbiqetmə**
Hər şagird evdə mükalimə xarakterli kiçik bir mətn tərtib etsin.Dialoqda xitablardan geniş istifadə etməyə çalışsın.


**OXUCULARIN NƏZƏRİNƏ**

*Jurnalımıza 2014-cü il üçün abunə yazılışı davam edir.*
*Bakı şəhəri üzrə abunə yazılmaq istəyənlər aşağıdakı mətbuat yayımı firmalarına müraciət edə bilərlər:*
1. *"Qasid". Ünvan: Cavadxan, 21;* *telefon: 4-93-16-43; 4-30-02-24*
2. *"Səma". Ünvan: H.Cavid, 9, mənzil 63;* *telefon: 4-94-09-59; 4-94-02-52*
3. *"Kaspi". Ünvan: Mətbuat pr., 25;* *telefon: 5-10-61-96*
4. *"Qaya". Ünvan: Akademik H.Əliyev küç., 82 "q";* *telefon: 5-64-63-45; 4-65-67-13*

*Rayonlarda isə abunəni Azərbaycan Mətbuat Yayımı İstehsalat Birliyinin yerli yayım şöbələri aparır.*




Scanned with ACE Scanner

# OMONİMLƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİNDƏ QRAMMATİK MEYARLARIN ROLU

**Sevinc ABDULLAYEVA,**
**Nazilə MƏMMƏDOVA,**
**Bakı şəhərindəki 181 nömrəli orta məktəbin müəllimləri**

Dilçilikdə mürəkkəb və maraqlı dil hadisələrindən biri omonimiya, sözlərin səs və hərf tərkibinə görə eyniyyəti, şəkil oxşarlığıdır. Bu dil hadisəsi geniş anlayış olub həm leksik-semantik, həm də leksik-qrammatik sahələrini əhatə edir. Omonimlik tarixi kateqoriya kimi qədim bir dövrü əhatə edir və özünü bütün dillərə xas olan hadisə göstərir. Lakin bu hadisə bütün dillər üçün eyni xarakterli olmayıb, hər bir dilin özünəməxsus daxili inkişaf qanunları ilə tənzimlənir. Bu əsasda Azərbaycan dilində də omonimiya hadisəsi digər başqa dillərdən fərqlənir.

Yazılış və deyilişcə eyni dil vahidlərinin müxtəlifliyi omonimiya hadisəsinin əsasını təşkil edir. Azərbaycan dilində omonimlik müxtəlif dil vahidləri arasında özünü göstərir. Belə omonimik hadisələrdən biri yalnız qrammatik mənaya malik natamam mənalı sözlər arasındakı omonimlikdən ibarətdir. Məsələn, **ilə** qoşması ilə **ilə** bağlayıcısı, **əsasən** qoşması ilə **əsasən** modal sözü, **ki** bağlayıcısı ilə **ki** ədatı arasında olan şəkil oxşarlığı onları qrammatik omonimə çevirir.

Qrammatik omonimlər yalnız natamam mənalı sözlərlə – köməkçi nitq hissələri ilə əmələ gəlir və bu omonimlik ancaq qrammatik funksiya daşıyan köməkçi nitq hissələrinin omonimliyi kimi qəbul olunur. Fikrimizi əsaslandırmaq məqsədilə bəzi omonim bağlayıcı və ədatların fərqləndirilmə meyarlarını müəyyənləşdirməyə çalışaq. Bağlayıcı və ədatların içərisində elə sözlərə rast gəlmək olur ki, bunlar eyni fonetik görünüş və səslənmədə müxtəlif qrammatik funksiyaları yerinə yetirir. Məsələn, **ilə** səs kompleksini götürək. Bu səs kompleksi qoşma kimi **ilə** və ya şəkilçiləşmiş **-la(-lə)** formasında adlıq halda olan isimlərə və yiyəlik halda olan əvəzliklərə qoşularaq, əsasən, birgəlik və vasitə məzmun çaları əmələ gətirir:

"Şəhərə doğru gedən, getdikcə enlənən və böyüyən əyri-üyrü palçıqlı yol bu ala-toranda camaatla dolu idi" (M.Cəlal).

"Qarşıdan üç atlı çıxdı, bir az keçməmiş Qaraşla qarşılaşdı" (M.İbrahimov).

"O, parçadan tikilib, nazik iplə kuzənin qulpuna bağlanmış tıxancı çıxartdı" (M.İbrahimov).

**İlə** sözü dilimizdə eyni deyiliş və yazılış formasında (həm də şəkilçiləşmiş formada) birləşdirmə bağlayıcısı kimi də işlənərək həmcins üzvləri bir-birinə bağlayır. Məsələn:

"Xalıqverdi ilə qonağı tapılmalıdır" (Ə.Vəliyev).

"Qurbanla Sona birdən o səmtə yüyürdülər" (M.Süleymanov).

**İlə** sözünün törəmə və tarixi inkişaf prosesini kənara qoyub müasir vəziyyətini əsas götürsək, onun müxtəlif qrammatik vəzifələri yerinə yetirdiyini görürük. Bu söz qoşma kimi adlıq halda olan isimlərə və yiyəlik halda olan əvəzliklərə qoşularaq, əsasən, birgəlik və vasitə məzmun çaları əmələ gətirir, bağlayıcı kimi isə tabesizlik bağlayıcısı olub, həmcins üzvləri bir-birinə bağlayır. Bu sözü daşıdığı qrammatik vəzifəyə görə fərqləndirmə vərdişi qazanana kimi, müəyyən fərqləndirici meyarlardan istifadə etmək olar.



Belə fərqləndirici meyarlardan biri ondan ibarətdir ki, **ilə** bağlayıcısı cümlənin həmcins üzvləri arasında işlənir və onu cümlədə asanlıqla **və** bağlayıcısı ilə əvəz etmək mümkündür. Bu söz qoşma kimi işləndikdə isə onu və sözü ilə əvəz etmək olmur. Məsələn: Nailə ilə Zülfiyyə (Nailə və Zülfiyyə) getdilər. Nailə Zülfiyyə ilə getdi. İkinci cümlədə ilə sözünün yerinə heç cür və bağlayıcısını işlətmək mümkün deyildir.

Bundan başqa, **ilə** bağlayıcısı həmcins mübtədalar arasında işləndikdə:

a) "şəxs əvəzlikləri və isimlərlə ifadə olunan həmcins mübtədalardan biri birinci şəxs əvəzliyi (mən, biz) olduqda xəbər birinci şəxsin cəmində işlənir. Məsələn: Səbuhi ilə mən sabahkı dərslərimizi hazırladıq";

b) həmcins mübtədalar ikinci və üçüncü şəxsi bildirən əvəzliklərlə ifadə olunduqda xəbər ikinci şəxsin cəmində işlənir. Məsələn: "Nuru ilə sən sabah mütləq növbətçi dayanmalısınız";

c) həmcins mübtədalar üçüncü şəxsdə olan sözlərlə ifadə edildikdə xəbər də həmin şəxsin şəkilçilərini qəbul edir. Belə mübtədalar insan bildirən isimlərlə ifadə olunursa, xəbər üçüncü şəxsin cəmində işlənir. Məsələn: "Sona ilə Murad tarlaya getdilər".

Qeyd etdiyimiz xüsusiyyət yalnız həmcins mübtədalara aiddir ki, bunların arasında da ancaq tabesizlik bağlayıcısı işlənə bilər. Deməli, bütün hallarda həmcins mübtədaların arasında işlənən **ilə** sözü bağlayıcı funksiyasını yerinə yetirir və həmcins mübtədalarla xəbərin uzlaşması da yuxarıda qeyd etdiyimiz şəkildə özünü göstərir. İlə sözü qoşma kimi işləndikdə isə bu xüsusiyyətə rast gəlmirik.

Qrammatik omonim kimi işlənən sözlərdən biri də **əsasən** sözüdür. Bu söz bir tərəfdən qoşma kimi işlənirsə, digər tərəfdən də eyni deyiliş və yazılışda modal söz funksiyasını yerinə yetirir.

Feli bağlamalar və feli bağlama tərkibləri cümlədə, əsasən, zərflik vəzifəsində işlənir.

Qoşma və modal söz kimi **əsasən** sözünün necə fərqləndirilməsinə diqqət yetirək. İlk növbədə qeyd etmək lazımdır ki, bu qrammatik omonimi iki qütbdən – həm qoşma istiqamətindən, həm də modal söz istiqamətindən fərqləndirmək mümkündür. Belə ki, **əsasən** sözü qoşma kimi işləndikdə **görə** qoşmasının ekvivalenti kimi çıxış edir və onu **görə** qoşması ilə əvəz etmək olur. Məsələn:

"Məktəb direktorunun göstərişinə əsasən məktəbin bütün avadanlığı yoxlandı";

"Məktəb direktorunun göstərişinə görə məktəbin bütün avadanlığı yoxlandı".

**Əsasən** sözünü modal söz istiqamətindən fərqləndirmək istəsək, deyə bilərik ki, modal sözlərə xas olan xüsusiyyətə görə modal söz kimi işlənən əsasən sözü, adətən, cümlənin ortasında işlənir və hər iki tərəfdən vergüllə ayrılır. İkinci tərəfdən əsasən modal söz kimi işləndikdə onu «bir qayda olaraq» ifadəsi ilə əvəz etmək mümkündür. Məsələn:

Feli bağlamalar və feli bağlama tərkibləri cümlədə, əsasən, zərflik vəzifəsində işlənir; feli bağlamalar və feli bağlama tərkibləri cümlədə, bir qayda olaraq, zərflik vəzifəsində işlənir.

Qrammatik omonimlərin fərqləndirilmə meyarları onları ayırmaq üçün yalnız ilkin zamanlarda işlənə bilər. Bu meyarlar tədricən vərdiş və bacarığa çevrildikdən sonra isə qrammatik omonimləri onların cümlədəki qrammatik roluna, vəzifəsinə və cümlənin ümumi məzmununa görə ayırmaq çox asan olur.



Scanned with ACE Scanner

# AZƏRBAYCAN DİLİ TƏLİMİNDƏ FƏNDAXİLİ ƏLAQƏYƏ İSTİNAD ETMƏYİN DİDAKTİK İMKANLARI

**Vaqif QURBANOV,**
**AMİ-nin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru**
**Lətifə ƏSƏDULLAYEVA,**
**Bakı şəhər 59 nömrəli məktəbin müəllimi**

***Açar sözlər:*** *dilçilik, dildaxili əlaqə, fəndaxili əlaqə, ümumiləşdirmə, gözlənilən nəticə, son nəticə, dayaqlar, xəritə.*

Orta ümumtəhsildə «Azərbaycan dili» fənni dilçilik elminin məzmununu özündə yığcam şəkildə əks etdirən, pedaqoji, psixoloji və metodoloji qayda-qanunlarla fəaliyyət göstərən bir fənndir. Dilçiliyin ümumi, Azərbaycan dilinin isə xüsusi anlayış kimi, hər bir xüsusidə ümumiyə məxsus kateqoriyaların ehtiva olunması da təbiidir. Bunların hər ikisinin tədrisində dil daxili əlaqə və vəhdət prinsipinə istinad olunmalıdır.

Belə ki, dilçilik də, Azəraycan dili fənni də şöbələrarası, mövzulararası struktur-məzmun çarxları vasitəsilə hərəkətə gətirilərək öyrənilir.

Dilçilik də, Azərbaycan dili də öz sahələrinə, şöbələrinə, bölmə və yarımfəsillərinə, bölmə və yarımfəsilləri əsasında differensiasiya – inteqrasiya olunur. Deməli, «diferensiasiya və inteqrasiya hər ikisinin təlimində əsas tutulan didaktik qanundur» [1, s.66-77].

Dilçiliyin öyrənilməsi ilə Azərbaycan dilinin təlimi təxminən eynidir. Hər ikisi üçün ümumidən xüsusiyə və ya xüsusidən ümumiyə metodu əsas götürülür. Deməli, fəndaxili əlaqə Azərbaycan dilinin tədrisində istifadə olunan bir qanunauyğunluq, dil haqqında elmin öz xarakteri ilə bağlı olan linqvoetikadır ki, bu da, bir növ, «fizika fizikanın qanunları ilə öyrənilir» fəlsəfəsinə uyğun gəlir.

Eyni zamanda dilçilik və Azərbaycan dili üçün ümumi olan bir qanunauyğunluq da var. Bu da onların hər ikisində dil və ya təfəkkürün qarşılıqlı vəhdəti və mübarizəsi zəminində tədqiqi və öyrənilməsi və sonda ümumi anlayışlara görə inteqrasiya edilməsidir. Bu qanunun doğurduğu əlamətlər elmilik, sistematiklik və s. prinsipləri gözləməyi zəruri edir ki, buna da elmdə linqvodidaktika deyilir. Linqvodidaktika həm dilçiliyin, həm də Azərbaycan dilinin tədrisində istinad edilən metodologiyadır.

Buradan çıxan metodik ideya ondan ibarətdir ki, dilin təlimi metodikasını müəyyən etmək üçün onun bir elm kimi tədrisinin qanunlarını, prinsiplərini və metodlarını nəzərə almaq lazım gəlir. Çünki Azərbaycan dilinin tədrisi metodikası ilk növbədə dilçilik elmi ilə əlaqədardır; əlbəttə, onlardan hər birinin elmi funksioloji öyrənilmə məqsədləri fərqli ola bilər;



ancaq öyrədilməsi qanunları qanunauyğunluqları isə eynidir. Sonuncu birincidən hasil edilən elmi nəticələrə istinadən qurulmalıdır.

Başqa növbəti bir linqvostatistik ideya bundan ibarətdir ki, Azərbaycan dili tədrisində istifadə olunan metodlar dilçiliyin tədqiqində istifadə olunan metodlarla üst-üstə düşməlidir.

Bu tezislə bir çox məsələləri sübut etmək olar. Belə ki, əvvəla, dilçiliyi tədqiq edənlər hansı forma və üsullardan istifadə edirlərsə, Azərbaycan dilinin təlimi məzmununu tədqiq edənlər də həmin forma və üsullardan, yəni müşahidə, müqayisə, analiz, sintez, ümumiləşdirmə və s. istifadə edirlər. Məlumdur ki, həm tədqiqat, həm də təlim metodları, yəni idrakın metodları sayılır. Başqa sözlə, differensiasiyadan inteqrasiyaya və yaxud da əksinə, ümumidən xüsusiyə, xüsusidən ümumiyə doğru qurulan yol həyati, insanları, təbiəti, o cümlədən dili öyrənməyin və öyrətməyin fərsəfi-metodoloji yoludur [2, s.142]. Deməli, dilçiliyin və Azərbaycan dilinin nəinki məzmun əlaqəlikləri eynidir, eyni zamanda onların metodikasının da tətbiqində müştərəklik göz qabağındadır. Odur ki, Azərbaycan dilinin məzmununu mənimsədərkən istinad olunanlar ortaq və dayaq biliklərdir.

Dilçilər əgər *aldıqca, gəlincə, açmadan* və s. feli bağlamaların morfemlərinin mənasını müəyyən edərkən leksik məna, morfoloji əlamət və cümlədəki funksiyasını və ya rolunu əsas götürmək əsasında müvafiq nəticələrə gəlirlərsə, təlim prosesində də həmin əməliyyatlardan istifadə olunur. Müəyyən edilmiş həmin üç kriteriya və ya prinsipdən heç biri digərinin məna və məzmununu azaltmır. Doğrudan da, «-dıqca[4]» morfemində nitqin qurtaran hərəkət statusu yox, davam edən elliptikliyi hiss olunur. Məsələn, «Biz oxuduqca yenə də oxumaq istəyirik» cümləsində fikir «oxumaq»la bitmir; «davam edir» və «oxumaq istəyirik» felinə əlavə zaman məzmunu verirsə, deməli, məsələ təlimdə də məhz bu şəkildə izah olunmalıdır.

Feli bağlama hibrid kateqoriyadır, 2 və hətta 3 kateqoriya əlamətləri ehtiva edən bir yeni kateqoriyadır ki, qrammatik göstəriciləri ilə dil tədqiqatçısının da, öyrədənin də bu cəhət diqqətini özünə çəkməyə bilməz və çəkməlidir.

Eyni sözləri felin digər qrammatik göstəriciləri haqqında da deyə bilərik. Kitabda (dərslikdə) olan qeydi nəzərə almayan müəllim başlanğıc formada olan – «-dığı» şəkilçisini şagirdlərə morfem daxili analiz üsulu ilə izah edərkən özünü dolaşdırır. Nəzərə alınmalıdır ki, «yazdığı məktub», «aldığı cavab» birləşmələrindəki – «-dığı» feli sifət morfemi olub, hissələrə, ünsürlərə parçalanmaz, lakin onun formalaşma prosesi belə olub: dı – q – i, yəni, şühudi keçmiş zaman – şəxs şəkilçisi – mənsubiyyət şəkilçisi. «Oxuduğum kitab» «dediyim söz», «gördüyüm iş» və s. birləşməsini yaradılmasında, müəyyən qəliblərə salınmasında, həmin *-dıq[4]* ünsürü başlıca rol oynamışdır.

Ancaq bu morfem özü ayrıca forma olduğu üçün tərkibinə görə təhlil edilməyən hesab olunur. Morfemlər, məlumdur ki, mənalı hissələrinə parçalanmayan qrammatik hissələrdir. «Oturduqda», «gəzmədən», «aldıqca»,



Scanned with ACE Scanner

«apararkən» feli bağlamalarında və «oturmalı» «gəzməli» «aldığı» feli sifətlərində olduğu kimi. İndi isə ümumi dayaqlar üzərində qurulan əlaqə konturlarını qısa da olsa qeyd edək:

### 1.Fonetika dayaqları

Dil təlimi səs, hərf, heca, vurğu, səs, intonasiya, orfoepiya, orfoqrafiya arasındakı bağlılıqlar və keçidlər üzərində qurulur.

Nəzərə almalıyıq ki, səs danışıq vahidi, nitq vahididir və onun diferensasiyası öz daxil olduğu ümumiliyə münasibətdə öyrənilməlidir. Belə ki, söz səslərdən ibarətdirsə, səs qammalarından ibarətdir. Söz yaratmayan, sözdən kənarda olan səsi nitq səsi hesab etmirik. Deməli, səsə dair anlayışlar yaradarkən sözün neçə səsdən ibarət olmasına diqqət yetirməyimiz, onları xarakterizə etməyimiz bununla əlaqədardır ki, biz danışıq (nitq) səslərini öyrənirik və bununla danışığa xidmət göstəririk.Orfoqrafik bacarıqların, səslərin tonu, tembri, uzanıb qısalması məqamlarını, vurğunu qaydaya salandan sonrakı proses olması, təlimdə bunların bu və ya digər şəkildə nəzərə alınmasına diqqət yetirmək fənndaxili əlaqənin ciddi tələblər doğurmasından irəli gəlir.

Fonetikaya dair bilik və bacarıqlar sistematik kursda V sinifdən başlayır və həmin sinifdə fonetik təhlillərlə tamamlanır. Lakin fonetik vahidlərdən ahəng qanunu leksika, morfologiya, habelə intonasiya sintaksis təlimində (VIII-IX siniflərdə) davam etdirilir, nitq mədəniyyəti və üslubiyyat tədrisində (X-XI siniflərdə) daha möhkəm dayaqlara çevrilərək poetizmin (assonans, allitrasiyanın) öyrənilməsində istinadgah rolunu oynayır.

Beləliklə, fonetik dayaqlar və əsaslanmalar fonetik bacarıqları XI sinfə qədər möhkəmləndirə-möhkəmləndirə aparan dildaxili bir qüvvə hesab olunur.

### 2.Morfoloji dayaqlar

Nitqin hissələri: isim – sifət; isim – say; isim – fel; isim – əvəzlik; fel – əvəzlik; fel – zərf; cümlə – bağlayıcı, cümlə – qoşma; cümlə – ədat, cümlə – modal – söz; cümlə – nida və s. əlaqəliklərindən kənarda öyrənilə bilməz.

Bu əlaqələrin forma və məzmun dairəsinin konkret xəritəsini açmaq, bir-bir şərh etmək lazımdır.

Morfologiya tədrisində cümlədən mütləq istifadə amili yeganə düzgün seçilən amildir. Onsuz sifət, zərf, qoşma, ədat, modal söz və s. sözlərin məna və funksiyasını axıradək dərk etmək və dərk etdirmək imkan xaricindədir. Bir sözlə, morfologiyada sintaktik zəmin prinsipinin seçilməsi əsl elmi metodologiyadır. Bu yolla nitq hissələrinin leksik mənaları və morfoloji əlamətləri də anlaşılmış olar. Nitq hissələrinin daxil olduğu böyük nitqə (cümləyə) inteqrasiyası müşahidə obyektinə çevrilə bilər [4, s.41-45].

### 3. Leksik, frazeoloji dayaqlar

Leksikologiyaya dair biliklər diferensasiya olunmuş mövzuların həm öz aralarında və həm də dilin digər bölmələrinə, şöbələrinə dair mövzularla



birbaşa və dolayısı ilə linqvistik bağlılıqları vardır. Bunlar çoxmənalı sözlər – omonimlər, sözlərin məcazi – leksik mənaları, o cümlədən fonem və leksem mənalı sözlər ahəng qanununa tabe və tabe olmayan sözlər, dialekt, şivə, ləhcə dili və ədəbi dil, türk-Azərbaycan və alınma sözlər, tarixizmlər və müasir sözlər və s. ibarətdir.

Nitq hissələrinin və cümlə üzvlərinin tədrisində sözlərin, söz birləşmələri və cümlə üzvlərinin, habelə cümlələrin leksik və frazemik mənadaşıyıcıları olması məqamları ilə müvafiq fərqli nəticələr çıxarılır ki, bunlar da çox ciddi inteqrativ nəticələrdir.

### 4. Söz yaradıcılığı (dervitoloji) dayaqlar

Sözün qrammatik və leksik mənası, kök və şəkilçi. Eyniköklü – qohum və qohum olmayan sözlər. Lüğət ehtiyatının zənginləşmə yolları: leksik, morfoloji və sintaktik yollarla söz yaradıcılığı. Morfologiyanın tədrisində söz yaradıcılığına leksikanın ayrı-ayrı vahidlər üzrə qarşılaşdırılması və s. işlərin (sadə, düzəltmə və mürəkkəb nitq hissələri üzrə) aparılması və s.

### 5. Sintaktik dayaqlar

Sözün leksik və qrammatik mənasına dair istinad olunan biliklər söz birləşmələrinin qrammatik mənalarını mənimsətməkdə dayaq hesab edilən biliklərdir; nitq hissələrinə dair elə bir əlamət yoxdur ki, yaratdığı anlayışlar cümlənin məna və funksiyasını şərh etməkdə istinad – dayaq və ya vasitə olmaqdan kənarda qalsın.

Cümlədə söz və söz birləşməsinin əlaqə və münasibəti linqvostruktur yaradır.

Cümlə sözlərin leksik, qrammatik və frazematik mənalarda birləşməsidir. Həmin mənaları cümlədən kənarda axtarmaq heç bir nəticə verməz; halbuki belə hallara cəhdlər az olmamışdır; ancaq elmi düşüncə buna yol vermir.

Cümlə – sözün dəqiq ünvanlanmasıdır. Əgər belə olmasa *xeyli, az, çox, yaxşı, deməli, gələcək, qaz, yaz, əkin, biçin* və s. sözlərdən hər biri hər yerdə, hər zaman bir morfem kimi götürülərdi.

Göründüyü kimi, bunlar danışanın məqsədindən asılı olaraq, ifadə etdiyi fikirdə müvafiq olaraq say mənası da, sifət və ya zərf mənası da kəsb edər, isim və yaxud da fel mənası da daşıya bilər.

Köməkçi nitq hissələrinin etnoanalizini verirkən cümlə amillərindən ona görə istifadə edirik ki, cümlə sözlərin məhək daşıdır.

Eyni sözləri, əlbəttə ki, söz birləşmələri haqqında da deyə bilərik. Doğrudan da, sözlər öz məna və funksiyasını birləşmədə, kontekstdə də tapa bilir. Ancaq sözün əsas və ya köməkçi məna bildirməsi çox vaxt cümlədə aydın ifadə olunur.

Deməli, cümləyə geniş qrammatik – semantik məna yaradan spektr kimi yanaşmaq lazım gəlir [3]. Cümlədə nitqin hissələrini öyrənmək, cümlə vasitəsilə öyrətmək sözlərin həm leksem, həm morfem, həm sintaksem məna ifadəçisi olmasını dilin normalarını nitq və təfəkkürün qarşılıqlı mübarizəçisi



Scanned with ACE Scanner

zəminində götürməyə, qrammatik-semantik prinsipə istinad etməyə uyğun gəlir. Bu prinsip əlaqə və vəhdətdən yarandığından, fəndaxili əlaqəni böyük didaktikaya çevirmiş olur. «Böyük didaktika» isə bütün anlayışları əlaqə və vəhdətdə götürməyi və həmin münasibətlərdə də öyrətməyi tələb edən «böyük inteqrasiya»dır.

Sintaksis həm söz birləşməsi, həm də cümlədə sözlərin və söz birləşmələrinin uyğunlaşmasıdır. Əgər mürəkkəb konstruksiyadan başlayaraq üzü xüsusilərə qədər gedib çıxsaq, ilkin başlanğıc forma söz olacaqdır. Deməli, sintaksis sözün (morfologiyadan alınan biliklərin) üzərində qurulmuşdur, birləşmə üçün söz dayaq komponent olmuşdursa, təlimdə də hər bir yeni anlayış öz bilik resurslarını özündən əvvəlkinin üzərində qurmağa borcludur. Belə bir ardıcıl işlək xətt dişli çarxı xatırladan, məlum biliklərə istinad edən, onları möhkəmləndirən yeni və inteqrativ nəticələrə, nitqə çevrilmələrə aparıb çıxaran metodik strategiyadır.

### ƏDƏBİYYAT


1. *Əhmədov B.A. Azərbaycan dilinin qanunları, prinsipləri və metodları. Bakı, "Maarif", 1974, 115 s.*
2. *Kazımov N.M. Məktəbdə müqayisə işinin nəzəriyyə və praktikası. Bakı, "Maarif", 1979, 432 s.*
3. *Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, Aspoliqraf, 2011, 144 s.*
4. *Hacıyev A.O. Dilin nitq fəaliyyətində tədrisi. ADƏTM, 2007, №4, s.41-45.*



**Ключевые слова:** *языкознания, внутреязыковые, внутрепредметные материалы, обобщения, ожидаемые результаты, конечный резултать, опоры, карта.*


### РЕЗЮМЕ


*Результаты обучения, в частности Азербайджанского языка в V-XI классах, во многом зависить от оптимальных определений интерактивных методов обучения, и применения внутрепредметных связей для научных интеграций.*


### SUMMARY


*Learning outcomes, particularly in the Azerbaijani language V-XI classes, largely depends on the optimal definition of interactive teaching methods, and application vnutrepredmetnyh ties for scientific integration.*




# "ŞAH İSMAYIL XƏTAİ" MÖVZUSUNUN ÖYRƏDİLMƏSİNDƏ YENİ TƏLİM METODLARINDAN İSTİFADƏ


**Ofeliya PİRİYEVA,**
**Bakı Dövlət Universitetinin müəllimi**



**Açar sözlər:** *şəxsiyyət və tarix, müqayisə və inteqrasiya, siniflə iş.*


Təhsil islahatının həyata keçirildiyi indiki dövrdə bir çox mövzuların ənənəvi üsullarla öyrədilməsi lazımi nəticələri vermir. Fəal interaktiv təlim metodları fənn kurikulumunun tərkib hissəsi olaraq şagirdlərin yaradıcılıq fəallığının nümayiş etdirilməsinə, təhsil pillələri üzrə konkret təlim nəticələri əldə olunmasına ciddi təsir göstərir. X sinifin sonunda şagirdin nitq fəaliyyətinin I mərhələsi üzrə (dinləyib-anlama və danışma) "dinlədiyi fikrin dəyərləndirilməsi" (1, 11) tələbi qoyulur.

Azərbaycanın siyasi-mədəni fikir tarixində mühüm rol oynamış Şah İsmayıl Xətai irsinin məktəblərimizdə daha ciddi və dövrün tələbinə uyğun tədris olunması lazımdır. Orta məktəb kursunun tələbinə və dərslikdəki materiala uyğun olaraq, bu mövzunun tədrisinə ayrılan 6 saatı aşağıdakı şəkildə paylaşdırmaq olar:

1. Şah İsmayıl Xətainin həyatı və siyasi fəaliyyəti – 1 saat.
2. Şairin lirik yaradıcılığı, onun qoşma, gəraylı və qəzəllərinin ideya-bədii xüsusiyyətləri – 1 saat.
3. "Ayrılıq" rədifli qəzəlin məzmunu və təhlili üzərində iş – 1 saat.
4. "Dəhnamə" əsərinin məzmunu üzrə iş – 2 saat.
5. Əsərin təhlili, bəhri və bədii xüsusiyyətləri – 1 saat.

Qarşıya qoyulan *m ə q s ə d* şagirdləri unudulmaz şəxsiyyət olan Şah İsmayıl Xətainin həyatı, siyasi fəaliyyəti, lirik və epik yaradıcılığı ilə tanış etməkdir. Burada sərdar şairin öz xalqının dilinin və mədəniyyətinin çiçəklənməsi yolunda göstərdiyi xidmətlər, ana dilində zəngin bədii irs yaratması diqqət mərkəzinə çəkilməlidir. Şagirdlər öyrəndikləri materialı dəyərləndirməyi və onu ardıcıl, aydın şəkildə şərh etməyi bacarmalıdır.

*Dərsin təchizatı* üçün orta məktəb dərsliyindən əlavə, Şah İsmayıl Xətainin əsərlərindən, şəkillərindən, şair haqqında yazılmış bədii əsərlərdən və əldə olan video-materiallardan da yararlanmaq mümkündür.

Təlim üsulu kimi müqayisə, diskussiya, müzakirə və sual-cavabdan istifadə edilə bilər:

*Dərsin forması* siniflə iş seçilə bilər.

*Dərsin tipi* yeni bilik verən dərs kimi səciyyələndirilir.

*İnteqrasiyadan* istifadə edərək tarix, coğrafiya, təsviri sənət və təbiət elmlərindən də istifadə səmərəlidir.

*Motivasiya* üçün "Kitabi-Dədə Qorqud"un X sinif üzrə ədəbiyyat müntəxabatında verilmiş məzmunundan istifadə etmək olar. Müəllim uşaqlara



Scanned with ACE Scanner

"Salur Qazanın evinin yağmalandığı boyu"ndan oğuz igidlərinin tərifini oxutdurur (2, 29-30). Sonra müəllimin köməyi ilə şagirdlər ayrı-ayrı oğuz igidlərinin tərifləri ilə Şah İsmayıl Xətainin hərbi-siyasi fəaliyyəti arasında paralellər tapmağa çalışırlar.

Yeri gəlmişkən deyək ki, metodik ədəbiyyatda müqayisə nəzəri metodlara daxil edilsə də, o daha çox praktik xarakter daşıyır. Professor H.Balıyev müqayisə haqqında yazır: " Obrazlı ifadə ilə desək, müqayisəsiz, qarşılaşdırılmasız dil dərsi susuz dəyirmanı xatırlatmasa da, suyu həddindən artıq azaldılmış, tam iş qüvvəsindən düşmüş dəyirmanı xatırladır. Biz ona görə susuz dəyirmana bənzətmədik ki, müqayisəsiz də dərs ola bilər, yəni dərs pozulmaz. Lakin elə dərslərdənsə, heç olmasa, yaxşıdır" (3, 151). Müqayisə priyomunun əsasının interferensiya qanunu təşkil etdiyini qeyd edən professor M.Həsənov isə, haqlı olaraq qeyd edir ki, "Biz hər hansı yeni məlumatı dinlədikdə ilk qazandığımız bilik və vərdişlərə müraciət edirik, özü də bunu bizdən asılı olmayaraq xatırlayırıq. Bu psixoloji, həm də təbii haldır" (4, 132).

"Şah İsmayıl Xətai" mövzusu üzrə tədqiqata başlamazdan əvvəl müəllim görkəmli dövlət xadiminin Azərbaycan siyasi-mədəni fikir tarixindəki mövqeyi haqqında, eləcə də, soy-kökü haqqında qısaca məlumat verir, daha sonra şairin həyatı və siyasi-hərbi fəaliyyətini hissə-hissə şagirdlərə təqdim edir:

1. Qızılbaşların Şəməsi döyüşündəki məğlubiyyəti, qızılbaş tərəfdarlarının İsmayılla İbrahimi Ərdəbildən çıxararaq düşmən əlinə verməyib xilas etmələri- Boyu uzun Burla xatunun qırx incəbelli qız tərəfindən xilas edilməsi, kafir əlinə verilməməsi ("Kafirə xəbər verdilər: "Birinə yapışdıq, qırx yerdən avaz gəldi. Bilmədik, hansıdır", - dedilər").

2. On üç yaşlı Şah İsmayılın 70 nəfərlik dəstə ilə Ərdəbilə yürüşü, yol boyu tərəfdarların onlara qoşulub 7 minlik ordu yaratması – Qazan xanın Qaraca Çobanla kafirin üstünə getməsi, Qalın oğuz bəylərinin köməyə çatması ("Saymaqla oğuz bəyləri tükənməz. Hamı yetişdi").

3. Şah İsmayılın Gülüstan qalası yaxınlığında Fərrux Yassarın qoşunlarını darmadağın etməsi..."Dərbənddəki dəmir qapını hücumla alan Qıyan Səlcuq oğlu Dəli Dondar", "Amildə Mardin qalasını vurub yıxan Qaragünə oğlu Qarabudaq", "Əlli yeddi qalanın açarını alan İlək Qoca oğlu Alp Ərən" və.s.

4. Amu Dəryadan Fərat çayına qədər uzanan Səfəvi dövləti- Oğuz dövlətinin əhatə dairəsi olan Dərbənd, Bərdə, Gəncə, Gürcüstan ağzı, Dərəşam, Sürməli, Göyçə, Əlincə, Qaracuq, Ağcaqala, Qaradağ, Aladağ, Qazlıq dağı və.s.

5. "Çaldıran döyüşü" – "İç Oğuz, Diş Oğuz asi olub – deyə Beyrəyin öldüyü boy".

6. Şah İsmayılın Osmanlı sərkərdəsi ilə təkbətək döyüşü və qılınc zərbəsi ilə onu yerə sərməsi – "Sağ tərəfdə Qara Tükən məliklə Qıyan Səlcuq oğlu Dəli Dondar qarşılaşdı. Sağ yanını qılınclayıb yerə saldı".

7. "Qılınc həmin qılıncdır ki, qol həmin qol deyil" – "Vuruşunda iti polad qılıncın gödəlməsin!".



Göstərilən müqayisələrdən sonra şagirdlər müəllimin dəqiqləşdirilməsi ilə öz aralarında diskussiya keçirir və təxminən bu suallara cavablar axtarırlar:

1. Şah İsmayıl Xətainin hərbi-siyasi fəaliyyəti ilə Oğuz igidlərinin qəhrəmanlıqları arasında hansı oxşarlıqlar var?

2. Bu qəhrəmanlıq eyni bir mənəviyyatın, eyni bir xalqın enerjisindən qaynaqlanırmı?

3. Şah İsmayıl Xətainin yaratdığı Səfəvi dövlətini qədim Oğuz dövlətinin varisi adlandırmaq olarmı?

4. Türkün dostu kimdir, düşməni kimdir?

Daha sonra sinifdə bu mövzuda **debat** keçirmək olar: *Sizcə xalq birliyini qoruyub saxlayarsa və öz müdrik rəhbəri ətrafında birləşərsə, onu məğlub etmək olarmı?*

Nəhayət, dərsin sonunda **inteqrasiyadan** istifadə yolu ilə tarixdə məşhur olan Səfəvi dövlətinin iqtisadiyyatı, tarixi və coğrafiyası haqqında məlumat əldə etməklə və bu məlumatı deyilənlərə əlavə etməklə böyük sənətkarın siyasi fəaliyyətini daha dərindən və sistemli şəkildə əhatə etmək olar. Bu barədə dərslikdə verilən məlumatdan da yetərincə faydalanmaq mümkündür: "*Bu dövlətin iqtisadi əsasını Azərbaycan vilayətləri, əhalinin etnik çoxluğunu Azərbaycan türkləri təşkil edirdilər. Onlar dövlətin siyasi həyatında rəhbər rol oynayırdılar. Hərbi komandanlıq, maliyyə idarələri, vilayətlərin idarə olunması, demək olar ki, bütün saray vəzifələri Azərbaycan əyanlarının əlində idi. Ordu da əsasən Azərbaycan tayfalarından təşkil olunurdu. Şahın sarayında, qoşun içərisində və qismən diplomatik yazışmada Azərbaycan türkcəsi işlədilirdi*" (Azərbaycan tarixi, B., 1994, s. 402-403) (5,76).

Hal-hazırda dünya təhsil sistemində *inteqrativ* təlimə önəm verildiyini qeyd edən və bunsuz tədrisin keyfiyyətinin yüksəldilməsinin mümkün olmadığını göstərən metodistlər inteqrasiyanın əvvəllər də işləndiyini unutmurlar. Bu, "fənlərarası əlaqə" adlandırılırdı. " Nəzərdən qaçırmaq olmaz ki, təlim materialları arasında elə mövzular var ki, digər elm sahələri ilə əlaqə yaratmadan, onun mahiyyətini dərindən mənimsəmək çətindir" (6, 11).

"Şah İsmayıl Xətai" mövzusu ilə bağlı ikinci dərs şairin lirik yaradıcılığına, onun qoşma, gəraylı və qəzəllərinin ideya-bədii xüsusiyyətlərinə həsr olunur. Müəllim sual-cavabdan istifadə edərək, Xətainin lirik yaradıcılığı haqqında həm yeni bilik verə bilər, həm də şagirdlərin klassik ədəbiyyatla bağlı biliklərini təkrar etdirər:

**Sual:** Xətai yaradıcılığa hansı sənətkarların təsiri ilə başlamışdır?

**Cavab:** Yunis İmrə, Qazi Bürhanəddin, İmadəddin Nəsimi, Nemətullah Kişvəri.

**Sual:** Xətainin divanı sələf və xələflərinin divanından nə ilə fərqlənir?

**Cavab:** Şair əsərlərinin bir qismini əruz vəznində, ikinci qismini isə heca vəznində yazmış və beləliklə, qoşma, gəraylı, varşağı və bayatı janrlarında da əsərlər yaratmışdır.

Müəllim sual-cavabları bu şəkildə davam etdirərək, Xətainin əsərlərinin şiə-qızılbaşlıq ideyalarını təbliğ etdiyini və bununla da ölkə əhalisini vahid bayraq və ideya ətrafında birləşdirmək istəyini, sufilik və bəzən hürufiliyi



Scanned with ACE Scanner

yaydığını şagirdlərə çatdırır. Şairin "Ənəlhəq sirri uş könlümdə qizli, Ki həqqi-mütləüqəm, həqq söylərəm mən" misralarına istinadən müəllim mövzulararası əlaqədən istifadə edərək onu Nəsimi ilə müqayisə edə bilər. Daha sonra şairin məhəbbət mövzusuna münasibəti və bu məhəbbətin ikili səciyyə daşımasını, onun təbiət gözəlliyini əks etdirən və bu gözəlliyi insan gözəlliyi ilə vəhdətdə təqdim edən əsərləri barədə məlumat verir. Bu zaman o, şagirdlərin əvvəlki siniflərdə əldə etdikləri biliklərdən də yararlanır, müzakirə üsulundan da istifadə edərək, şagirdləri fəallaşdırır. Bu müzakirələr şagirdlərin öz aralarında da təşkil edilə bilər. Təbiət mövzusunda yazılmış "Bahar oldu ki, aləm gülşən oldu" və "Mövsimi-qış getdi..." misraları ilə başlanan qəzəllərdən danışarkən yenə də inteqrasiyadan istifadə yolu ilə şagirdlərə bu təbiət təsvirini bacardıqları şəkildə vatman kağızlarda canlandırmağı və bir-birinə göstərməyi tapşırmaq olar. Rəngli kağızlardan istifadə yolu ilə də getmək olar, çəkilmiş lövhələr yapışqanlı kağızla lövhədə nümayiş etdirilə bilər. Daha sonra şagirdlər lövhə qarşısında bu qəzəllərdən parçaları tək-tək və ya qrup şəkilində-ifa etməlidirlər.

"Ayrılıq" rədifli qəzəlin məzmunu və təhlilinə həsr olunmuş dərsdə müəllim *beyin həmləsin*dən istifadə edərək, şagirdləri düşünməyə sövq edir və belə bir sualla sinifdə problemli situasiya yaratmağa çalışır : *"Klassik ədəbiyyatda geniş yayılmış nəzirə janrı haqqında nə bilirsiniz?"*

Şagirdlər interaktiv təlim metodlarından olan BİBÖ-dən istifadə yolu ilə nəyi bildiklərini və öyrəndiklərini nümayiş etdirirlər. Sonra qəzəlin məzmunu üzrə iş aparılır: Bu qəzəl məhəbbət mövzusundadır. Aşiq dərin bir həyəcanla müsəlmanlara – xalqa müraciət edərək sevgilinin ("yarı-pünhan"ın, "yarı-sərdar"ın, "şahi-sultan"ın, "yari-həmdəm"in) ondan ayrıldığını bəyan edir. Bu ayrılıq tək bir Aşiq və Məşuqun bir-birindən ayrılması deyil, iki dünyanın, iki aləmin bir-birindən qopub ayrılmasıdır. Şair dörd müraciət obyektinə üz tutaraq, öz hiss və həyəcanlarını bizə çatdırır, nəticədə isə Tanrıdan razılıq edir.

Qəzəlin forması və bədii xüsusiyyətləri üzrə işə başlamamışdan qabaq şagirdlər müqayisə yolu ilə bu əsərdə Nəsiminin eyni rədifli qəzəlinin mətlə misrasının eyni olduğunu göstərirlər: " Ey müsəlmanlar, bu gün ol yari-pünhan ayrılır". Sonra qəzəldəki bir çox qafiyə yaradan sözlərin ("pünhan", "can", "ümman") Nəsiminin qəzəli ilə eyni olduğu qeyd olunur. Müəllimin köməyi ilə belə bir **debat** keçirilir: Xətai Nəsiminin "Ayrılıq" rədifli qəzəlinin məzmun və formasından yetərincə faydalanmışsa, bunu orijinal əsər hesab etmək olarmı? Qəzəlin bəhri və ölçüsü üzərində iş aparılır, bədii təsvir vasitələri müəyyənləşdirilir.

"Şah İsmayıl Xətai" mövzusu ilə bağlı sonuncu dərs "Dəhnamə" məsnəvisi haqqındadır. Dərsə başlamazdan əvvəl müəllim hər hansı bir əsər üzərində iş aparmaq üçün onun məzmununa bələd olmağın vacibliyini vurğulamalıdır. Milli təhsil konsepsiyasına uyğun olaraq, X sinif şagirdi "məzmun xətləri üzrə əsas və alt standartlar"da göstərilən *"Mətni mənimsədiyini nümayiş etdirir"* bacarığına malik olmalıdır (bax: 7, 16). Məhz bu tələbdən çıxış edərək, müəllim "Dəhnamə" əsərinin ifadəli oxusunu təşkil etməli, çətin sözləri izah



edə-edə mətni şagirdlərə mənimsətməlidir, Nümunə üçün: " *Derlərdi bu eşq qissəsini, Dil zərrə yeməzdi qüssəsini*" – Bu misralardakı "qissə" sözü hekayə, əhvalat, "qüssə" sözü isə "qəm,qüssə" deməkdir, "dil" sözü isə "ürək" mənasındadır. Şair demək istəyir ki, bu eşq haqqında danışırdılar, amma mənim ürəyim eşqə düşməmişdi, eşq nə olduğunu bilməzdim.

"Dəhnamə" əsərinin elə beyt və misraları da var ki, bunların izahına qətiyyən ehtiyac duyulmur: " *Qış getdi,yenə bahar gəldi, Gül bitdi və laləzar gəldi* ; *"Dilbər yanıma gəlib oturmuş. Nazik dizinə başım götürmüş"* ; *"Ey sevgi nigar, sən qal imdi! Ey işləri yar, sən qal imdi!* " və.s. Sonra əsərin müntəxabatda olan qısa məzmunu mənimsədilir.

Əsərin təhlili zamanı şagirdlər məzmunla bağlı bəzi zəruri məlumatları da əldə edirlər ki, bunlar əsərdən verilən parçalarda öz əksini tapmamışdır: "Bahariyyə"dən əvvəl gələn rəsmi giriş-minacat, nət, meracnamə, onlardan sonra imam Əlinin və başqa imamların tərifi, şairin əsərin yazılması üçün vacib saydığı üç amil və s. təhlil zamanı əsərin mövzusu və ideyası haqqında məlumat verilir, məsnəvidə irəli sürülən əsas fikirlər **müzakirə** və **diskussiya** şəkilində irəli sürülür:

1. Həqiqi aşiqlər necə olmalıdır?
2. Sizcə, "Dəhnamə" qəhrəmanı həqiqi aşiqdirmi?
3. Buta haqqında nə bilirik?
4. Məşuqə Aşiqin məhəbbətinə layiqdirmi?
5. İlahi eşqə yetişməyin yolu haradan keçir?
6. Siz də pərilər, mələklər aləminə getmək istərdinizmi? (xəyali olaraq)

Əsərdəki əsas və köməkçi surətlər təhlil olunur, əsərin sujet xətti və kompozisiyası açıqlanır. Sonra kompozisiyada olan novator keyfiyyətlər sadalanır, "Bahariyyə" hissəsinə ayrıca diqqət yetirilir. "Dəhnamə"nin müvafiq yerlərində Aşiq və Məşuqənin dilindən qəzəllərin verilməsi xüsusi olaraq vurğulanır. Əsərin dil və üslub xüsusiyyətləri, eləcə də, vəzni və bəhri haqqında məlumat verilir.

Bütün dərslərin sonunda **nəticə** və **ümumiləşdirmə** aparılır:
*Dərs bizə hansı bilikləri verdi, nəyi bilirdim, nəyi öyrəndim, tarixdə şəxsiyyətlərin rolu nə cür qiymətləndirilməlidir, doğma Vətənimizin sərhədləri haradan harayacandır, dostumuz kimdir, düşmənimiz kim, bir əlində qılınc, bir əlində qələm tutan babalarımızın bizə irs qoyub getdiklərini necə qorumalıyıq?...*

**Yaradıcı tətbiqetmə:** *"Bu dağlar qoynunda aslan yatmışdır, Burda Koroğlular at oynatmışdır"* mövzusunda e s s e yazmaq.

**Qiymətləndirmə:** Şagirdlər konkret meyarlara uyğun olaraq qiymətləndirilir (tapşırığı icraetmə, əməkdaşlıq, müzakirə, diskussiyalarda və debatlarda iştirak, yaradıcılıq).



Scanned with ACE Scanner

Dərslərin bu şəkildə qurulması onu şagirdin tədqiqatçılıq meydanına çevirir, onlar bilikləri müstəqil şəkildə kəşf edir.

### ƏDƏBİYYAT


*1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ana dili fənni kurikulumu (V-XI siniflər). Layihələr. – "Azərbaycan dili və ədəbiyyatı tədrisi", Bakı, 2010, № 3.*

*2. N. Cəfərov, Z. Əsgərli, N. Nəcəfov, B. Həsənli. Ədəbiyyat (dərslik-müntəxəbat). Ümumtəhsil məktəblərinin 10-cu sinifi üçün. "Kövsər", Bakı, 2007.*

*3. H. Balıyev. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Dərslik. ADPU–nin nəşri. Bakı, 2003.*

*4. M.Həsənov. seçilmiş əsərləri. 3 cilddə. I cild. "Elm və təhsil", Bakı, 2010.*

*5. N.Cəfərov, T.Kərimli, Z.Əsgərli, A.Bakıxanova. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 10-cu sinifi üçün dərslik, "Çaşıoğlu", Bakı, 2005.*

*6. Ş.A.Mikayılov. A.M.Bəkirova, Ş.X.Əliyeva. Ədəbiyyat dərslərində inteqrasiyadan istifadə imkanları ( metodik vəsait). "Şirvannəşr", Bakı. 2006*

*7. Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə məzmun standartları – "Azərbaycan dili və ədəbiyyatı tədrisi", Bakı, 2012, № 2.*


### XÜLASƏ


*Məqalədə orta məktəbdə keçilən ədəbiyyat dərslərinin yeni təlim üsullarından istifadə yolu ilə tədris olunmasından danışılır. Nümunə olaraq, xarakterik bir mövzuya – Şah İsmayıl Xətainin həyat və yaradıcılığına müraciət olunur. Bu mövzunun öyrədilməsinin həm tədrisi, həm də mənəvi-əxlaqi aktuallığı əsaslandırılır, "tarixdə şəxsiyyətin rolu" qəhrəmanlıq salnamələrinin əsas motivi kimi ön plana çəkilir.*


### РЕЗЮМЕ


*В этой статье говорится об использовании новых методов обучения на уроках литературы в средних школах. Например, характерная тема адресована о жизни и деятельности Шаха Исмаила Хатаи. Обучение и преподавание этой темы – актуально выражает духовность и нравственность « Роль личности в истории» и выводит на первый план хронику героизма на основной мотив.*


### SUMMARY


*This article speaks about the use of new teachinq methods in literature in schools. Such a characteristic theme addressed the life and korkof Shah Ismail Khatai. Learninq and teachinqof this topic actually expresses spirituality and morality "the role of personality in history", and brings to the foreground chronicles of heroism as the main motive.*




# ŞAGİRDLƏRİN NİTQ MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA SİNİFDƏNXARİC OXUNUN ROLU


**Günel ƏSGƏROVA,**
**Naxçıvan Dövlət Universitetinin müəllimi**


Ana dilimiz mənəvi sərvətimizdir. Dilimizi dərindən bilmək, sevmək, qorumaq və inkişaf etdirmək hər bir azərbaycanlının müqəddəs borcudur. Məktəbdə gənc nəslin ana dilinə sevgi, hörmət ruhunda tərbiyə olunması və doğma dilimizin incəliklərinin onlara aşılanması vacib vəzifədir. Çünki ana dilimiz milli məfkurəmizin, milli-mənəvi dəyərlərimizin inkişaf etdirilməsini və gələcək nəslə çatdırılmasını təmin edən ən qüdrətli vasitədir.

Ana dilinə məhəbbət bəsləmək və onu mükəmməl bilməyin əsasında gözəl nitq mədəniyyətinə yiyələnmək dayanır. Şagirdlərin mədəni inkişafında, mədəni səviyyəsinin yüksəldilməsində nitq mədəniyyətinin rolu böyükdür.

Bu gün ölkəmizdə təhsil sistemində həyata keçirilən islahatlar şagirdlərin nitq mədəniyyətinin inkişaf etdirilməsini vacib tələblərdən biri kimi qarşıya qoyur.

Azərbaycan Respublikası Prezidenitinin 09 aprel 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nda başlıca vəzifələrindən biri kimi gənc nəslin ana dilinə sevgi və hörmət ruhunda tərbiyə edilməsi, onların nitq mədəniyyətinin inkişaf etdirilməsi olduğu göstərilir. Şagirdlərdə düzgün nitq mədəniyyəti formalaşdırmaq məhz orta məktəblərdən başlayaraq həyata keçirilməlidir.

Orta məktəbdə şagirdlərin yalnız orfoqrafiya və durğu işarələrini düzgün mənimsəmələri ilə kifayətlənmək olmaz. Bunlarla birlikdə məktəbin vəzifəsi şagirdlərə həm də düzgün şifahi və yazılı nitq bacarığı da qazandırmaqdan ibarətdir.

Məşhur pedaqoq alimlər və metodistlər bu məsələyə çox böyük əhəmiyyət vermiş və verirlər. Bu gün şagirdlərin ümumi mədəni səviyyəsinin daha çox yüksəldiyi bir zamanda, onların nitq mədəniyyətinə dərindən yiyələnmələri xüsusi əhəmiyyətə malikdir.

Müşahidə və təcrübələr göstərir ki, ümumiyyətlə, şagirdlərin müəyyən hissəsi az oxuyur və az yazır. Bu vəziyyət bəzi şagirdlərin ədəbi nitq cəhətcə zəif inkişaf etməsinə öz təsirini göstərir. Şagirdlərdə dilə maraq oyatmaq, savadlı danışıq vərdişləri aşılamaq, onların nitqini zənginləşdirmək, dil və nitqin ümumi inkişafına müsbət təsir göstərmək, bir sözlə, nitq mədəniyyətini inkişaf etdirmək müəllimin başlıca vəzifəsi olmalıdır. Müəllim ilk növbədə şagirdlərdə mütaliəyə meyl, kitaba maraq və məhəbbət hissi yaratmalıdır.

Şagirdlərin elmi və bədii təfəkkürünün inkişafı çətin, həm də uzun proses olduğu üçün onu yalnız dərslə məhdudlaşdırmaq olmaz. Biliyin verilməsini, əqli inkişafın təmin olunmasını mənəvi tələbatın ödənilməsini ancaq dərsliklərlə məhdudlaşdırmaq mümkün deyil. Dərslikdən kənara çıxmaq, biliyi zənginləşdirmək üçün əlavə kitablar oxunmasına daxili tələbat hissi yaratmaq tələb olunur.

Sinifdənxaric oxu sinif oxusunun davamı, onun inkişaf mənbəyidir. Sinif oxusu prosesində şagirdlərin əldə etdikləri məlumatlar sinifdənxaric oxunun köməyi



Scanned with ACE Scanner

ilə dolğunlaşır, tamamlanır. Şagirdlərin sinifdənxaric oxu prosesində əldə etdikləri informasiyalar hər hansı mətnin inteqrasiya şəraitində tədrisinə imkan yaradır.

Şagirdlərin nitq mədəniyyətini yüksəltmək, inkişaf etdirmək və zənginləşdirmək istiqamətində sinifdənxaric oxunun özünə məxsus əsaslı yeri vardır. Sinifdənxaric oxu şagirdlərin nitq mədəniyyətinə güclü təsir göstərməklə yanaşı, təlimə marağı da artırır.

Peşəkar müəllimin rəhbərliyi ilə müntəzəm, planlı, sistemli şəkildə aparılan sinifdənxaric oxu şagirdlərin qazandıqları biliklərin dərinləşməsinə, ümumi inkişafına və savadının artmasına səbəb olur.

Şagirdlərin istər yazılı, istərsə də şifahi nitqindəki qüsurların aradan qaldırılmasında sinifdənxaric oxunun özünəməxsus yeri vardır.

Sinifdənxaric oxunu düzgün təşkil etməklə şagirdlərin nitqində olan qüsurları aradan qaldırmaq və onların tələffüzünə, müstəqil düşüncəsinə, fikirlərini dolğun ifadə etməsinə, bir sözlə, zəngin nitq mədəniyyətinin formalaşdırılmasına nail olmaq mümkündür.

Sinifdənxaric oxu təlim, tərbiyə və inkişafetdirici təsirə malik olduğundan bir tərəfdən şagirdlərin nitqinin formalaşdırılmasına təsir edir, digər tərəfdən isə biliklərinin dərinləşməsinə, dünyagörüşlərinin artmasına kömək göstərir.

Müəllim sinifdənxaric oxu üçün material seçərkən aşağıdakı şərtlərə əməl etməlidir:

1. Sinifdənxaric oxu üçün , əsasən, bədii əsərlərə üstünlük verilməlidir;
2. Əsər seçərkən müxtəlif janrlar, nağıl, hekayə, təmsil və şeirlərin təqdim olunması nəzərdə tutulmalıdır;
3. Həm Azərbaycan, həm də xarici ölkə xalqları ədəbiyyatının nümunələri əhatə edilməlidir;
4. Sinifdənxaric oxu üçün seçilmiş mətnin həcmi çox böyük olmamalıdır;
5. Ədəbi parçalar şagirdlərin marağına, yaş və bilik səviyyəsinə, ətraf aləmlə tanışlığa uyğun olmalıdır;
6. Seçilmiş əsərin dili, quruluşu və bədii tərtibatı şagirdlərin hazırlıq səviyyəsinə uyğun olmalıdır və s.

Bu zaman şagirdlər klassik və müasir, o cümlədən, Azərbaycanın və xarici ölkələrin yazıçılarının həyatı, yaradıcılığı, əsərləri , xalqımızın tarixi abidələri, görkəmli şəxsiyyətləri, dövlət xadimləri, hərbi sərkərdələri və s. haqqında biliklər qazanırlar.

Şagirdlərin təfəkkür fəallığının və nitqinin inkişafında, estetik hisslərin aşılanmasında, düzgün, ifadəli, intonasiyalı oxu vərdişlərinə yiyələnməsində, elmi dünyagörüşünün genişlənməsində, söz ehtiyatının zənginləşməsində sinifdənxaric oxu mühüm rol oynayır. Sinifdənxaric oxunun təşkil edilməsi şagirdlərdə kitab oxumağa marağı artırır, mənəvi zövqünü tərbiyə edir, əqli, iradi, hissi inkişaflarını sürətləndirir.

Sinifdənxaric oxu şagirdlərdə kitaba məhəbbət və daxili ehtiyac hissi oyadır, müntəzəm oxuya adət tərbiyə edir. Onların dünyagörüşünü, əsl azərbaycanlıya xas olan yüksək mənəvi və əxlaqi keyfiyyətlərini, bədii zövqünü, təfəkkrünü, nitqini inkişaf etdirir, ümumi mədəni səviyyəsini yüksəldir, söz ehtiyatını və biliyini artırır, təlimdə uğurlu müvəffəqiyyət qazanmalarını təmin edir.



# İNNOVATİV METODLARIN TƏTBİQİ ZAMANI QRUP İŞLƏRİNİN TƏŞKİLİ

**Fəridə ƏZİZOVA,**
**Azərbaycan Dillər Universitetinin magistri**

***Açar sözlər:*** *müasir təlim, metodlar, qrup işi, məqsədlər, vəzifələr, prinsiplər, qiymətləndirmə.*

Müasir dövrdə bütün sahələrdə olduğu kimi, təhsil sistemində də geniş miqyaslı islahatlar aparılır. İnnovasiya təhsilə yenilik gətirir, təlim prosesinin təkmilləşdirilməsinə xidmət edir. Təlim prosesinin qarşısında duran əsas məqsəd müstəqil və yaradıcı düşüncə tərzinə malik, gələcəkdə doğma vətənimizi inkişaf etdirə bilən, müstəqilliyimizi qoruyub saxlayan, onun elmi, iqtisadi, hərbi, mədəni potensialını qüdrətləndirən, tədris fənlərini dərindən mənimsəyən və onu tətbiq etməyi bacaran təşəbbüskar şəxsiyyətlər yetişdirməkdən ibarətdir. Tədrisdə innovativ metodların tətbiqi bu istiqamətdə atılmış önəmli addımdır. İnnovativ metodlar, interaktiv təlim idraki və kommunikativ fəaliyyətin elə bir formasıdır ki, tədris olunan mövzunun mənimsənilməsinə proses iştirakçılarının hər biri oz töhfəsini verir. İnnovativ metodlarla qurulmuş dərsin əsas üstünlüyü real idrak motivasiyasını (biliklərə yiyələnmək həvəsinin) yaratmasıdır. Fəal təlimdə motivasiya mərhələsindən sonra irəli sürülən fərziyyələri təsdiq və ya təkzib edən faktları tapmaq üçün tədqiqat işi mərhələsinə başlanır. Bu prosesdə müəllim təşkiledici, əlaqələndirici, istiqamətverici; tələbələr isə təcrübəçi, tədqiqatçı, yaradıcı subyektlər kimi fəaliyyət göstərirlər. Müəllim tətqiqatı müxtəlif formalarda: 1) bütün siniflə birgə; 2) kiçik qruplarda; 3) cütlüklər şəklində; 4) fərdi şəkildə apara bilər. Lakin innovativ metodlar qruplar şəklində aparılan tədqiqatlar zamanı daha qabarıq formada təzahür edir.

**Qrup şəklində iş** bir neçə tələbənin (3-6 nəfərdən ibarət) problemin həllinə yönəldilmiş birgə, uzlaşdırılmış fəaliyyətidir. Qrup şəklində iş bilavasitə öyrənən-öyrədən arasında əməkdaşlığı inkişaf etdirərək, müəllim-sinif nitqinin müddətini məhdudlaşdırır. Problemin həlli zərurəti müxtəlif fərziyyə və baxışların nəzərdən keçirilməsini və ən optimal üsulun tapılmasını tələb edir. Qrup işi zamanı əməkdaşlıq və dialoji prinsiplər təlim mühitini daha əlverişli, fəallaşdırıcı və ruhlandırıcı edir. Əməkdaşlıq ilk növbədə təlim prosesinin kollegial və dinamik keçməsində öz əksini tapır. Öyrənən öyrədənlə bərabərhüquqlu şəxs kimi çıxış edir və bu onun fəaliyyətində yeni bir keyfiyyət yaradır. Özünə inamı artırır, öz fikirini çatdırmağa çəkinmir, potensial imkanlarını gerçəkləşdirir. Məsələlərin birgə həlli gedişində özünün və qrup üzvlərinin fikirlərini, imkanlarını və təcrübələrini bölüşə bilmək, bundan qarşılıqlı faydalanmaq məqsədi ilə hər bir tələbənin müzakirələrdə və qrupun işində iştirakı təmin edilməlidir. Təlim prosesində bütün tələbələrin müxtəlif nöqteyi-nəzərlərini diqqətə almaqla dialoji təlim fikir müxtəlifliyinə,



Scanned with ACE Scanner

tədrisin məzmununu daha da zənginləşdirməyə imkan yaradır, nəticəçıxarma prosesinə müsbət təsir edir. Qrup işinin gedişində tələbələrin birgə fəaliyyəti nəinki əməkdaşlıq və müxtəlif problemləri bir yerdə həll etməyi öyrədir, həm də idraki prosesləri cəlb edir, hər bir tələbəyə öz fikirlərini söyləmək və başqalarını dinləmək imkanı verir, ona problemin həllində müxtəlif baxışların, yanaşma və metodların mövcudluğunu göstərir, öz imkanlarını və qrupun digər üzvlərinin imkanlarını dərk etməsi qiymətləndirməsi üçün əlverşli şərait yaradır. Bu da hər bir tələbənin təlim prosesində öz bacarığını nümayiş etdirməsi, özünü tam dəyərli şəxsiyyət kimi dərk etməsi, problemin həlli üçün vacib olan fərdin və qrupun qarşılıqlı surətdə bir-birini tamamlaması hər bir tələbənin müstəqil şəxsiyyət kimi inkişafını təmin edir.Qrupda iş eyni zamanda biliyi sərbəst əldə etmək bacarıqlarının inkişaf etməsi üçün şərait yaradır.

Müzakirələrin təşkili və səmərəli şəkildə həyata keçirilməsi heç də asanlıqla olmur. Bəzi müəllimlər tələbələrin vəzifələrinin bir yerə toplaşaraq öz ideya və düşüncələrini ifadə etmək məqsədi ilə onlara verilən müxtəlif sualları cavablandırmaqdan, müəllimin vəzifəsinin isə yalnız müzakirələrə nəzarətdən ibarət olduğunu hesab edirlər. Lakin müəllimin vaxtaşırı olaraq bu müzakirələrə qoşulub daha dərin, məqsədyönlü düşüncə və fikirlər irəli sürərək istənilən müzakirəni genişləndirməsi olduqca vacibdir. Müəllimin əsas vəzifələrindən biri ayrı-ayrı fərdləri mürəkkəb problemlərə yaradıcı həll yolları taparaq ümumi bir qərara gəlməyi öyrətmək olacaq. Tələbələrə dinləməyi öyrətməklə yanaşı əlbəttə, müəllimin özü də dinləməyi bacarmalı, onların fikirlərini ciddi qəbul edərək bu fikirlərə hörmətlə yanaşdığını göstərməli, şagirdlərini öz arqumentlərini təsdiq etmək və verilən sualları cavablandırmağa yönəltməklə düşüncələrini aydınlaşdırmağa yönəltməlidir. Müzakirəyə çıxarılan sualların müəllim tərəfindən birbaşa cavablandırılması da yanlış addımdır. Bu suallara cavab tapmaq üçün onlara vaxt verməк, aydın olmayan sualları başqa bir şəkildə izah edərək istiqamətləndirmək vacibdir. Bundan başqa, müəllimin qrup işinin məqsədlərini, plan və müddətini müəyyən etməli; qrup işi üçün zəruri materiallar (tapşırıqlar, iş vərəqləri) hazırlamalı; qruplara bölmə üsulunu dərsin məqsədlərinə uyğun olaraq öncədən müəyyən etməlidir. Müəllim qruplara bölmək əsaslarını da bilməlidir. Qruplara bölünməyi tələbələrin ixtiyarına verdikdə, bu qruplar, adətən, dost və həmkarlardan ibarət olur. Bu da, tələbələrin qrupun digər nümayəndələri ilə qarşılıqlı fəaliyyət təcrübəsini əldə etmək imkanı yaratmır. Tələbələri kiçik qruplara bölməyin müxtəlif yolları var: saymaqla - onlardan 1-dən 5-ə kimi saymaq xahiş olunur və eyni rəqəmli iştirakçılar bir qrupda birləşdirilir; püşk atma – müəllim şagirdlərin adlarını kiçik vərəqlərə yazır, qatlayır, zərfə yerləşdirir, qarışdırır və zərfdən çıxararaq tələbələrin sayına görə masaların üstünə qoyur. Kağızlar açılır və adlar oxunur. Həmin qayda ilə zərfdən rəngli vərəqlər də çıxarıla bilər. Rənglərin sayı və hər rəngdən olan vərəqlərin sayı qrupların sayına və kiçik qrupun nümayəndələrinin sayına görə planlaşdırılır. Mozaika – 4 ədəd ayrı-ayrı rəngli şəkillər bir neçə hissəyə bölünür. Şəkillərin sayı və hissələr qrupların sayına və kiçik qrupun



nümayəndələrinin sayına görə planlaşdırılır. Bütün hissələr qarışdırılaraq bir yerə qoyulur. Bundan sonra hər iştirakçı şəklin bir hissəsini çıxarır. Bir şəklin hissələrini çıxardan iştirakçılar bir qrupda birləşirlər. Sosiometrik metod – qrupların sayına görə bir neçə iştirakçı çağrılır. Hər iştirakçı özünə bir nəfər qrup yoldaşı seçir. Hər təzə çıxan iştirakçı öz qrupuna bir nəfər seçir. Tələbələr isə tapşırıqları fəal şəkildə yerinə yetirməklə yanaşı, vaxtdan səmərəli istifadə etmək; qrup üzvlərinin vəzifələrini düzgün bölmək; qrup liderini düzgün müəyyən etmək; bir-birilərini dinləmək və kömək etmək; birgə işləmək; əməkdaşlıq etmək; bir-birlərinə dəstək vermək; ideyalara hörmətlə yanaşmaq; öz fikirlərini, ideyalarını faktlarla təsdiq etmək; zərərli tənqidə yol verməmək; münaqişəsiz rəqabət aparmaq; problemin həlli zamanı kompromis yollar axtarmaq; kənar söhbətlərə yol verməmək; mövzu üzrə danışmaq; iş zamanı səs salmamaq, intizama riayət etmək.

Müzakirəyə təqdim olunan mövzunun da tələbənin maraq dairəsində olması vacibdir. Çünki hər hansı bir problemin yaradıcı və səmərəli həllinə nail olmaq üçün tələbələr bu prosesə maraq göstərməlidirlər. Bu məqsədlə birdən daha çox düzgün cavab tələb edən mövzular seçilməli və eyni zamanda tələbələri bir-birlərini dinləməyə dəvət edərək onlarda bu vərdişləri aşılamaq lazımdır. Tədqiqat işinin təşkili üçün iş vərəqləri mühüm vasitələrdir. İş vərəqlərini tərtib edərkən müəllim bir sıra xüsusiyyətləri nəzərə almalıdır: 1) sualların növü, mürəkkəblik səviyyəsi, tərtib qaydaları, həcmi nəzərə alınmalı; 2) tapşırıqların məzmunu dərsin məqsədlərinə və tələbələrin inkişaf səviyyəsinə uyğun olmalı; 3) qoyulmuş məqsəd və sual konkret və aydın olmalı; 4) məzmun və tərtibat cəlbedici olmalıdır. İş vərəqinin tapşırıqları dərsin mövzusuna və məzmununa uyğun olduqda formalaşdırılmalı olan bilik, bacarıq və vərdişləri əks etdirir; məntiqi, tənqidi təfəkkürü, yaradıcılıq qabiliyyətlərini, müstəqil işləmək və elmi-tədqiqat bacarıqlarını inkişafa istiqamətləndirir. Tapşırıqlar şagirdin bilik səviyyəsinə, intellektinə, bacarıq və maraqlarına uyğun olmalıdır. Dövlətçilik ənənələrinə, milli dəyərlərə əsaslanmalıdır. Müəllim zəruri informasiya mənbələrini təqdim etməli, yönəldici suallardan istifadə etməli, tələbələri psixoloji cəhətdən dəstəkləməlidir.

İnnovativ metodlarla qurulmuş dərs prosesində müəllimləri daha çox maraqlandıran məsələlərdən biri də qrup işinin qiymətləndirilməsidir. Təbii ki, qrup işinin qiymətləndirilməsi ənənəvi qiymətləndirilmədən fərqli olacaq. Qiymətləndirmə meyar əsasında və müxtəlif vasitələr (qrafik, cədvəl, simvol) söz və üsullarla (müəllim tərəfindən, tələbələrin qarşılıqlı qiymətləndirilməsi, qruplararası qiymətləndirmə) keçirilə bilər.

**1) Qrafik.** Lövhədə qrafik çəkilir, şkalalar, qiymətlər və qrupların nömrələri əks etdirilir. Qrupun nailiyyətlərindən asılı olaraq qrafikdəki xətt ya qalxa , ya da enə bilər.

**2) Meyar cədvəli.** Cədvəlin sətirlərində qrupların nömrələri və sütunlarında qiymətləndirmə meyarları qeyd edilir. Qiymətləndirmə zamanı müəllim hər qrupun qarşısında meyara müvafiq olaraq müsbət və ya mənfi



Scanned with ACE Scanner

işarələri ilə və ya balla qrupun nailiyyətləri qeyd edir. Yekunda ümumi bal hesablanır.

**3) Qrupdaxili qiymətləndirmə.** Qrupun hər bir nümayəndəsinə qrup tələbələrinin adları və qiymətləndirmə meyarları qeyd edilmiş cədvəl paylanır. Hər nümayəndə həm özünü, həm də yoldaşlarını meyarlar əsasında müsbət və ya mənfi işarələri ilə və ya rəqəmlərlə qiymətləndirir. Meyarlar tapşırığın tam və uyğun yerinə yetirilməsi, bir-birini dinləmə, əməkdaşlıq, işin vaxtında yerinə yetirilməsi xüsusiyyətlərini nəzərə almaqla qruplaşdırılır. Qiymətləndirmə zamanı əməkdaşlıq prinsipi müəllimdən tələb edir ki, daha çox dəstəkləyici qiymətlərdən istifadə etsin.

Beləliklə, yaxşı təşkil olunmuş müzakirələr tələbələrə dərs prosesində müxtəlif mövzularla tanış olub, onları mənimsəmək, təklif olunan problemin həllinə öz fikir və düşüncələrini ifadə etməklə yanaşı, həmsöhbətlərinin də nöqteyi-nəzərlərinə həssaslıqla yanaşmağı öyrətməyə xidmət edir. Həm müəllim, həm də tələbələr üçün innovativ metodlar yaradıcı və maraqlı üsullarla dərs imkanları yaradır və əlbəttə ki, tələbələrə cəmiyyətə inteqrasiya edərək, onun fəal üzvlərinə çevrilməsinə kömək edir.

### *ƏDƏBİYYAT*


1. *A. Paşayev, E. Cəfərova, "Azərbaycan dili və ədəbiyyat dərslərində interaktiv təlim metodlarının tətbiqi imkanları". Bakı, 2005.*
2. *F. Bünyadova, Bəhlul Abdulla, "Təlim və tərbiyədə interaktiv texnologiya" Bakı, 2000.*
3. *S.A. Zamanlı, "Təlimdə yeni metodlardan istifadə". Bakı, 2001.*
4. *X. Qədimov "İnteraktiv təlim metodları və onların tətbiqi yolları". Bakı, 2003.*
5. *Z.Veysova "Fəal/interaktiv təlim. Müəllimlər üçün vəsait". Bakı, 2007.*



### *РЕЗЮМЕ*

*В статье говорится о новых методах. Автор подробно описывает каждый из этих принципов методологии и преподавания. В проводившихся в Азербайджане реформах образования особое место уделяется критериям оценивания, так как оценивание считается глобальной проблемой в связи с новым отношениям к знаниям, умениям и способностьям. Статья полезна в работе исследователей и учителей-практиков.*

### *SUMMARY*

*In article is spoken about the new method. The Author details each of these principle of the methodologies and teaching. In this article special attention is paid to the evaluation factors, educational reforms mental abilities and skills of children in Azerbaijan, because the evaluation is one of the global problems of education. The article is useful in the work researchers and teachers – practitioners.*




# KLASSİK ƏDƏBİYYATDA İŞLƏNƏN RƏMZLƏR VƏ DİGƏR İNCƏLİKLƏR BARƏDƏ


**Əsmər BƏDƏLOVA,**
**AMİ-nin dosenti**


Klassik ədəbiyyat misli–bərabəri olmayan sərvətdir. Ona görə yox ki, ustadlar yadigarıdır, sözlər, ifadələr, bütünlükdə fikir şahanədir, estetikdir. Həm də ona görə ki, zəngin elm, tarix, bilik mənbəyidir; üstündən zaman adladıqca dəyəri daha da artır.

Təəssüf ki, Azərbaycan dili və ədəbiyyat müəllimi ixtisası verən fakültələrdə uzun onilliklərdir fars dili öyrədilmir. Məsnəvilərdə, qəsidə və qəzəllərdə şəxs adları çəkilir, rəmzlər işlədilir ki, bəzən izah olunmur, yaxud lüğətlərdə verilən şərhlər qənaətbəxş deyil.

Təcrübədən nümunə olaraq deyim ki, kurslarda dərs zamanı ixtisasını sevən, daha da artırmaq və mükəmməl tədris etmək istəyən bir nəfər gənc müəllim bir neçə sual verdi və danışdı ki, M.P.Vaqifin "Görmədim" müxəmməsinin yeddinci bəndindəki *daneyi –xərmöhrə* ifadəsini lüğətdə yazıldığı kimi, *at, eşşək palanına tikilən rəngarəng iri muncuqlardan hər biri* (bax: Ərəb və fars sözləri lüğəti. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1967. səh.694) kimi izah edib. Amma etirazla qarşılanıb; minik atının belinə palan deyil, yəhər qoyulduğunu, yük atı və eşşək palanını bəzəməyin isə məntiqə uyğun olmadığını arqument gətiriblər.

Misranı izah etdim, həm də söz verdim ki, ona və həmyaşıdlarına kömək olsun deyə problemlə bağlı mətbuatda çıxış edəcəyəm. Beləlіklə, əvvəlcə *rəmzlərdən* başlayaq.

***Ayaz – sirr saxlamaq rəmzidir.*** Qəznəvilər sülaləsinin banisi, 997-ci ildən 1030 –cu ilə qədər hökmranlıq etmiş, Şərqi İranı, Türküstanı və Hindistanın çox hissəsini zəbt edərək böyük dövlət yaratmış Sultan Mahmud Qəznəvinin vəziri olub. Sirr saxlamaqda dövrani –məşhur imiş.

***Hatəmi –Tai –səxavət rəmzidir.*** VI –VII əsrlərdə Tai adlı ərəb qəbiləsinin başçısı, həm də şair olmuşdur. Dövrünün ən saxavətli və qonaqpərvər adamı imiş. Rəvayətə görə, ən yaxşı atları bəyənən, belə atlara süvar olmaqdan zövq alan bir hörmətli şəxs eşidir ki, Tai qəbiləsində Hatəm ibn Abdulla ibn Sədin tərifəlayiq bir atı var; heç kimin öz yaxşı atını əlindən verməyəcəyini bilsə də, Hatəmin səxavətinə arxayın olaraq ürəyində niyyət tutub gedir.

Hatəm onu qəbul edir, gözəl süfrə açır, məclis qurur. Axırda qonaq at üçün gəldiyini deyir. Hatəm qonağın gəlişinin səbəbini əvvəlcədən deməməsinə təəssüflənir; həmin atı onun şərəfinə qurduğu məclis üçün kəsdiyini söyləyir.

***Şəddad –qəddarlıq və zalımlıq rəmzidir.*** Qədim Yəməndə Həmirilər sülaləsindən olan bir padşahdır ki, qəddarlıq və zalımlıqda ad çıxarıbmış.



Scanned with ACE Scanner

***Cəmşid (Cəm) –eyş-işrət rəmzidir.*** İranda hökmdarlıq etmiş Pişdadıyan sülaləsinin dördüncü hökmdarı sayılan əfsanəvi şəxsiyyətdir. Rəvayətə görə, şərabı o icad edib; Novruz bayramı da, guya, Cəmşiddən qalıb. Onun baxanda dünyadakı hadisələri göstərən sehrli qədəhi şairlərin əsərlərində *Cami –Cəm* adı ilə məşhurdur.

***Zöhhak –zülmkarlıq rəmzidir.*** Qədim İran tarixində əfsanəvi hökmdardır. Rəvayətə görə, ərəb əsillidir. İblis onun hər çiynində bir ilan bitiribmiş və bu ilanlara hər gün iki cavanın beyni pötrlənib yedirdilirmiş.

***Gavə - intiqam rəmzidir.*** Qədim İran tarixində əfsanəvi dəmirçidir və *Gaveyi -Ahəngər* (Dəmirçi-Gavə) adı ilə tanınıb. O, dəri döşlüyünü nizəyə keçirib bayraq kimi qaldıraraq xalq üsyanına başçılıq etmiş, İranı istila edən, cavanların beynini ilanlarına yedirən zülmkar Zöhhakı taxtdan salmışdır. Klassik ədəbiyyatda və müasir İran əhlinin dilində işlənən *Gaviyani -ələm* ifadəsi Gavənin bayrağı deməkdir; qurtuluş rəmzi kimi məşhur olub, iranlılar tərəfindən müqəddəs sayılır.

***Qarun –xəsislik rəmzidir.*** Musa Peyğəmbərin zamanında yaşamış, saysız var –dövlət sahibi olmuşdur. Xəzinəsinin açarlarını bir neçə adam güclə götürürmüş. Bu qədər dövlətinə baxmayaraq xəsislikdə ad çıxarıbmış. Musa Peyğəmbərə şər atdığı üçün Allahın qəzəbinə tuş gəlmiş, var –dövləti ilə birlikdə yerin təkinə keçmişdir.

***Nuşirəvan (Ənuşirəvan, Nuşirəvan -Adil) -ədalətli şah rəmzidir.*** Onu N. Gəncəvinin "Sirlər xəzinəsi"ndən tanıyırıq; İranın Sasanilər sülaləsinin iyirminci şahıdır. Erkən gəncliyində eyş –işrətlə məşğul olsa da, sonradan ədalətli hökmdar kimi tanınıb. Ölkəsində bolluq, abadlıq, firavanlıq hökm sürüb və xalq ona Nuşirəvan Adil (ədalətli) adı verib. O vaxtdan arın – arxayın, əminamanlıq, bolluq və rahatlıq şəraitində keçən həyat tərzini dəyərləndirərək belə demişlər: *Nuşirəvan dövründəki kimi, Nuşirəvan dövrüdür ... və s.*

***Key Qubad -anlamamaq rəmzidir.*** Nuşirəvan Adilin atasıdır. İran tarixində Kəyan sülaləsinin qüdrətli hökmdarı hesab olunur. *Key* farsca *hökmdar* deməkdir. Qubad şahın dövründə Məzdək adlı kahin özünün peyğəmbər olduğunu elan etmiş və şahı inandırmışdır. Nuşirəvan Məzdəkin yalan danışdığını başa düşmüş və böyük çətinliklə sübut etmişdir.

Bu əhvalat bir müddət yaddaşlarda qalıb və məsəl kimi işlənib. Lakin tədriclə söz elementinə çevrilib; sadə fikirləri belə başa düşməyən adama *key*, yaxud *key Qubad* deyiblər.

***Loğman –müdrik, qüdrətli təbib rəmzidir.*** Qurani –Kərimin 31 –ci surəsi onun adı ilə bağlıdır.

***Yusif –kişi gözəlliyinin rəmzidir.*** Yəqub Peyğmbərin oğludur, Misir hökmdarı olub.

***Yəqub –həsrət, fəraq rəmzidir.*** Yusif Peyğəmbərin atasıdır. Qardaşları Yusifi quyuya salıb, qanlı köynəyini ona gətirdikdən sonra Yəqub Peyğəmbərin Yusifdən ötrü həsrətlə, fəraqla ağlamaqdan gözləri tutulur.

***Beytül həzən –hüzn evi.*** Yəqub Peyğəmbərin daim oturub Yusifdən ötrü ağladığı ev.



***Davud –Ən gözəl səs, avaz (ləhni -Davud) rəmzidir.*** Yəhudi peyğəmbəri, həm də hökmdarı olub. İlahi hökmlə ona endirilmiş "Zəbur"dan nəğmələr oxuyar, Uca Yaradanı vəsf edərmiş; bu zaman səsinə quşlar da səs verərmiş. Səhər ibadətində isə dağlar da onunla bərabər oxuyarmış.

***Süleyman*** -Davud Peyğəmbərin oğlu, həm də hökmdar olub. Yaradanın mərhəməti ilə Süleyman peyğəmbərə qəribə elmlərin bir çox sirri açılmışdı: cücü və quşların dilini bilirdi. Küləyin gücü ona tabe edilmişdi ki, əkinçilikdə və həyatın başqa sahələrində istifadə etsin. Mis mədənləri və misəritmənin sirri onun ixtiyarında idi ki, böyük binaların tikintisində istifadə etsin. Cinlər və ruhlar ona tabe idi. Billurdan sarayı vardı və uzun ömür sürmüşdü.

Nəticə nə oldu? Hamı kimi o da vəfat etdi.

Ona görə də dünya malının son məqamda gərəksizliyini nəzərdə tutub deyirlər: *Süleymana qalmayan dünya kimə qalacaq?*

***Asəf –ağıllılıq, elmlilik rəmzi.*** Həm də hökmdar olan Sdüleyman Peyğəmbərin birinci vəziri olub. Çox ağıllı, tədbirli, dövləti idarəetmədə, həmçinin musiqişünaslıqda, nəğmələr yaratmaqda mahir imiş. Sonralar ağıllı və alim adamlara *Asəfi –zəmanə, Asəfi dövran* ləqəbi vermişlər.

***Xızır (El dili ilə: Xıdır Nəbi, Xıdır İlyas) –xilaskar.*** Mənbələrə görə, yaşıl geyinmiş əsrarəngiz və qeyri –rəsmi peyğəmbərdir. Zülmətdə yerləşən Dirilik suyunu tapıb, ondan içmişdir; gözəgörünməz şəkildə əbədi yaşayır. Biyabanda azmışların, tufana qərq olmuşların, ana olmaq məqamında həyatını itirmək təhlükəsi ilə üzləşənlərin harayına çatır, onları xilas edir.

***Abi –həyat (Abi –heyvan)–*** zülmətdə olan və içənə ədədiyaşarlıq bəxş edən Dirilik suyu.

***Zülmət*** –Abi –həyatın (Dirilik suyu) olduğu söylənən ***naməlum yer.***

***Hüma quşu –dövlət və səadət quşudur.*** Nağıl və əfsanələrdə deyildiyinə görə, kimin başının üstündən uçub kölgə salsa, o adam şah olur. Hansı evin üstündə qanad çalsa, o evə xoşbəxtlik gəlir. Sümüklə qidalanır.

***Müşk -ən gözəl ətir rəmzidir.*** Xətayi –Xütən ölkəsində (Çində Tibet vilayəti) yeni doğulan ahuların quruyub düşmüş göbəyindəki (nafədəki) bir damla qandır.

***Ənbər –gözəl ətir rəmzidir.*** Balinaya bənzəyən və Hind okeanı sahillərinə yaxın yerlərdə yaşayan *əbir* (kaşalot) adlı dəniz heyvanının qarnında olan ətirli maddədir. Ətrini itirməsin deyə ənbəri xalıs ipəyə büküb saxlayırlarmış. Bəzi mənbələrə görə, ənbər ətri verən bikkilər də var.

***Rüstəmi –Zal -güc, qüvvət rəmzidir.*** Hünər və şücaəti Ə.Firdovsinin "Şahnamə"sində təsvir olunmuşdur.

***Əhli –Kufə -etibarsızlıq və namərdlik rəmzidir.*** İmam Əli Həzrətlərinin həlakından sonra Kufə şəhərinin camaatı İmam Həsəni Xəlifə seçib, amma səhəri gün etibarsızlıq edərək Müaviyəyə səs verib. Kərbəla müsibətindən azacıq öncə baş vermiş bu hadisə tarixdə pis nümunə kimi qalıb.

***Künyə*** -şəxsin təxəllüs götürdüyü adın əvvəlinə *əbu, ibn,* yaxud *ümm* sözünü əlavə etməsidir. ***İbn atanın, ümm ananın, əbu –övladın*** adının təxəllüs olduğunu bildirir və bu, *künyə* adlanır (İbn Sina, Ümm Gülsüm, Əbu



Scanned with ACE Scanner

Əli). Bir adın əvvəlində bir neçə ibn varsa, bu həm də şəcərə bildirir. (Əli ibn Nasir ibn Harun İbn Əbülqasim).

*Nisbə* -Şəxsin yer adını özünə təxəllüs götürməsidir (Xaqani Şirvani, Qətran Təbrizi). Qeyd edək ki, eyni adın həm künyəsi, həm də nisbəsi ola bilir (Əbu Məhəmməd Nizami İlyas ibn Yüsif İbn Müəyyəd Gəncəvi).

***Qəran –min il deməkdir.*** Məsələn, ikinci qəran, yəni ikinci minillik.

***Çətən*** – hündürlüyü 1,7 -2 metr, uzunluğu lazımi qədər olan, təmizlənmiş qamış çubuqlarının dikinə vəziyyətdə bir -birinə möhkəm bağlanması üsulu ilə hazırlanmış məişət əşyası. Köç həyatında sürünənlər girə bilməsin deyə bayır tərəfdən alaçığı bürüyər, torpağa yaxın hissəsini yeri qazıyaraq 1-2 qarış dərinlikdə möhkəm bastırırlarmış. Güman ki, indi də var.

Dilimizdə işlənən *bir çətən külfət* ifadəsi də oradan gəlir.

M.P. Vaqifin ***"Görmədim"*** müxəmməsinin yeddinci bəndinə gəlincə,
belədir:

*Mən özüm çox kuzəkarı kimyagər eylədim,*
*Sikkələndirdim qubari –tirəni zər eylədim,*
*Qara daşı döndərib yaquti -əhmər eylədim,*
***Daneyi xərmöhrəni dürrə bərabər eylədim,***
*Qədir –qiymət istədim, qeyr əz xəsarət görmədim.*

Şair, layiq olmayanlara hədsiz yüksək qiymət verməsindən, onların isə bu qiyməti nəinki doğrultmadığını, qədr –qiymət bilmədiyini, əksinə, müqabilində yamanlıq etdiklərini deyir.

Hörmətli gənc müəllimimizi axtarışa sövq etmiş dördüncü misraya gəlincə, Şərqə məxsus qədim ləl-cəvahirat kataloqunda sonuncu cavahir *daneyi xərmöhrədir.* Leksik quruluşuna görə, söz üç hissədən ibarətdir: danə (dənə), xər (uzunqulaq), möhrə (yumru). Yəni *uzunqulağın möhrə dənələri.* Bu, nədir?

Xüsusi cinsli uzunqulaqların boynunda əmələ gələn çox nadir dənələrdir ki, ondan tarixən cavahirat kimi istifadə olunmuşdur. Güman ki, rəngi ağ imiş, çünki şair onu dürrə bərabər tutduğunu deyir. Amma yarandığı yer nə əsl dürr kimi dərin dəryalar, nə də digər ləl –cavahir mədənləri, torpağın altı deyil, uzunqulaq adlı heyvanın canıdır. Bu da qeyri –kamil irsiyyətdən xəbər verir, amma əsilzadələr yanındadır.

Mən orta məktəbdə oxuyarkən müəllimim misranı izah edəndə deyirdi ki, çox ola bilsin, Molla Pənah sözün ünvanını ikrahla çirkaba endirərək uzunqulağın peyinini nəzərdə tutub; çünki o da möhrəvi dənələrdən ibarətdir. *Dürrə bərabər tutulmuş peyin!*

Güman edirəm ki, müəllimim düz deyib.

Belə... Yəqin ki, hər şey aydın oldu.

İstedadlı, daim öz üzərində işləyən əsl ədəbiyyat müəllimlərimizə uğurlar arzulayıram. AMİ-nin ixtisasartırma kurslarında suallarınızı gözləyirik.





# ZƏNCAN ƏDƏBİ MÜHİTİNİN YETİRMƏSİ OLAN SATİRİK ŞAİR ƏHMƏD SADİQİNİN POETİK DÜNYASI

**Böyükağa MOLLAYİ,**
**BDU-nun doktorantı**

Müasir dövrdə azərbaycanca satira şeiri bir sıra məşhur şairlərin mənəvi mirası kimi tanınmışdır. Mirzə Ələkbər Sabir, Mirzəli Möcüz Şəbüstəri və Marağalı Hüseyn Kərimi. Biz də böyük insanların əsərlərinə siyasi, ictimai, iqtisadi problemlərin aydın güzgüsü və düzgün tarixi kimi yanaşmalıyıq. Satirik şeir millətin yaşayış məktəbində hörmətlə yaşamaq dərsi dövlətin, millətin fikri, ruhi xəstəliklərini yaxşılaşdıran məlhəmidir. Buna görə də satiranın əsas qayəsi xalqın mədəni geriliyini aradan qaldırmaqdır. Bu məsuliyyəti daşımada tənqid ona məqsəd yox, yalnız bir vasitədir. İran İslam inqilabından sonra bir sıra acı hadisələr və çatışmazlıqlar, xalqı və öncül insanları sarsıtmışdır. Bu təsiredici öncüllərdən biri Zəncan şəhərində yaşayan satirik şair Əhməd Sadiqidir.

Əhməd Sadiqi 1959-cu ildə Zəncan əyalətinin Çaypara qəsəbəsində, Qızıl özən sahilində yerləşən Müşampa kəndində doğulmuş və beş yaşında öz kəndində molla məktəbinə daxil olmuşdur. Bu məktəbdə din və ərəb ədəbiyyatı ilə bağlı kitabları dərslik kimi oxumuş və ilkin təhsil və tərbiyənin təsirini özündə hiss etmişdir. Bu onun satirik şeirlərində də açıq-aydın özünü göstərmişdir (1, səh.3).

*Saqiya badə gətir, qəm yenə ləşgər gətirib,*
*Yığıb ənsar o süphün daha yeksər gətirib.*
*Genə səəd oğlu kimin dövrəliyib dam-daşımı,*
*Bir qərib üstünə bir kufə dilavər gətirib.*
*Xeymeye cəhlə şərər salmağa gəl "Hafizə" bax!*
*Sönmüş ataşkədədən gör necə ataş gətirib (2, səh.109).*

Qeyd edək ki, məhəbbət mövzusunda olan bir şeirdə dini terminlərdən istifadə etmək Hafiz təxəllüsü olan Sadıqinin yeniliklərindəndir. Hafiz şah rejiminin ziddinə olan İslam inqilabından on il öncə yeni məktəbə getmiş, ölkə daxili hadisələrdən təsir almış, inqilab anlayışını mənimsəmişdir (1, səh.3). Yoxsulluq Sadiqini təhsildən ayıraraq onu Tehranın və Kərəcin əmək bazarına çəkir, şair on ilə yaxın tikinti işində usta şagirdi olur. Bu müddətdə o, paytaxtın ədəbi cərgələri və siyasi axınlarına yaxınlaşır. Kitab oxumaq və öyrənmək onun əsas qayəsinə çevrilir. Böyük yazıçıların əsərləri ilə maraqlanır, dini, ictimai və ədəbi sahələrdə tədqiqat aparır, dünyagörüşünü genişləndirir.



Scanned with ACE Scanner

İnqilabçı Sadiqi bir neçə ildən sonra Zəncana qayıdır, bu şəhərin ədəbi "İşıq" qrupuna qoşulur; cəmiyyətdə böyük yazıçı, qəzetçi və şairlərlə tanış olur, öz düşüncəsini dərinləşdirir; yazıb-yaratdıqları həvəskarlar tərəfindən alqışlanır; əsərləri ədəbi və siyasi jurnallarda, xüsusən "Ümid Zəncan" həftəliyində yayılır; bütün oxucularını təsir altına alır və az bir zamanda Sadiqinin adı dillərdə, əsərləri əllərdə gəzir.

İnqilabçıların şüarları ilə reallıq münaqişəsi şairin incə ruhunu həyəcanlandırır. On yaşından zarafat həvəsi ilə şeir deyirdisə də, gəncliyində ictimaiyyətin böyük və ciddi tənqidçisinə çevrilir. İstəklərinə yad olan hadisələr onu şəhərdən çöllərə çəkir, bağçılığa başlayır. Şair həyəcanlı duyğularını və eşidilməz sözlərini ağaclar və güllər ətəyinə calayır, ağrı və kədərlərini onlara zümzümə edir. Bu zamandan ciddi şəkildə tənqid sahəsinə qədəm qoyur (1, səh.11). Dərin baxışlı bütün problemləri araşdırır, bu istiqamətdə misilsiz şeirlər yazır. Kəskin qələmi ilə qaranlıq pərdəsini yarmağa çalışır. Cəhalət, zulm, ədalətsizlik, qaydasızlıq, dini xurafatlar və sıxıntılar, bir sözlə, bütün çirkinliklərlə amansız mübarizə aparır. Və bu məqamda söyləyir:

*Əmələn şairə azada mənəm.*
*Od vuran xeymeye bidadə mənəm.*
*Sadiqəm, Sadiqiyəm, sadə mənəm.*
*Bu mürəmma kimi müşkül deyiləm (1, səh.28).*

Şairin "Qorxuram yağmaya yağış" adlı kitabı 2011-ci ildə çap olunur. Lakin təəssüf ki, onun əsas satirik şeir məcmuəsi olan "Taydəyişik" adlı məcmuə indiyədək nəşr icazəsi ala bilməmişdir. Bu məqalə imkan daxilində Sadiqinin dini satirasını araşdırarkən, hörmətli oxucunu şairin tənqid dünyası ilə tanış etməyə çalışır. Kimsə Sadiqinin şeirlərini eşidib oxuyursa, dilimizin gözəlliyi və elimizin yaşam özəlliyi, xalqımızın çətinlikləri və həyat tərzinin naqisliklərini gözünün önündə canlandıra bilər (1, səh.13).

Müqəddimədə qeyd etdiyimiz kimi, şair beş yaşında molla məktəbində təhsil almağa başlayır. Onun şəxsiyyətinin təməl daşı dini anlayışla qoyulur. Yeniyetməlik və gənclik çağında "ağıcılıq" edir. İnqilabın acı hadisələri onu satirik şairə çevirir. Əlbəttə, şairin fikri dəyişiklərində tarixi stimul amil olsa da, biz Düktür Əli Şəriəti kimi dinçi intellektualların təsirini onun həyatında görməliyik. Bu iddianın dəlili, Sadiqinin əsərlərində görünən "dini tənqidçilərin və ziyalıların" izləridir. Elə bu amil şairin şeirlərində dini terminlərin çoxluğuna mühüm bir səbəb sayıla bilər. Məsələn: Molla, Ayətullah, Cənnət, Cəhənnəm, Rövzə, Sirat körpüsü, Ayə, Surə, Quran, Bismillah və s. Baxın:

*Dutub zülfün genə bu küfrilən imanı taydeyşik;*
*Verir hey qətlimə fətva, yazır fərmanı taydeyşik.*
*Üzün surə, gözün ayə, qaşın bir əyri bismillah,*
*Bağışla dutmuşam sənlən, əgər quranı taydeyşik.*



Hər bir yaradıcının ətraf dünyasına baxışı müsbət olarsa, onun əsərləri, "mədh", tərif və alqışla dalğalanacaqdır; lakin onun baxışı mənfi olarsa, bütün yaratdıqları tənqidi olacaqdır. Elə buna görə də, şair bu şeirdə bizə elə bir dünyanı təsvir edir ki, orada heç nə öz yerində deyil, bəlkə də inverted mövqeyindədir. Bu "taydeyşik" aləmdə Küfr ilə - **İman**, Məşuqə ilə - **quran**, cinn ilə - **İnsan**, Əhrimən ilə - **Yaradan**, Hur ilə - **qılman** mövqeləri dəyişilibdir. Bu gicəlləndirici vəziyyətdə insanlar onun "divanın" bazardan **"taydeyşik"** alırlar:

*Açıqdır aynadan şeirim, Camaat aynimir, neynim,*
*Alır hər gün bazardan indi də, divanı taydeyşik (2, səh.139).*

Oxucu şairin yalnız bu əsərinin adına diqqət çəkərsə, şairin göstərdiyi dünyanı, oradan qaydaların pozulmasını, alçaqların yuxarıya qaldırılmasını, dahilərin sıxılmasını son səviyyədə təsəvvür edərək, bu şeirdə olan mübaliğənin, nəhayət, dərəcəsini görə bilər.

Şair cəmiyyətin ayıq vicdanıdır. Bu səbəbdən də xalqın güzgüdə görə bilmədiyi hadisələri o, xam kərpicdə görə bilir. Budur, şair bir sıra xurafata dönmüş dini ənənələri və onların bir demaqoq qrupun qidalanma mənbəsinə çevirməsini görərək deyir:

*Öldü məşə Mülkəli, bir elin ağsaqqalı,*
*Sürdülər qəbristana, qəbrə qoyub Seyfəli;*
*İstədi təlqin verə, meyyit üçün şeyxəli,*
*Bir ucadan fatəhə verdi dedi Mirzəli:*
*Kimdi bunun mərhəmi? Hamı dedi Mərdəli.*
*Mərdəli! Gəl qəbrə gir. Silkələ bu yəl-yəli.*
*Bir neçə mətləb görək, bu ölü, örgənməli.*

Şair dirilikdə dini vəzifəsini anlamayan adama öləndən sonra ərəbcə dini vəzifələrin öyrədilməsini istehza edərək sözünün davamında bu növ işləri bir faydasız və gülməli iş kimi dəyərləndirir:

*Başladı ondan sora: "əvvəl imamın Əli,*
*Mülkəli can latəxəf, gəlsə əli hərbəli.*
*Bir neçə söz zır ərəb, saydı ona Şeyx Əli.*
*Mən ki birin qanmadım, qandı necə Mülkəli?*
*Şeyxəlinin işləri gülməlidir, gülməli (2, səh.77).*

Ə.Sadiqi bu şeirdə öz xalqının arasında olan faydasız adət-ənənəni açıq şəkildə tənqid edərək deyir: Biz dirilikdə öz dini vəzifələrimizi öyrənib əməl etməliyik. İnsanlara, özəlliklə öz ailəmizə qayğı göstərməliyik. Marağalı Kərimi demişkən:

*Sağlığımda məni yad et, əxəvi,*
*Mən öləndən sonra cırma yəxəvi (3, səh.353).*



Scanned with ACE Scanner

Sadiqi də başqa bir şeirində dinini gözdən salanlara və ölüyə pərəstişkar olanlara xitab edərək deyir:

*Ölüyə aşiq olanlar!*
*Dinini gözdən atanlar!*
*Göz yaşıyla yaşıyanlar!*
*Cəddü abadı xürafat daşıyanlar (2, səh.32).*

Bəzi müsəlmanlar dinini gözdən salarkən, ölüyə bir aşiq kimi münasibət göstərirlər. Ölüyə dəfn, şami-qəriban, üç, ilk, cümə, yeddi, qırx və il mərasimlərində yığışıb ağlayırlar. Bəzən məzar üstündə bina tikib, dəfn çağı ölüyə ərəbcə dini məsələ öyrədirlər, başdaşında ölünü cənnət məkan adlandırırlar. Bu işlərin çoxu faydasızdır. Ölünün taleyində əsərsizdir. Buna görə də şair bu beytlərdə sadəcə soruşur: Dirilikdə ərəbi bilməyən və vəzifəsini anlamayan insana öləndən sonra ərəbcə təlqin vermənin nə faydası?

Avam insanlar, ayağına ayaqqabı və əyninə geyim tapmadan, bəzən dini vəzifələrini yerinə yetirmədən, öz ən vacib işlərini görmədən, ailəsinin rahatlığını təmin etmədən, evi olmadan, uşağına məktəb ləvazimatı almadan, borclu, icarəçi, işsiz olaraq, ağaclara nəzir verirlər, borc edib ziyarətə gedirlər. Şair bu geriliyi görərək "Kəsikbaş" adlı bir şeirində belə deyir:

*Ay kəsik baş kimi hər mahe mühərrəmdə-səfərdə,*
*Söylüyən mərsiyəxanlar!*
*Məzhəb adıla əvamın başına şirə yaxanlar...*
*Büdəti dinə qatanlar!*
*Haqqı nahaqqa satanlar!*
*Səfəvidə bizə miras qalanlar,*
*Bəsdi day köhnə yalanlar (2, səh.31).*

Şair gələcəyə – şaxtaların getməsinə, qaranlığın qurtarmasına, zülmət pərdəsinin yarılmasına və həqiqət günəşinin yayılmasına ümidlidir.

Şair öz xəyal şəhərində barış, azadlıq, ədalət və mədəniyyətlə qolboyundur. Orada heç bir quş qəfəsdə, heç bir insan dustaqxanada deyil. İstehsalçılar istismar olunmurlar. Bütün haqq sevən yazıçılar haqq sözlərini qorxusuz yazıb yayırlar:

*Bir vilayət istərəm sülh o cəfailən dolu,*
*Dar qəfəsdə quş kimi, heç kim dustaq olmasın.*
*Haqq sevən, haqq söyləyən azadələr yazsın sözün,*
*Başının üstündə bir sərnizə şallaq olmasın (1, səh.43)*

**ƏDƏBİYYAT**


1. *Sadiqi Əhməd. Qorxuram yağmaya yağış. Zəncan! "Nəşr Nikan", 2011*
2. *Sadiqi Əhməd. Taydeyşik (çap olunmamış şeirləri). Şairin şəxsi arxivində*
3. *Marağalı Huseyn Kərimi. Rəngarəng. 14-cu cild, üçüncü çap. "Qolpunə", 2005.*






# ALİMİN YUBİLEYİ

Geniş elmi yaradıcılıq diapazonuna malik olan filologiya elmləri doktoru, professor Aydın Paşayevin 75 yaşı tamam olmuşdur. Bu münasibətlə Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda yubiley tədbiri keçirilmişdir. Tədbirdə institutun direktoru, professor Asəf Zamanov Aydın müəllimin şəxsiyyətinə, elmi-pedaqoji fəaliyyətinə xüsusi qiymət vermişdir. Yubiley tədbirində institutun əməkdaşları ilə yanaşı Bakı şəhərinin qabaqcıl müəllimləri, A.Paşayevlə 40-45 il bundan qabaq işləmiş müəllim yoldaşları, dərs dediyi şagirdləri də iştirak edirdilər.

BPKİYİ-nin rektoru, professor Asəf Zamanov giriş sözündə qeyd etdi ki, A.Paşayev zəhmətkeş və təcrübəli alim-metodist olmaqla yanaşı, bacarıqlı kafedra müdiridir. O, doğrudan da, çox mürəkkəb, çətin, keşməkeşli həyat yolu keçmişdir. Əmək fəaliyyətinə fəhləliklə başlayan, zərbəçi fəhlə kimi şöhrətlənən, istehsalatdan ayrılmadan ali təhsil alan A.Paşayev elmi axtarışlarında da özünü göstərə bilmişdir.

Bakı şəhərindəki Azərbaycan dili və ədəbiyyatı müəllimləri içərisində böyük nüfuza malik olan Aydın müəllim təlim prosesində müəllimlərin çətinlik çəkə biləcəkləri problemləri əvvəlcədən görür və bu sahədə onların həm elmi, həm də metodik ehtiyaclarını ödəməyə çalışır. Onun həm mühazirələri, həm də Azərbaycan dili və ədəbiyyatının müxtəlif tədrisi problemlərinə həsr etdiyi vəsait və məqalələri müəllimlər tərəfindən həmişə rəğbətlə qarşılanır.

Aydın müəllimin Azərbaycan dili və ədəbiyyatının müxtəlif məsələlərinə həsr olunmuş kitab və məqalələri çoxdur. "Azərbaycan dili və ədəbiyyat təliminin bəzi problemləri" (Q.Sultanova və L.Həşimova ilə birlikdə), "Azərbaycan dili və ədəbiyyatı dərslərində interaktiv təlim metodlarının tətbiqi imkanları" (E.Cəfərova ilə), "İmla mətnləri" (V-XI siniflər üçün, A.Quliyeva və Məmmədxan Soltanovla), "İnteraktiv təlim Azərbaycan dili və ədəbiyyatı dərslərində" (E.Cəfərova ilə) əsərləri müəllimlərin stolüstü kitablarına çevrilmişdir.

Görkəmli alimin çoxsaylı məqalələri, "Qabaqcıl təcrübə – gələcəyə aparan yol" və "Maarif dünyasının qoşa ulduzu" adlı kitabları pedaqoji işçilərin qabaqcıl təcrübələrinin öyrənilməsinə həsr olunmuşdur. Birinci kitabda Bakı şəhərində işləyən 20-dən çox təcrübəli müəllimin pedaqoji fəaliyyətləri işıqlandırılmışdır. İkinci kitabı isə XX əsrin 30–40-cı illərində Masallı və Cəlilabad rayonlarında məktəb quruculuğunun ən görkəmli nümayəndəsi, uzun illər özünün yaratdığı, tikdirdiyi məktəbin direktoru olmuş Mirməmməd Ağayev və onun həyat yoldaşı Xanımbacı Ağayevanın həyat və fəaliyyətlərinə həsr edilmişdir.

Professor Asəf Zamanov çıxışının sonunda ömrünün ən məhsuldar dövrünü yaşayan Aydın Paşayevə bir daha cansağlığı, böyük yaradıcılıq



Scanned with ACE Scanner

uğurları arzuladı. Sonra o, "Professor Aydın Paşayev: görkəmli alim-pedaqoq" mövzusunda məruzə etmək üçün sözü AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, dosent Şəmil Sadıqova verdi.

Əvvəl A.Paşayevin çox çətin, mürəkkəb, lakin mənalı ömür yolu haqqında ümumi məlumat çatdıran Ş.Sadiq sonra onun metodist kimi Azərbaycan dili və ədəbiyyatı müəllimlərinə elmi və metodik köməyindən söz açdı. Natiq qeyd etdi ki, Aydın müəllim çox səbirli və təmkinli insandır. Təlim prosesində yol verdikləri elmi, metodik nöqsanları müəllimlərə elə çatdırır ki, heç kim narazı qalmır. O, bu üsulla kafedra əməkdaşlarının da nöqsanlarını asanlıqla aradan qaldırmağa nail olur. Aydın müəllim filoloq alimlər içərisində öz sözünü deməyi bacaran zəhmətkeş alim kimi də tanınır. "Səməd Vurğun əsərlərində köməkçi adları necə izah edirəm" adlı ilk elmi məqaləsi "Azərbaycan müəllimi" qəzetində (25 fevral 1977) işıq üzü görmüşdür. Onun həmin vaxtdan başlanan yaradıcılıq fəaliyyəti çox uğurlu olmuşdur. O həm metodist alim, həm də onomastika sahəsində orijinal fikirlər söyləyən nəzəriyyəçi alim kimi şöhrətlənmişdir. A.Paşayevin 30 monoqrafiya, metodik vəsait və lüğəti, 250-yə qədər jurnal və qəzet məqaləsi respublika və xarici ölkə mətbuatında dərc olunmuşdur. 80-dən çox əsəri doktorluq mövzusu ilə əlaqədardır.

Natiq qeyd etdi ki, A.Paşayevin üzərində 40 il işlədiyi "Azərbaycan şəxs adlarının izahlı lüğəti" (Alimə Bəşirova ilə) mükəmməl lüğətdir. Böyük bir kollektivin görə biləcəyi bu lüğətdə 16 mindən çox şəxs adının siyahısı, 11 mindən çox adın izahı verilmişdir. Sözlükdə əsl adların türkçülük baxımından izahına daha çox üstünlük verilmişdir. Onun professor Musa Adilovla birlikdə yazdığı "Azərbaycan onomastikası" (1987) əsəri filologiya fakültələrinin tələbələri üçün dərs vəsaiti kimi nəzərdə tutulmuşdur. "Azərbaycan şəxs adları" (1996), "Azərbaycan antroponimiyasının leksik problemləri" (1997), "Azərbaycan onomastikası. İzahlı terminoloji lüğət" (M.Adilovla, 2005), "Azərbaycan dili dərslərində ümumi və xüsusi sözlərin müqayisəli tədrisi məsələləri" (2005) əsərləri bu mövzuda yazılmış orijinal tədqiqatlardandır.

Görkəmli alimin bir sıra metodik tövsiyə və məqalələrində, "Bədii üslubda obrazlılığın ifadə imkanları" (2006), "Nizami Gəncəvinin poetik adlar aləmi" (2010), "Xəmsə"də işlənən xüsusi adların izahlı lüğəti" (2013) kitablarında isə bədii əsərlərdə işlənən xüsusi adların üslubi xüsusiyyətləri geniş işıqlandırılmışdır. Son illərdə isə alim dünyanın müxtəlif ölkə və xalqlarında işlənən türk mənşəli onomastik vahidlərin tətqiqi ilə məşğuldur.

Digər çıxışlardan sonra söz Aydın Paşayevə verildi. O, yubileyinin bu cür təntənəli qeyd olunmasının təşkilinə görə ilk növbədə institutun rektoru professor Asəf Zamanova, tədbir iştirakçılarına, bütün qonaqlara, şagirdlərinə təşəkkürünü bildirdi.



## ƏDƏBİ ALƏMDƏ

Azərbaycan Respublikasının YUNESKO yanında daimi nümayəndəliyinin təşkilatçılığı, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Parisdə, qurumun mənzil iqamətgahında görkəmli yazıçı-dramaturq İlyas Əfəndiyevin anadan olmasının 100 illiyinə həsr olunan təntənəli tədbir keçirilib.

***

Azərbaycanda "Molla Nəsrəddin" jurnalının 108-ci ildönümü qeyd olunur. Publisistikamızda satirik realizmin əsasını qoyan bu jurnal görkəmli yazıçı-dramaturq, publisist-naşır Cəlil Məmmədquluzadənin böyük səyi nəticəsində Azərbaycan ictimai fikrində özünəməxsus yer tutub. Ədibin və jurnalın ən məhsuldar araşdırmaçılarından olan AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli son açıqlamasında bildirib ki, əslində "Molla Nəsrəddin" jurnalının yaranma tarixi 7 aprel yox, 20 apreldir.

Alim öz arqumentini bu cür əsaslandırır: "Molla Nəsrəddin" jurnalının meydanaçıxma tarixi bu cür yazılır: "Tiflis, 7 aprel 1906-cı il". Ona görə də cəmiyyətimiz onu bu gün qeyd edir. Amma XX əsrin əvvəllərində tarixlərin üzərinə 13 gün də gəlmək lazımdır. Çünki 1917-ci il inqilabından sonra hökumət köhnə stillə il hesablanmasını 1 iyulda çıxardığı qərara əsasən dəyişdi və həmin 13 gün ləğv edildi. Belə olan halda tarixin 7 aprel yazılmasına baxmayaraq, üzərinə 13 gün gələndə, yəni yeni miladi tarixə çevirəndə "Molla Nəsrəddin"in yaranma günü 20 aprelə təsadüf edir. Biz Naxçıvanda 10 il dalbadal 20 apreldən başlayaraq Cəlil Məmmədquluzadə günlərini qeyd edirdik. Amma bu da yaxşı haldır. Elə qoy iki tarixdə keçirilsin. Amma dəqiq bilinməsi üçün qeyd etməliyik ki, "Molla Nəsrədin"in doğum tarixi, fikrimcə, 20 apreldir".

***

Azərbaycan Milli Kitabxanasında dünya şöhrətli yazıçı, Azərbaycan Yazıçılar Birliyinin katibi Çingiz Abdullayevlə görüş keçirilib. Görüşdə Rusiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Nikolay Patskeviç və tanınmış insanlar iştirak ediblər.

***

Azərbaycan ədəbiyyatında özünəməxsus şairələrdən olan Nurəngiz Günün 75 yaşı münasibətilə Yazıçılar Birliyinin Natəvan klubunda yubiley tədbiri keçirilib. Tədbirdə şairənin qələm dostları, millət vəkilləri, mədəniyyət adamları iştirak ediblər.

***

Rusiya Federasiyasının Xantı-Monsiysk şəhərində "Həyat yolları" Ədəbi Fondunun dəstəyi ilə VII Beynəlxalq "Yuqra" ədəbi mükafatının təqdimat mərasimi keçirilib. Azərbaycanın tanınmış yazıçı-tərcüməçisi Məmməd Oruc Yuqra ədəbiyyatını Rusiya xaricində uğurla tərcümə və təbliğ etdiyinə görə 2013-cü il laureatlarından biri kimi bu nüfuzlu mükafata layiq görülüb.

***



Scanned with ACE Scanner

## XARİCİ ÖLKƏLƏRDƏ

Mütəxəssislər həyəcan təbili çalaraq insanları ifrat miqdarda vitamin qəbul etməkdən çəkinməyə çağırırlar. "UT MD Anderson Cancer" səhiyyə təşkilatı (ABŞ) mütəxəssislərinin fikrincə, orqanizmin xüsusiyyətləri nəzərə alınmadan vitaminlərin və qida əlavələrinin qəbulu orqanizmə ziyan vurur, sağlamlıq durumunu möhkəmləndirmək əvəzinə ciddi xəstəliklər, o cümlədən xərçəng əmələ gətirir. Əvvəllər hesab edilirdi ki, E və C vitaminləri orqanizmi bədxassəli şişlərdən qoruyur. Lakin son tədqiqatlar bu versiyanı rədd edir. Üstəlik, tədqiqatçılar müəyyən ediblər ki, vitaminlərin düzgün seçilmədən qəbulu şişlərin əmələ gəlməsi və inkişafı riskini artırır, çünki yarımvitaminlərin nəzarətsiz qəbulu orqanizmdə bəsləyici maddələr balansını pozur. Mütəxəssislər kimyəvi preparatlara deyil, ərzaq məhsullarına meyl göstərməyi tövsiyə edir. Kimyəvi preparatlar sağlam qidalanmağa alternativ ola bilməz. Belə ki, orqanizmi faydalı maddələrlə meyvə-tərəvəz, paxlalı və dənli bitkilər təmin edir. Vitaminlər isə yalnız həkim məsləhətindən sonra rasionu tamamlaya bilər. Bütün bu xəbərdarlıqlara baxmayaraq, yarımvitaminlərin qəbulu bəzi insanlara, xüsusən ərzağa allergiyası olan, genetik və xroniki xəstəliklərdən əziyyət çəkən adamlara, vegetarianlara, ahıllara həqiqətən vacibdir.

***

Stress insanın ürək-damar sistemindəki çatışmazlıqdan dünyasını dəyişməsi riskini düz 5 dəfə artırır. Rusiya mətbuatının verdiyi məlumata görə, bunu hollandiyalı alimlər müəyyənləşdiriblər. Alimlər onu da üzə çıxarıblar ki, əgər insan xüsusilə 65 yaşından sonra stress keçirirsə, onun növbəti 6 ildə ürək tutmasından ölməsi riski 5 dəfə artır. Bu halda ölümə insult, infarkt, kəskin ürək çatışmazlığı səbəb ola bilər.

***

Türkiyənin Günəş enerjisi ilə işləyən ilk rəsmi avtomobilləri yollara çıxıb. Adıyaman Universitetinin texnologiya fakültəsi tərəfindən hazırlanan avtomobillər böyük maraqla qarşılanıb. Bu iki minik vasitəsi "Firat" və "Komagene" Günəş enerjisi ilə çalışır. Maşınlara adları universitetin tələbələri veriblər. Bölgənin şərtlərinə uyğun olaraq hazırlanan maşınlar saatda 50 km sürətlə hərəkət edir, ətraf mühiti çirkləndirmir.

***

Alimlər yeni göz dərmanı icad ediblər. Bu dərman yaşın artması ilə əlaqədar görmədə baş verən zəifləmənin qarşısını ala biləcək. Dərman göz alması damarlarının partlamasının qarşısını alan ilk preparatdır. Onu hazırlayan şirkətin mütəxəssislərinin sözlərinə görə, 30 yaşından yuxarı hər 200 şəxsdən biri bu xəstəlikdən əziyyət çəkir. Kapsulunun uzunluğu cəmi 6 millimetr olan "Ozurdeks" preparatı göz almasındakı venaların tutulması və gözün arxasındakı retinaya qan dövranının zəifləməsinin qarşısını alır. Beləliklə, görmə qabiliyyəti tədricən bərpa olunur.

***



## YENİ NƏŞRLƏR

**Əhməd Cavad. "Sən olasan gülüstan". Bakı, "Təhsil" nəşriyyatı, 2012.** Görkəmli Azərbaycan şairi Əhməd Cavadın seçilmiş əsərlərindən ibarət bu kitab şairin 120 illiyi münasibətilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən nəşr edilib. Kitabda şairin müxtəlif illərdə qələmə aldığı şeirləri, hekayələri, tərcümə yaradıcılığından bir nümunə, publisistik məqalələri toplanmışdır. Yazılar "Yaralıdır könlüm quşu, yaralı. Yaralandı yazıq şair olalı", "Ey qəhrəman övladın şanlı Vətəni!", "Baxdı qurbanına qurban olduğum" və s. başlıqlarda təqdim olunur. Kitabın tərtibçisi və ön sözün müəllifi Nərgiz Cabbarlıdır.

***

**Teymur Əhmədov. "Nizami Gəncəvi adına ədəbiyyat institutu", Bakı, "Nurlar" nəşriyyatı, 2013.** Nizami adına Ədəbiyyat İnstitutunun 80 illiyinə həsr edilmiş kitabda bu elm məbədinin təşəkkülü və tarixi inkişaf yolu izlənilir. Kitabda institutun yaradılmasında xüsusi xidməti olan alimlərin və 80 il ərzində bu instituta rəhbərlik edən direktorların tərcümeyi-halları, elmi fəaliyyətləri haqqında məlumatlar təqdim edilir. İnstitutun ayrı-ayrı şöbələri barədə geniş informasiyalar, həmçinin bu vaxtacan müdafiə olunmuş namizədlik və doktorluq dissertasiyalarının siyahısı da kitaba salınmışdır. Kitabın redaktoru professor Nizami Cəfərovdur.

***

**Anar. "Vahimə" və başqa povestlər", Kuba, Havana, "İncəsənət və ədəbiyyat" nəşriyyatı, 2013.** Kubanın paytaxtı Havanada "İncəsənət və ədəbiyyat" nəşriyyatı xalq yazıçısı Anarın "Vahimə" və başqa povestlər" adlı kitabını çap edib. Kitaba yazıçının "Vahimə", "Dantenin yubileyi" və "Əlaqə" povestləri daxildir. Əsərləri ispan dilinə Mariya Qaska Herpandez çevirib. Kitabda Anar haqqında məlumat verilir və "Beşmərtəbəli evin altıncı mərtəbəsi", "Ağ liman", "Ağ qoç, qara qoç" kimi əsərlərindən bəhs olunur.

***

**Gülşən Əliyeva – Kəngərli. "Sufizm", Bakı, "Aspoliqraf" nəşriyyatı, 2014.** Sufizm (Təsəvvüf) zaman-zaman bütün bəşəriyyəti düşündürən problemlərdən olmuşdur. Füzulişünas-alim, filologiya üzrə elmlər doktoru, professor Gülşən Əliyeva-Kəngərlinin Azərbaycan və ingilis dillərində çap olunan bu kitabında sufizm bədii-fəlsəfi cərəyan kimi şərh olunur, sufizmin təşəkkülündə və yayılmasında bədii ədəbiyyatın rolu araşdırılır, klassik ədəbiyyatımızda sufizm problemi təhlil edilir. Monoqrafiyanın redaktoru akademik İsa Həbibbəylidir.

***

**Valid Qardaşlı. "Marsdan gələn qonaq", "Əllərini yarama tut", "Araz" nəşriyyatı, 2014.** Bunlar tanınmış şair və jurnalistin yenicə çapdan çıxmış kitablarıdır. Birinci kitabda müəllifin hekayələri, ikinci kitabda isə publisistik yazıları verilmişdir.

***



Scanned with ACE Scanner

**BAŞ REDAKTOR:**
Məhəmməd BAHARLI

**MƏSUL KATİB:**
Vaqif ALKƏRƏMOV

**ŞÖBƏ REDAKTORLARI:**
Oqtay ABBASOV
Soltan HÜSEYNOĞLU

**REDAKSİYA HEYƏTİ:**
ANAR
Ağamusa AXUNDOV
Ənvər ABBASOV
Nizami CƏFƏROV
Nurlana ƏLİYEVA
Qənirə ƏMİRCANOVA
Tofiq HACIYEV
İsa HƏBİBBƏYLİ
Nizami XUDİYEV
Qəzənfər KAZIMOV
Əsgər QULİYEV
Şəmistan MİKAYILOV

**Ünvan: Bakı-10, Dilarə Əliyeva küçəsi, 227, 6-cı mərtəbə, otaq 608.**
**Telefonlar: 498-55-33; 493-06-09. Faks: 498-55-33.**
**E-mail: mehemmed-baharli@mail.ru**
**Kağız formatı 60x84 1/8. Uçot nəşr vərəqi 5.**
**Şərti çap vərəqi 6,3.**
**Jurnal Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Qeydiyyat nömrəsi 191.**
**Lisenziya V 236.**
**Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"na daxildir.**
**Jurnal ildə 4 dəfə çıxır. O, redaksiyanın kompüterində yığılır, «Elm və təhsil» nəşriyyat-poliqrafiya müəssisəsində çap olunur.**
**Çapa imzalanıb: 10.06.2014.**
**Jurnala abunə mətbuat yayımı şöbələrində aparılır.**
**Bir nüsxənin abunə və satış qiyməti 2 manatdır.**

Scanned with ACE Scanner

İNDEKS 1012




Scanned with ACE Scanner